**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİ**

# B Ü L L E T E N

№ 2 (20)

Naxçıvan – 2015

*Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.*

*Heydər Əliyev*



# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ

*Rəsmi sayt:* www.alimehkeme.nakhchivan.az
www.supremecourt.nakhchivan.az

**Buraxılış üçün məsul şəxs:**
*R.R.Süleymanov*

**Redaksiya heyəti :**
*Ə.K.Allahverdiyev*
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*V.K.Quliyev*
*M.Ə.Əliyev*
*G.Ə.Qurbanova*

**Məsul katib:**
*Y.F.Xəlilov*

**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 544-61-71*
*Faks: 544-70-82*

## M Ü N D Ə R İ C A T

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı* ........ **6**
*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi işçilərinin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı* ........ **7**
*Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi – 90* ........ **8**

## Yeni sənədlər, normativ aktlar

*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* ........ **19**
*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1202-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ........ **20**
*“Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* ........ **21**
*“Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1203-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı* ........ **22**
*Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsi üzvlərinin, habelə Azərbaycan Respublikası hakimlərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (çıxarış)* ........ **23**
*“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu* ........ **23**

## Məhkəmə fəaliyyəti

### Mülki kollegiyadan

*Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2015-ci ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ........... **24**

### İnzibati-iqtisadi kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2015-ci ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ..................................... **30**

### Cinayət kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2015-ci ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ......................................**32**

### Hərbi kollegiyadan

*Hərbi kollegiyanın 2015-ci ilin birinci yarısının yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar* ................. **38**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı* ......................................................................... **39**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Nikahın pozulması tələbinə dair mülki işlər üzrə məhkəmə təcrübəsində yaranan çətinliklər: mövcud hüquqi tənzimlənmə və mümkün həlli yolları* ............................................... **51**

## Hakimlərin milli və beynəlxalq qurumlarında

*Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2015-ci ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında* ......................................................... **57**

## Azad tribuna

*Avropa Məhkəməsinin presedentləri və milli qanunvericilik müstəvisində "cinayət törətməyə təhrik etmə" ("provakasiya") və əməliyyat-axtarış tədbiri kimi "nəzarət qaydasında mal alınması" institutlarına dair mülahizələr* ..................................**75**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2015-ci ilin may-oktyabr aylarında keçirilən tədbirlərin xülasəsi* .... **85**

*Naxçıvan Muxtar Respublikasının hakimləri üçün "Azərbaycan inzibati prosesinin aktual problemləri (Naxçıvan Muxtar Respublikasında hüquqtətbiqetmə təcrübəsi nəzərə alınmaqla)" mövzusunda seminar keçirilmişdir* ................................................ **88**

*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 90 illiyinə həsr olunmuş tədbir keçirilmişdir* .................................... **90**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİ

# 90

1925 - 2015

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN

FƏXRİ FƏRMANI

№ 48

*Naxçıvan Muxtar Respublikasının*
*Ali Məhkəməsi səmərəli*
*fəaliyyətinə görə*

NAXÇIVAN MUXTAR RESPUBLİKASI

ALİ MƏCLİSİNİN

FƏXRİ FƏRMANI İLƏ TƏLTİF EDİLMİŞDİR

NAXÇIVAN MUXTAR RESPUBLİKASI
ALİ MƏCLİSİNİN SƏDRİ: VASİF TALIBOV

02 oktyabr 2015-ci il

**Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi işçilərinin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin**

**SƏRƏNCAMI**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyəti orqanlarında və dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə:

Quliyev Vüqar Kərim oğluna

Mirzəyev İlqar Məhərrəm oğluna – **"Əməkdar hüquqşünas"** fəxri adı;

Vəliyev Yunis Əziz oğluna – **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı;

Seyidova Xasa Seyidəli qızına – **"Rəşadətli əməyə görə"** nişanı verilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 oktyabr 2015-ci il*

## *NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ – 90*

Ali Məhkəmənin nəşri olan Bülletenin iyirminci nömrəsinin işıq üzü görməsi qısa müddət əvvəl əlamətdar bir hadisənin baş verdiyi vaxta təsadüf edir. Belə ki, oktyabr ayının 3-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 90 illik yubileyi böyük iftixar hissi ilə qeyd olunmuşdur.

Bu günədək Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi uzun tarixi bir inkişaf yolu keçmişdir. Bu yol Naxçıvan Muxtar Respublikasının, bütövlükdə isə Azərbaycanın hüquq tarixi ilə bağlı olub ölkəmizin və muxtar respublikamızın keçdiyi çox mürəkkəb və əlamətdar tarixi hadisələrlə zəngin bir dövrünü özündə təcəssüm etdirir.

Qeyd edək ki, Azərbaycan Demokratik Cumhuriyyəti dövründə məhkəmə orqanları sisteminin yaradılması prosesi milli hakimiyyətin süqutu nəticəsində başa çatdırıla bilməmişdi. Ölkəmizdə yenidən məhkəmə orqanlarının təşkili prosesinə isə sovet hakimiyyətinin qurulmasından qısa müddət sonra başlanılmışdır. Tarixi mənbələrə əsasən demək olar ki, Naxçıvan MSSR-də Azərbaycan SSR Ali Məhkəməsinin bölməsi Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 3 oktyabr 1925-ci il tarixli qanunu ilə yaradılmışdır. Bu məhkəmənin təsis edilməsi və səlahiyyətinə daxil olan məsələlərin dairəsi onu Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin "sələfi" kimi qiymətləndirməyə və beləliklə, Ali Məhkəmənin yaranma tarixi olaraq məhz 1925-ci il 3 oktyabr tarixini qəbul etməyə əsas verir.

1934-cü ildən Naxçıvan MSSR Baş Məhkəməsi, 1937-ci ildən isə Naxçıvan MSSR Ali Məhkəməsi adlandırılan bu məhkəmə sonrakı dövrlərdə ciddi struktur dəyişikliyinə uğramamış və ona aid edilmiş işlərə birinci və yuxarı instansiya məhkəməsi qismində baxmaq, habelə fəaliyyəti dairəsində olan məhkəmələr üzərində məhkəmə nəzarətini həyata keçirmək funksiyalarına malik olmuşdur.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə bağlı Azərbaycan SSR-in məhkəmə orqanları sisteminin statusunu tənzimləyən qanunvericiliyin də dəyişdirilməsi zərurəti yaranmış, nəticədə 1981-ci ilin iyun ayının 16-da "Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında" yeni Qanun qəbul olunmuşdur. Həmin qanunda Naxçıvan MSSR Ali Məhkəməsinin səlahiyyətləri daha da genişləndirilmişdir. 26 iyun 1990-cı il tarixdə "Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında" Qanun qəbul edilmiş və bu Qanunla 1981-ci il tarixli qanunda təsbit edilən qaydalar daha da təkmilləşdirilmişdir.

1990-cı ilin əvvəllərindən başlayaraq SSRİ-də, o cümlədən Azərbaycanda cərayan edən hadisələr, ən başlıcası 18 oktyabr 1991-ci ildə Azərbay-

can Respublikasının dövlət müstəqilliyini əldə etməsi məhkəmə quruluşunun, ədalət mühakiməsi qaydalarının köklü şəkildə dəyişdirilməsi və məhkəmələrin müstəqilliyinin təmin edilməsi zərurətini ortaya çıxarmış, lakin həmin dövrdə digər sahələrdə olduğu kimi məhkəmə orqanları sistemində də aparılan dəyişikliklər yetərli olmamışdır.

Yalnız 1993-cü ildə Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi məhkəmə hakimiyyəti sahəsində də köklü islahatların bünövrəsi qoyulmuşdur. Demokratik dövlət quruculuğunun əsas hədəflərini müəyyən edən Ulu öndər demişdir: ***"Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır"***. Məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında dövlət hakimiyyəti qanunvericilik, icra və məhkəmə hakimiyyəti qollarına ayrılmış, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi müəyyən olunmuşdur.

Azərbaycan Respublikasında ədalət mühakiməsinin qabaqcıl təcrübə əsasında həyata keçirilməsinin təmin edilməsi və məhkəmə sisteminin daha da təkmilləşdirilməsi məqsədi ilə 10 iyun 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Həmin qanunun 10-cu fəsli Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin statusunun tənzimlənməsinə həsr olunmuşdur.

Konstitusiyanın qəbulundan ötən qısa müddət ərzində Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlanaraq qəbul olunmuş, 8 yanvar 1999-cu il tarixdən qüvvəyə minmişdir. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbulu muxtar respublikanın ictimai-siyasi həyatında mühüm əlamətdar hadisəyə çevrilmiş, muxtar respublikada dövlət idarəetməsinin təşkilinin mükəmməl hüquqi bazasını yaratmışdır. Bu konstitusiyanın məhkəmə hakimiyyətinə həsr olunmuş 4-cü fəslində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanı kimi təsis edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin statusu ilə bağlı özünəməxsus xüsusiyyətlərdən biri onun konstitusiya nəzarətini həyata keçirməsi ilə bağlıdır. Konstitusiyaya görə Ali Məhkəmə Naxçıvan Muxtar Respublikasının ərazisində apellyasiya qaydasında ədalət mühakiməsini həyata

keçirməklə yanaşı, konstitusiya nəzarətini də təmin edir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinin düzgünlüyünün yoxlanılaraq təsdiq edilməsi, muxtar respublikanın qanunvericilik aktları arasında uyğunluq məsələlərinin həll edilməsi, məhkəmələr tərəfindən insan hüquq və azadlıqlarının həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası qanunlarının şərh edilməsi haqqında müraciətlərə baxılması Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin konstitusiya nəzarəti orqanı kimi səlahiyyətlərinə daxildir.

Ölkəmizdə mövcud olan davamlı sosial-iqtisadi inkişaf tendensiyası, ictimai həyatın müxtəlif sahələrini əhatə edən yeniliklər məhkəmə sisteminin də təkmilləşdirilməsi işini daim diqqət mərkəzində saxlayır.

Ulu öndərin dövlətçilik konspesiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhkəmələrin çıxardığı qərarların taleyüklü əhəmiyyətini vurğulayaraq demişdir: ***“Ədalət hər bir cəmiyyətin inkişafı üçün başlıca amillərdən biridir. Hər yerdə ədalət olmalıdır, ilk növbədə, məhkəmə sistemində. Çünki məhkəmələrdə qəbul edilmiş qərarlar insanların taleyinə təsir göstərir”.***

Hazırda dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə məhkəmə sisteminin inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində çoxşaxəli islahatlar həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin məhkəmə hakimiyyətinin müasirləşdirilməsinə həsr olunan 19 yanvar 2006-cı il tarixli fərmanı məhkəmə islahatlarının növbəti mərhələyə qədəm qoymasına böyük təkan vermişdir. Bu mərhələdə vətəndaşların hüquq institutlarına olan tələbatının daha keyfiyyətlə təmin olunması üçün ölkəmizdə yeni apellyasiya məhkəmələri yaradılmışdır. Məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanları ilə regionlarda Ağır Cinayətlər və İnzibati-İqtisadi məhkəmələr yaradılmış, ölkədə fəaliyyət göstərən apellyasiya, ağır cinayətlər, inzibati-iqtisadi və hərbi məhkəmələrin ərazi yurisdiksiyası müəyyənləşdirilmişdir. Həyata keçirilən məhkəmə-hüquq islahatları ölkəmizin digər regionları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında da fəaliyyət göstərən məhkəmə orqanlarını əhatə etmişdir. Bu fərmanların qəbulundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin Ağır Cinayətlərə dair işlər üzrə birinci instansiya kollegiyası ləğv olunaraq ağır və xüsusilə ağır cinayətlərə baxmaq səlahiyyəti yeni yaradılmış Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinə verilmişdir. Eyni zamanda Ali Məhkəmədə daha iki kollegiya-iqtisadi mübahisələrə dair işlər üzrə və hərbi məhkəmələrin işləri üzrə kollegiyalar

fəaliyyətə başlamış, muxtar respublikada fəaliyyət göstərən bütün rayon (şəhər) və ixtisaslaşdırılmış məhkəmələrin hökm və qərarlarından apellyasiya şikayəti və protestlərinə baxılması səlahiyyəti Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanı son dərəcə mühüm əhəmiyyətə malikdir. Fərmanın qəbulundan sonra ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində muxtar respublikanın hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Hüquq institutlarının inkişaf etdirilməsi və məhkəmə orqanlarının maddi-texniki bazasının möhkəmələndirilməsi istiqamətində muxtar respublikada fəaliyyət göstərən məhkəmələr üçün müasir tələblərə cavab verən inzibati binaların tikilməsi xüsusi yer tutur.

Müqayisə üçün bir faktı qeyd edək ki, 1995-ci ilədək muxtar respublikada məhkəmə orqanlarının inzibati binaları nəinki istifadə üçün yararsız halda idi, bu binalar həmin dövrlərdə hətta məhkəmələrin balansında belə deyildi. Hazırda isə muxtar respublikamızda fəaliyyət göstərən bütün məhkəmə orqanları üçün qabaqcıl meyarları özündə ehtiva edən, həm memarlıq, həm də daxili tərtibat və dizayn baxımından ədalət mühakiməsinin özünəməxsus xüsusiyyətlərini əks etdirən inzibati binalar inşa edilib istifadəyə verilmişdir.

Bu məhkəmə binalarının açılış mərasimlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iştirak etmiş, yaradılan şəraitdən daha səmərəli istifadə edilməsi, hüquqi maarifləndirmə işlərinin genişləndirilməsi, qanunvericilik aktlarının daha dərindən mənimsənilməsi ilə bağlı hakimlərə və məhkəmə aparatı işçilərinə mühüm tövsiyələr vermişdir. Ali Məclisin Sədri bildirmişdir ki, ***"vətəndaşlara hüquq və vəzifələrinin izah edilməsi, məhkəmə prosesində ədalətli qərarların qəbul edilməsi daim diqqət mərkəzində saxlanılmalıdır"***.

Onu da qeyd etmək yerinə düşər ki, ötən dövr ərzində ədalət mühakiməsinin səmərəliliyinin artırılması, insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin daha da təkmilləşdirilməsi məqsədilə muxtar respublikada

Vəkillər Kollegiyası təsis edilmiş, müasir tələblərə cavab verən cəzaçəkmə müəssisələri və istintaq təcridxanaları yaradılmışdır.

Cəzaçəkmə müəssisələrinin muxtar respublikada təşkili və orada məhkumların, təqsirləndirilən şəxslərin saxlanılması şəraitinə dair müasir meyarların tətbiq olunması məhkəmə proseslərinin və məhkəmə qərarlarının icrasının tezliyinin təmin olunmasına və ədalətli məhkəmə araşdırması hüququnun realizə edilməsinə geniş imkanlar açmışdır.

Məhkəmə hakimiyyətinə göstərilən diqqət və qayğının digər bir təzahürü muxtar respublikada məhkəmə hakimiyyəti orqanlarının hakim korpusunun formalaşdırılmasında müşahidə olunmaqdadır. Belə ki, hakimlərin seçilməsinin Avropada ən mütərəqqi və şəffaf qaydaları tətbiq edilərək müasir standartlara cavab verən yeni kriteriyalar əsasında keçirilən seçim turları nəticəsində yüksək biliyə və mənəvi keyfiyyətlərə malik Naxçıvan Dövlət Universitetinin hüquq fakültəsinin məzunu olan 16 hüquqşünas muxtar respublikada fəaliyyət göstərən məhkəmələrə hakim vəzifələrinə təyin edilmişdir. Onu da qeyd edək ki, uğur qazanmış hakimliyə namizədlərin içərisində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aparatında işləmiş 6 hüquqşünas müxtəlif məhkəmə orqanlarında hakim vəzifələrinə təyin olunmuşdur.

Hazırda muxtar respublikada hakim korpusunun 50%-dən çoxunu yeni qaydalarla seçilmiş gənc nəsil hakimlər təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən muxtar respublikada fəaliyyət göstərən hakimlərə göstərilən yüksək etimadın nəticəsidir ki, peşəkarlıq və hüquqi hazırlıq nümayiş etdirən 4 hakim Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə, 5 hakim məhkəmə sədri vəzifəsinə irəli çəkilmiş, habelə 1 hakim Məhkəmə Hüquq Şurasının, 1 hakim isə Hakimlərin Seçki Komitəsinin üzvü seçilmişdir. Əvvəllər muxtar respublikamızın məhkəmə orqanlarında fəaliyyəti göstərmiş 3 hakim hazırda Azərbaycan Respublikasının Ali Məhkəməsində, 6 hakim isə ölkəmizin digər regionlarının müxtəlif məhkəmə orqanlarında hakimlik fəaliyyətlərini davam etdirirlər.

Müqayisə üçün onu da qeyd edək ki, əgər 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi sədr və müavindən başqa, 3 hakim və 11 məhkəmə aparatı işçisindən ibarət olmuşdursa, hazırda ştat cədvəlinə uyğun olaraq hakimlərin sayı 5 dəfə artırılaraq 14 nəfər, məhkəmə aparatı işçilərinin sayı isə 6 dəfə artırılaraq 71 nəfər olmuş, beynəlxalq təcrübəyə uyğun olaraq hər bir hakim üçün köməkçi ştatı müəyyən olunmuşdur.

Məhkəmə hakimiyyətinə göstərilən diqqət və qayğının digər nümunəsi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin və məhkəmə işçilərinin əməyinin yüksək qiymətləndirilməsi ilə bağlıdır. Belə ki, ötən dövr ərzində Azərbaycan Respublikası Prezidentinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri və dövlət qulluqçuları fəxri adlar və medallarla təltif edilmişdir.

Bütün bunlarla yanaşı, ötən illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə "Dövlət qulluğu haqqında" qanuna dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 3-cü kateqoriya dövlət orqanları sırasından 2-ci kateqoriya dövlət orqanları sırasına qaldırılmışdır. Bu isə Ali Məhkəmədə çalışan dövlət qulluqçularının maddi təminatının artması və onlara daha yüksək ixtisas dərəcələrinin verilməsi ilə nəticələnmişdir.

Görülmüş işlərin nəticəsidir ki, muxtar respublikamızda insan hüquq və azadlıqlarının daha səmərəli və keyfiyyətli şəkildə təmin olunmasına əlverişli şərait yaranmışdır. Təkcə bir fakta nəzər salmaq kifayətdir ki, ötən ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında muxtar respublikanın şəhər və rayon məhkəmələri tərəfindən baxılmış mülki işlərin sayında 30% artım olmuşdur. Bu statistik göstərici isə onu deməyə əsas verir ki, əhalinin məhkəmə orqanlarına və ədalət mühakiməsinin obyektiv şəkildə həyata keçirilməsinə inamı gün keçdikcə daha da artmaqdadır.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi ədalət mühakiməsi ilə yanaşı, əhali arasında hüquqi maarifləndirmə işinin gücləndirilməsinə, hakimlərin, məhkəmə işçilərinin ixtisaslarının artırılmasına yönələn tədbirlər də həyata keçirir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adı çəkilən fərmanlarını və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun məhkəmə orqanlarına ünvanladığı tövsiyələrini fəaliyyətində rəhbər tutan Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 2006-cı ildən bu günədək muxtar respublikanın məhkəmə və hüquq-mühafizə orqanları arasında ilk və yeganə hüquqi mətbu nəşr olan Bülletenini nəşr etdirir.

Muxtar Respublikamızda məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətində informasiya təminatının həyata keçirilməsinin təkmilləşdirilməsi, eləcə də məhkəmələrdə yeni informasiya-komunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində də mühüm işlər görülmüşdür. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan 15 iyul 2011-ci il tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının

elektron xidmətlər göstərməsinin təşkili haqqında" fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Ali Məhkəmədə hər il görüləcək işlərə dair tədbirlər planı təsdiq edilərək icra olunur.

Əhalinin müraciət etmək hüququnun daha da asanlaşdırılması məqsədilə elektron xidmətlər göstərilməsi üçün Ali Məhkəmənin internet saytının "Müraciətlər" bölməsindən istifadə etməklə vətəndaşlar öz ərizə və şikayətlərini istənilən vaxt elektron formada göndərmək imkanına malikdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində də müəyyən işlər görmüşdür. Ədalət mühakiməsinin daha səmərəli və şəffaf şəkildə həyata keçirilməsi, aşkarlıq və operativliyin təmin edilməsi məqsədilə 2014-cü ildə məhkəməyə daxil olan işlərin hakimlər arasında bərabər bölgüsünü müəyyən edən "Məhkəmə idarəetmə sistemi" proqram təminatı hazırlanaraq tətbiq olunmağa başlamışdır.

Bundan başqa, Ali Məhkəmənin Azərbaycan və ingilis dillərində fəaliyyət göstərən rəsmi internet saytı 2015-ci ildə xüsusi proqramlaşdırma dilində müasir standartlar səviyyəsində yenidən hazırlanmış, istifadəçilərin rahatlığını təmin etmək üçün mobil cihazların tələblərinə uyğunlaşdırılmış, saytda yayımlanan məlumatlardan istifadəni asanlaşdırmaq məqsədilə vahid axtarış sistemi qurulmuş, sayt Azərbaycan Respublikasının elektron məhkəmə sisteminin vahid portalına inteqrasiya edilmişdir.

Bu il həmçinin Azərbaycan Respublikası Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində həmin informasiya sistemini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə muxtar respublikada fəaliyyət göstərən məhkəmələrdə tətbiqini təmin etmək üçün mövcud məhkəmələrin inzibati binalarında müvafiq infrastrukturun qurulması işinə başlanılmış, hazırda bu sahədə işlər davam etdirilməkdədir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri demişdir: ***"Müstəqil ölkədə hüquqi islahatların, vətəndaş cəmiyyəti quruculuğunun həyata keçirilməsi, beynəlxalq öhdəliklərin yerinə yetirilməsi vacib şərtdir"***. Bu tövsiyələri fəaliyyətində rəhbər tutan Ali Məhkəmə beynəlxalq qurumlar və dövlət orqanları ilə əlaqələrini, onlarla təcrübə mübadiləsi aparılması işini daimi diqqət mərkəzində saxlayır, hakimlərin peşə vərdişlərinin artırılması, onların hüquqi biliklərinin daha da möhkəmləndirilməsi istiqamətində bir sıra tədbirlər yerinə yetirir.

Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin, ixtisaslaşdırılmış, rayon (şəhər) məhkəmələrinin hakimləri Amerika Birləşmiş Ştatları, Almaniya və Türkiyənin ayrı-ayrı məhkəmə orqanlarında ezamiyyətdə olmuş, təcrübə mübadiləsi aparmışlar.

2007-ci ildə Avropa Şurası Baş Katibinin ölkəmizdəki xüsusi nümayəndəsi Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində olmuşdur.

2011-ci ildə Naxçıvan Muxtar Respublikasının hakimləri üçün "Avropa İnsan Hüquqları Konvensiyasının tətbiqinin aktual məsələləri" mövzusunda seminar keçirilmiş, Azərbaycan Respublikasının Avropa İnsan Hüquqları Məhkəməsindəki hakimi Xanlar Hacıyev həmin seminarda iştirak edərək hakimləri maraqlandıran suallara aydınlıq gətirmişdir.

2013-cü ildə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Azərbaycan Hüquqşünasları Konfederasiyası, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və Almaniya Federal Ədliyyə Nazirliyinin Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun təşkilatçılığı ilə Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasında aparılan məhkəmə-hüquq islahatlarına həsr olunmuş beynəlxalq seminar keçirilmişdir.

2013 və 2015-ci illərdə isə Naxçıvan şəhərində Azərbaycan Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin hakimləri üçün müxtəlif hüquqi mövzulara həsr olunmuş seminarlar keçirilmişdir.

Keçirilmiş seminarların nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə ünvanlanmış minnətdarlıq məktublarında seminarların təşkili, ədliyyə sistemində inkişafın əldə olunması, muxtar respublikada fəaliyyət göstərən hakimlərin peşəkarlıq səviyyəsi yüksək qiymətləndirilmiş, bütün bu nailiyyətlərin gərgin əməyin sayəsində əldə olunması xüsusi olaraq vurğulanmışdır. Məktubda Naxçıvan Muxtar Respublikası ilə yaxından tanış olmaq, onun gözəl mənzərələrindən və mehriban insanlarından xoş təəssüratlar almaq imkanı üçün yaradılmış şəraitə və göstərilmiş köməyə görə muxtar respublika rəhbərliyinə dərin minnətdarlıq bildirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Naxçıvan Dövlət Universiteti ilə əlaqələrini də daimi diqqət mərkəzində saxlayır, hüquqşünaslıq ixtisasının tələbələrinin peşəkar hüquqşünas kimi yetişməsində yaxından iştirak edir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan 27 iyul 2015-ci il tarixli "Ali və orta ixtisas

təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Ali Məhkəmədə 2015-ci ildə görüləcək işlərə dair tədbirlər planı təsdiq edilərək müəyyən işlər görülmüşdür.

Qeyd edək ki, təkcə son beş ildə, yəni 2010-2015-ci illərdə Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisasını bitirən 26 hüquqşünas Ali Məhkəmənin aparatında, 55 hüquqşünas isə muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrində müvafiq inzibati vəzifələr üzrə işə qəbul edilmişdir.

Ötən dövr ərzində Naxçıvan Dövlət Universitetində hüquq fakültəsinin tələbələrinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri ilə görüşü təşkil edilmiş, tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

Bundan başqa, beynəlxalq və ölkə miqyaslı əlamətdar günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollegiya sədrləri və hakimlərinin iştirakı ilə Naxçıvan Dövlət Universitetində hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün hüquqi tədbirlər və konfranslar keçirilmişdir.

Ali Məhkəmənin nəşri olan Bülletenin ötən nömrələrində hüquq elminə marağın daha da artırılması və hüquqi biliklərin möhkəmləndirilməsi məqsədilə Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisasında təhsil alan tələbələrin məqalələrinə yer verilmişdir.

Bununla yanaşı, hazırda Ali Məhkəmənin 2 hakimi və 3 dövlət qulluqçusu Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasında müxtəlif hüquq sahələri üzrə pedaqoji fəaliyyətlər göstərir.

Ali Məhkəmədə keçirilən açıq məhkəmə iclaslarında hüquqşünaslıq ixtisasında təhsil alan tələbələrin iştirakı təmin edilir, onların Ali Məhkəmədə, muxtar respublikada fəaliyyət göstərən digər məhkəmələrdə istehsalat təcrübəsi keçməsinə geniş şərait yaradılır.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasını göstərən başqa bir amil də məhkəmədə zəngin hüquq ədəbiyyatı ilə təchiz olunmuş kitabxananın fəaliyyət göstərməsidir. Bununla məhkəmədə fəaliyyət göstərən hakimlər, aparat işçiləri, hüquqşünaslıq ixtisasında təhsil alan tələbələr müxtəlif sahələrə aid qanunvericilik və hüquq ədəbiyyatına olan tələbatını ödəyirlər.

Göründüyü kimi həm qanunvericiliyə gətirilən yeniliklər, həm də məhkəmələrin maddi təminat məsələlərinə göstərilən diqqət və qayğı, o cümlədən hakimlərin, məhkəmə işçilərinin iş şəraitinin müasir tələblər səviyyəsinə çatdırılması Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrinin keyfiyyətlə

yerinə yetirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli şəkildə qorunmasına xidmət edir. Şübhə yoxdur ki, görülən bu işlər muxtar respublikada bütün məhkəmə orqanlarının sürətlə inkişaf etdirilməsinə böyük təkan vermiş və nəticədə muxtar respublikada insan hüquq və azadlıqlarının daha möhkəm təminatı üçün əlverişli zəmin yaratmışdır.

Şərəfli bir tarixi inkişaf yolu keçərək bu il böyük ruh yüksəkliyi ilə 90 illik yubileyini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin bütün əməkdaşlarını yubiley münasibətilə təbrik edir, onlara öz məsuliyyətli işlərində uğurlar diləyirik.

**Ramiz Süleymanov**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin sədri*



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin "Yeni sənədlər, normativ aktlar" sərlövhəsini təqdim etməkdə məqsəd muxtar respublikamızla əlaqədar məsələləri nizama salan, habelə məhkəmə sistemi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunvericiliyə edilən dəyişikliklər, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün mühüm əhəmiyyətə malik olan rəsmi sənədlərlə oxucularımızı tanış etməkdir.

Sərlövhədə bu günədək 160-dan çox qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının, həmçinin əhalinin muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmalarına geniş imkan yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

**Redaksiya heyəti**

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784) aşağıdakı məzmunda 23-1-ci, 34-1-ci və 45-1-ci maddələr əlavə edilsin.

"Maddə 23-1. Rayon (şəhər) məhkəməsi sədrinin müavininin səlahiyyətləri

Rayon (şəhər) məhkəməsi sədrinin müavini məhkəmə iclaslarına sədrlik edir, rayon (şəhər) məhkəməsinin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədiyi müddətdə onu əvəz edir.

Maddə 34-1. Hərbi məhkəmə sədrinin müavininin səlahiyyətləri

Hərbi məhkəmə sədrinin müavini məhkəmə iclaslarına sədrlik edir, hərbi məhkəmənin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədiyi müddətdə onu əvəz edir.

Maddə 45-1. İnzibati-iqtisadi məhkəmə sədrinin müavininin səlahiyyətləri

İnzibati-iqtisadi məhkəmə sədrinin müavini məhkəmə iclaslarına sədrlik edir, inzibati-iqtisadi məhkəmənin sədri tərəfindən müəyyən edilmiş məsələləri həll edir, sədrin tapşırığı ilə onun ayrı-ayrı səlahiyyətlərini həyata keçirir, sədr olmadıqda və ya öz vəzifələrini yerinə yetirə bilmədiyi müddətdə onu əvəz edir.".

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 24 fevral 2015-ci il.

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1202-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1202-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 3 aprel 2015-ci il.

§

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununu "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1008-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; Azərbaycan Respublikasının 2014-cü il 30 dekabr tarixli 1169-IVQD nömrəli qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 10.1.8-ci maddə aşağıdakı redaksiyada verilsin:

"10.1.8. əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar vəzifəsini yerinə yetirə bilmədikdə;".

2. Aşağıdakı məzmunda 11.0.4-3-cü maddə əlavə edilsin:

"11.0.4-3. hakim vəzifəsindən öz arzusu ilə azad olunaraq ədliyyə orqanlarında inzibati vəzifədə və ya prokurorluq orqanlarında prokurorluq işçisi kimi işləyən şəxs yenidən hakim vəzifəsinə təyin edilmək arzusunu bildirdikdə, onu müsahibədən keçirmək;".

3. 12.0.10-cu maddə ləğv edilsin.

4. Aşağıdakı məzmunda 12.0.26-1-ci maddə əlavə edilsin:

"12.0.26-1. birinci instansiya məhkəmələrinin maliyyə təminatı üçün nəzərdə tutulan xərclər barədə müvafiq icra hakimiyyəti orqanının təkliflərinə rəy vermək;".

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 24 fevral 2015-ci il.

§

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1203-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1203-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 12.0.26-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 3 aprel 2015-ci il.

§

## Məhkəmə-Hüquq Şurası və Hakimlərin Seçki Komitəsi üzvlərinin, habelə Azərbaycan Respublikası hakimlərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
***(çıxarış)***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Məhkəmə-Hüquq Şurasında və Hakimlərin Seçki Komitəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

...

“Tərəqqi” medalı ilə

Allahverdiyev Əli Kərim oğlu

...

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 19 may 2015-ci il.

§

## “Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununun 26.4.1-ci maddəsində “vətəndaşlığını itirdikdə” sözləri “vətəndaşlığına xitam verildikdə” sözləri ilə əvəz edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 iyul 2015-ci il*

§



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2015-ci ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2015-ci ilin birinci yarısında 685 mülki işə baxılmaqla nəticə verilmişdir. 2014-cü ilin birinci yarısında isə həmin məhkəmələr tərəfindən 534 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında 28,28% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 43 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı cari ilin birinci yarısında 43 mülki işdən 38 işə apellyasiya qaydasında baxılaraq 20 qətnamə və 2 qərardad dəyişdirilmədən saxlanılmış, 16 qətnamə isə dəyişdirilmiş və ya ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 5 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 12 iş
- mənzil mübahisələri – 5 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 1 iş
- torpaq mübahisələri – 1 iş
- xüsusi icraat işləri üzrə – 1 iş
- digər mülki işlər – 23 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2015-ci ilin birinci yarısında baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında apellyasiya şikayətlərinin sayı iki dəfə artmışdır. Belə ki, 2014-cü ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 19 apellyasiya şikayətinə baxılmışdır. Bu artım isə onu deməyə əsas verir ki, əhalinin məhkəmə orqanlarına və ədalət mühakiməsinin obyektiv şəkildə həyata keçirilməsinə inamı gün keçdikcə artmaqdadır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında aşağı olmuşdur. Belə ki, 2014-cü ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 534 qətnamə və qərardadlardan 1,5%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2015-ci ilin birinci yarısında məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 685 qətnamə və qərardadlardan 2,34%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2014-cü ilin birinci yarısında 98,5%, 2015-ci ilin birinci yarısında isə 97,66% təşkil etmişdir.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, muxtar respublikanın şəhər və rayon məhkəmələrinə 2015-ci ilin birinci yarısında daxil olan mülki işlərin 34,01%-ni nikahın ləğvi tələbi ilə əlaqədar olan işlər təşkil etmişdir. Müqavilələrdən əmələ gələn öhdəliklər və mənzil mübahisələri üzrə işlərin sayı da digər mübahisələrə nisbətən daha çox olmuşdur.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2015-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan qərarların 37,21%-nin ləğv və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2014 və 2015-ci illərin birinci yarısına dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2014-cü ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | İddia baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **7** | **1** | **4** | | | | **1** | | **1** |
| **Babək** | **1** | | **1** | | | | | | |
| **Şərur** | **3** | | **1** | | **2** | | | | |
| **Şahbuz** | **4** | | **3** | | **1** | | | | |
| **Sədərək** | **1** | | | | | | | **1** | |
| **Ordubad** | **3** | | | | **2** | | | **1** | |
| **YEKUN** | **19** | **1** | **9** | | **5** | | **1** | **2** | **1** |

2015-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | İddia baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **15** | **1** | **9** | **2** | **1** | | **2** | | |
| **Babək** | **2** | | **2** | | | | | | |
| **Şərur** | **11** | **1** | **3** | **3** | **3** | | | | **1** |
| **Şahbuz** | **3** | **2** | | | **1** | | | | |
| **Kəngərli** | **2** | | **1** | **1** | | | | | |
| **Culfa** | **7** | **1** | **4** | | **1** | | | | 1 |
| **Ordubad** | **3** | | **1** | **2** | | | | | |
| **YEKUN** | **43** | **5** | **20** | **8** | **6** | | **2** | | **2** |

Apellyasiya qaydasında 2015-ci ilin birinci yarısında ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Ordubad Rayon

Məhkəməsi, ən yüksək göstəriciyə isə Babək və Sədərək rayon məhkəmələri malikdirlər. Belə ki, 2015-ci ilin birinci yarısında Ordubad Rayon Məhkəməsində çıxarılan 49 qərardan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 4,08%-i dəyişdirildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 95,92% olduğu halda, Babək və Sədərək rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitliyi üzrə göstəriciləri 100% təşkil etmişdir. Çünki, həmin dövrdə Babək Rayon Məhkəməsi tərəfindən çıxarılmış 88 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmiş, Sədərək Rayon Məhkəməsi tərəfindən çıxarılmış 11 qətnamə və qərardaddan isə apellyasiya şikayəti verilməmişdir.

Şahbuz Rayon Məhkəməsi tərəfindən 2015-ci ilin birinci yarısında çıxarılan 73 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,37%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,63% təşkil etmişdir.

Kəngərli Rayon Məhkəməsi tərəfindən 2015-ci ilin birinci yarısında çıxarılan 52 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,92%-i dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,08% təşkil etmişdir.

Culfa Rayon Məhkəməsi tərəfindən 2015-ci ilin birinci yarısında çıxarılan 45 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,22%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,78% təşkil etmişdir.

Naxçıvan Şəhər Məhkəməsi tərəfindən 2015-ci ilin birinci yarısında çıxarılan 219 qətnamə və qərardaddan 5 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,28%-i ləğv edilmiş və yaxud dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,72% təşkil etmişdir.

Şərur Rayon Məhkəməsi tərəfindən 2015-ci ilin birinci yarısında çıxarılan 148 qətnamə və qərardaddan 6 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 4,05%-i ləğv edilmiş və yaxud dəyişdirilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 95,95% təşkil etmişdir.

2014-cü ilin birinci yarısında isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Babək Rayon Məhkəməsi – 100% (78 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);
- Kəngərli Rayon Məhkəməsi – 100% (35 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);
- Culfa Rayon Məhkəməsi – 100% (32 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);

- Naxçıvan Şəhər Məhkəməsi – 99,43% (174 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,57%-i ləğv edilmişdir);
- Şahbuz Rayon Məhkəməsi – 98,57% (70 qətnamə və qərardaddan 1 qətnamə, yəni 1,43%-i ləğv edilmişdir);
- Şərur Rayon Məhkəməsi – 98,17% (109 qətnamə və qərardaddan 2 qətnamə, yəni 1,83%-i ləğv edilmişdir).
- Sədərək Rayon Məhkəməsi – 90,91% (11 qətnamə və qərardaddan 1 qərardad, yəni 9,09%-i ləğv edilmişdir);
- Ordubad Rayon Məhkəməsi – 88% (25 qətnamə və qərardaddan 2 qətnamə və 1 qərardad, yəni 12%-i ləğv edilmişdir);

Qətnamə və qərardadların sabitliyi üzrə 2014 və 2015-ci illərin birinci yarımilinə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Babək Rayon Məhkəməsinin əvvəl əldə olunmuş yüksək göstəricisi dəyişməmişdir. Naxçıvan Şəhər Məhkəməsinin, eləcə də Culfa, Kəngərli və Şərur rayon məhkəmələrinin sabitlik göstəricisi 2014-cü ilin birinci yarısı ilə müqayisədə aşağı düşmüş, Sədərək, Ordubad, Şahbuz rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə yüksəlmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmənin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, ötən ilin birinci yarısında olduğu kimi 2015-ci ilin birinci yarısında da ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2014-cü ilin birinci yarısında 174 mülki işə, 2015-ci ilin birinci yarısında isə 219 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- Şərur Rayon Məhkəməsi – 148 iş (2014-cü ilin birinci yarısında 109 işə baxılmışdır);
- Babək Rayon Məhkəməsi – 88 iş (2014-cü ilin birinci yarısında 78 işə baxılmışdır);
- Şahbuz Rayon Məhkəməsi – 73 iş (2014-cü ilin birinci yarısında 70 işə baxılmışdır);
- Kəngərli Rayon Məhkəməsi – 52 iş (2014-cü ilin birinci yarısında 35 işə baxılmışdır);
- Ordubad Rayon Məhkəməsi – 49 iş (2014-cü ilin birinci yarısında 25 işə baxılmışdır);

- Culfa Rayon Məhkəməsi – 45 iş (2014-cü ilin birinci yarısında 32 işə baxılmışdır);
- Sədərək Rayon Məhkəməsi – 11 iş (2014-cü ilin birinci yarısında 11 işə baxılmışdır);

Göründüyü kimi 2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında Naxçıvan Şəhər Məhkəməsində, eləcə də Şərur, Babək, Şahbuz, Kəngərli, Ordubad Culfa rayon məhkəmələrində iş yükü artmış, Sədərək Rayon Məhkəməsində isə iş yükü dəyişməmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 2015-ci ilin birinci yarısında baxdığı mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlarından Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 11 kassasiya şikayəti verilmiş və kassasiya instansiyasında 6 şikayətə mahiyyəti üzrə baxılması nəticəsində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 3 qətnamə və 2 qərardadı dəyişdirilmədən saxlanılmış, 1 qətnamə ləğv edilərək baxılması üçün geri qaytarılmış, 5 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2015-ci ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 98,75% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## *İNZİBATİ-İQTİSADİ KOLLEGİYADAN*

### Məhkəmə fəaliyyətinə dair 2015-ci ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına ümumilikdə inzibati və iqtisadi mübahisələrlə bağlı 77 iş daxil olmuş, onlardan 55 işə baxılmış, 22 iş isə qalıq qalmışdır. Baxılan işlərdən 33 iş inzibati mübahisələrə dair, 22 iş isə iqtisadi mübahisələrə dair mülki işlər olmuşdur.

2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı daxil olan işlərin sayı 13,23% artmışdır. Belə ki, 2014-cü ilin birinci yarısında İnzibati-İqtisadi Məhkəmənin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı 68 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsində 2015-ci ilin birinci yarısında baxılan işlərin böyük əksəriyyətini məcburetmə, hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında olan iqtisadi mübahisələr haqqında iddialara dair (38 iş – yəni 69,09%) işlər təşkil etmişdir.

2015-ci ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 8 apellyasiya şikayətinə baxılmışdır. Kollegiyada həmin şikayətlərə baxılaraq 3 iş üzrə 1 qərar və 2 qərardad ləğv edilmiş, 5 iş üzrə 5 qərardad isə dəyişdirilmədən qüvvədə saxlanılmışdır. Müqayisə üçün qeyd edək ki, 2014-cü ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 3 apellyasiya şikayətinə baxılmışdır. Göründüyü kimi 2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında kollegiyada baxılan inzibati mübahisələrlə bağlı işlərin sayı artmışdır.

2015-ci ilin birinci yarısında Naxçıvan MR İnzibati-İqtisadi Məhkəməsinin iqtisadi mübahisələrə dair mülki işlərlə bağlı çıxardığı qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2 apellyasiya şikayətinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 1 qətnamə dəyişdirilmədən qüvvədə saxlanılmış, 1 qətnamə isə dəyişdirilmişdir. 2014-cü ilin birinci yarısında isə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında iqtisadi mübahisələrlə bağlı 1 işə baxılmışdır. Göründüyü kimi 2014-cü ilin birinci

yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında kollegiyada baxılan iqtisadi mübahisələrə dair mülki işlərin sayı artmışdır.

2015-ci ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada çıxarılmış inzibati mübahisələrə dair işlər üzrə 1 qərar və 3 qərardaddan kassasiya şikayəti verilmiş, kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 1 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qərardad ləğv edilərək baxılması üçün geri qaytarılmış, 2 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının icraatında baxılmaqdadır.

2015-ci ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada çıxarılmış iqtisadi mübahisələrə dair mülki işlər üzrə 1 qətnamədən kassasiya şikayəti verilmiş, həmin kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının çıxardığı qərarların sabitlik göstəricisi 90% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

## CİNAYƏT KOLLEGİYASINDAN

### Məhkəmə fəaliyyətinə dair 2015-ci ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2015-ci ilin birinci yarısında 8 nəfərin barəsində 8 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2014-cü illin birinci yarısında həmin məhkəmələr tərəfindən 15 nəfərin barəsində 13 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2015-ci ilin birinci yarısında baxılmış 1 cinayət işi üzrə 1 nəfər barəsində bəraət hökmü, 7 cinayət işi üzrə 7 nəfərin barəsində isə ittiham hökmləri çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2014 və 2015-ci illərin birinci yarısına dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| Cinayətlərin növü | 2014-cü ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı) | 2015-ci ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı) |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər | - | 2 / 2 |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 1 / 1 | 1 / 1 |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 1 / 1 | 1 / 1 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | 10 / 8 | 3 / 3 |
| İctimai təhlükəsizlik əleyhinə olan cinayətlər | 2 / 2 | - |
| Şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər | 1 / 1 | - |

2014 və 2015-ci illərin birinci yarısında məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| Təyin olunan əsas cəzaların növləri | 2014-cü ilin birinci yarısı üzrə məhkumların sayı | 2015-ci ilin birinci yarısı üzrə məhkumların sayı |
|---|---|---|
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 11 nəfər | 6 nəfər |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 4 nəfər | 1 nəfər |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2014-cü ilin birinci yarısında məhkum edilmiş şəxslərin 73,33%-ni, 2015-ci ilin birinci yarısında isə məhkum olunanların 85,71%-ni təşkil etmiş, yəni 2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 12,38% artmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan həcmi isə əksinə 12,38% azalmışdır (ümumilikdə götürüldükdə).

2014 və 2015-ci illərin birinci yarısında baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| Məhkəmənin adı | 2014-cü ilin birinci yarısı üzrə (məhkumun və cinayət işinin sayı) | 2015-ci ilin birinci yarısı üzrə (məhkumun və cinayət işinin sayı) |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 2 nəfər / 1 iş | 1 nəfər / 1 iş |
| Naxçıvan Şəhər Məhkəməsi | 1 / 1 | 4 / 4 |
| Culfa Rayon Məhkəməsi | 7 / 6 | 2 / 2 |
| Şərur Rayon Məhkəməsi | 2 / 2 | - |
| Babək Rayon Məhkəməsi | - | - |
| Kəngərli Rayon Məhkəməsi | 2 / 2 | - |
| Ordubad Rayon Məhkəməsi | - | 1 / 1 |
| Sədərək Rayon Məhkəməsi | 1 / 1 | - |
| Şahbuz Rayon Məhkəməsi | - | - |

Cədvəldən göründüyü kimi 2014-cü ilin birinci yarısından fərqli olaraq 2015-ci ilin birinci yarısında Culfa Rayon Məhkəməsində baxılmış cinayət işlərinin sayı azalmış, Naxçıvan Şəhər Məhkəməsində baxılmış cinayət işlərinin sayı artmışdır. Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər

Məhkəməsinin icraatına daxil olan cinayət işləri üzrə göstərici dəyişməmiş, Babək və Şahbuz rayon məhkəmələrinin icraatına isə ötən yarımildə olduğu kimi cinayət işi daxil olmamışdır. Ötən yarımillikdən fərqli olaraq 2015-ci ilin birinci yarımilində Ordubad Rayon Məhkəməsinin icraatına cinayət işi daxil olmuş, Şərur, Kəngərli və Sədərək rayon məhkəmələrinin icraatına isə cinayət işi daxil olmamışdır.

2015-ci ilin birinci yarısında birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 7 hökm dəyişdirilmədən qüvvədə saxlanılmışdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2015-ci ilin birinci yarısında 17 işə (materiala) baxılmışdır. 2014-cü ilin birinci yarısı ilə müqayisədə bu göstərici 26,09% azalmışdır (həmin dövrdə 23 işə baxılmışdır).

2015-ci ilin birinci yarısında xüsusi icraat qaydasında həll edilən işlərdən 1 iş (5,88%) tutulma (AR CPM-in 152-ci maddəsində nəzərdə tutulmuş halda), 6 iş (35,29%) həbs qətimkan tədbirinin seçilməsi, 3 iş (17,65%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 2 iş (11,76%) ümumi və ya ciddi rejimli cəzaçəkmə müəsissəsinin məntəqə tipli cəzaçəkmə müəsissəsi ilə əvəz olunması, 5 iş (29,41%) tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi barəsində olmuşdur.

Muxtar respublikanın rayon (şəhər) məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2014 və 2015-ci illərin birinci yarısının göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2014-cü ilin birinci yarısı üzrə (şəxslərin və işlərin sayı)** | **2015-ci ilin birinci yarısı üzrə (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 19 nəfər / 19 iş | 4 nəfər / 4 iş |
| Şərur Rayon Məhkəməsi | 1 / 1 | - |
| Babək Rayon Məhkəməsi | - | - |
| Culfa Rayon Məhkəməsi | 1 / 1 | 3 nəfər / 3 iş |
| Ordubad Rayon Məhkəməsi | - | - |
| Kəngərli Rayon Məhkəməsi | 2 / 2 | 10 nəfər / 10 iş |
| Şahbuz Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | - | - |

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrində 2015-ci ilin birinci yarısında 218 nəfərin barəsində 212 inzibati xəta haqqında işə baxılmışdır.

2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında baxılan inzibati xəta haqqında işlərin sayı 81,20%, barələrində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı isə 81,67% artmışdır (2014-cü ilin birinci yarısında 120 nəfərin barəsində 117 inzibati xəta haqqında işə baxılmışdır).

2015-ci ilin birinci yarısında barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 27 nəfərə (12,39%) inzibati həbs, 41 nəfərə (18,81%) inzibati cərimə, 11 nəfərə (5,05%) xəbərdarlıq, 58 nəfərə (26,61%) isə inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuşdur.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2014 və 2015-ci illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **İnzibati xətanın növləri** | **2014-cü ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** | **2015-ci ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Xırda xuliqanlıq | 15 nəfər/ 15 iş | 14 nəfər/ 14 iş |
| Aksiz markası olmayan məhsulların, malların satılması | 1 nəfər / 1 iş | 7 nəfər / 7 iş |
| Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma | 12 nəfər / 12 iş | 15 nəfər / 15 iş |
| Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi | 2 nəfər/ 2 iş | - |
| Nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi | 3 nəfər / 3 iş | - |
| Xırda talama | - | 1 nəfər / 1 iş |
| Piyadalar və yol hərəkətinin başqa iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının pozulması | 1 nəfər / 1 iş | - |
| Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama | 14 nəfər / 14 iş | 8 nəfər / 6 iş |
| Qumar oyunu | - | 12 nəfər / 8 iş |

| | | |
|---|---|---|
| Məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməsi | 23 nəfər / 22 iş | 32 nəfər / 32 iş |
| Digər inzibati xətalar | 49 nəfər / 47 iş | 129 nəfər / 129 iş |

Göründüyü kimi 2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən baxılan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma ilə bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 25%, aksiz markası olmayan məhsulların, malların satılması ilə əlaqədar olan inzibati xətalar üzrə barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 7 dəfə, məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin təqdimatı üzrə tədbirlər görülməsi ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 39,13 %, digər inzibati xətalarla bağlı barəsində tənbeh tədbiri tətbiq olunan şəxslərin sayı 2 dəfə artmışdır. 2014-cü ilin birinci yarısından fərqli olaraq 2015-ci ilin birinci yarısında xırda xuliqanlıqla bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 6,67%, polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 42,86% azalmışdır. Ötən yarımildən fərqli olaraq 2015-ci ilin birinci yarısında rayon (şəhər) məhkəmələrinin icraatına Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən malların gömrük nəzarətindən gizlədilməsi ilə bağlı, nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi ilə bağlı, piyadalar və yol hərəkətinin başqa iştirakçıları tərəfindən yol hərəkəti qaydalarının pozulması ilə bağlı işlər daxil olmamış, qumar oyununda iştirak etmə və xırda talama ilə bağlı olan inzibati xətaya dair iş daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2014 və 2015-ci illərin birinci yarısına dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2014-cü ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** | **2015-ci ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 19 nəfər / 17 iş | 67 nəfər / 67 iş |
| Şərur Rayon Məhkəməsi | 26 / 25 | 35 / 41 |
| Babək Rayon Məhkəməsi | 4 / 4 | 32 / 32 |
| Culfa Rayon Məhkəməsi | 8 / 8 | 16 / 16 |
| Ordubad Rayon Məhkəməsi | 8 / 8 | 24 / 24 |

| | | |
|---|---|---|
| Kəngərli Rayon Məhkəməsi | 9 / 9 | 14 / 14 |
| Şahbuz Rayon Məhkəməsi | 34 / 34 | 20 / 20 |
| Sədərək Rayon Məhkəməsi | 12 /12 | 4 / 4 |

2015-ci ilin birinci yarısında muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında 2 apellyasiya şikayətinə baxılmışdır.

Şahbuz Rayon Məhkəməsinin 2 qərarından verilən həmin şikayətlərə baxılaraq 1 qərar dəyişdirilmiş, 1 qərar isə ləğv edilərək barəsində inzibati tənbeh tətbiq edilmiş şəxs inzibati məsuliyyətdən azad olunmuşdur.

Muxtar respublikanın şəhər və rayon məhkəmələri tərəfindən 2015-ci ilin birinci yarısında inzibati xətalara dair işlər üzrə çıxarılan qərarlardan 1 qərar dəyişdirildiyindən, 1 qərar isə ləğv edildiyindən qərarların sabitlik göstəricisi 99,06% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının icraatına 2015-ci ilin birinci yarısında daxil olmuş işlərdən kassasiya şikayəti və kassasiya protesti verilməmişdir.

Beləliklə, 2015-ci ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## ***HƏRBİ KOLLEGİYADAN***

### Hərbi kollegiyanın 2015-ci ilin birinci yarısının yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının icraatına 2015-ci ilin birinci yarısında 9 nəfərin barəsində 7 cinayət işi üzrə 7 apellyasiya şikayəti daxil olmuşdur. 2014-cü ilin birinci yarısında isə kollegiyanın icraatına 3 nəfərin barəsində 3 cinayət işi daxil olmuşdur.

Göründüyü kimi 2014-cü ilin birinci yarısı ilə müqayisədə 2015-ci ilin birinci yarısında hərbi kollegiyanın icraatına daxil olan işlərin sayı artmışdır.

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsində çıxarılmış ittiham hökmlərindən verilmiş apellyasiya şikayətləri cinayətlərin təsnifatına görə böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlər üzrə işlərdən olmuşdur.

Məhkumların təqsirli bilindikləri konkret əməllərə gəldikdə mübahisələndirilən hökmlərlə üç nəfər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 182.2.1, 182.2.2, 182.2.3, 332.2.1, 332.2.2 və 332.2.3, iki nəfər 332.1, bir nəfər 332.2.3, bir nəfər 328.1, bir nəfər 134, 150.1 və 332.2.4, bir nəfər isə 351.2-ci maddələri ilə məhkum edilmişlər.

Barəsində apellyasiya qaydasında işə baxılmış məhkumlardan bir nəfər gizir, 2 nəfər çavuş, 6 nəfər isə əsgər olmuşdur.

Apellyasiya şikayətlərinə baxılması zamanı məhkəmə iclasları məhkəmə istintaqı aparılmadan keçirilməklə apellyasiya şikayətlərinə baxılması nəticəsində 2 hökm dəyişdirilmiş, 5 hökm isə dəyişdirilmədən qüvvəsində saxlanılmışdır.

Ali Məhkəmənin hərbi kollegiyasının icraatına daxil olmuş işlər üzrə 2015-ci ilin birinci yarısında 4 nəfər barəsində 4 yekun məhkəmə qərarından kassasiya şikayəti verilmişdir. Kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasında baxılaraq 1 nəfər barəsində 1 iş üzrə çıxarılmış 1 qərar dəyişdirilmədən saxlanılmış, 1 nəfər barəsində 1 iş üzrə çıxarılmış 1 qərar dəyişdirilmiş, 2 kassasiya şikayəti isə hazırda baxılmaqdadır.

Beləliklə, 2015-ci ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının sabitlik göstəricisi 85,75% təşkil etmişdir.

**Daşqın Səfərov**
*Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsinin müdiri*



# İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı

Bülletenin hər buraxılışında Avropa Məhkəməsinin presedent xarakterli qərarları dərc olunur, insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyi açıqlanır, bununla bağlı analitik yazılara yer verilir.

Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Avropa Konvensiyasının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

1. Avropa Məhkəməsinin [I Bölmə] ***"Ştukaturov Rusiyaya qarşı"*** *(Ərizə № 44009/05)* iş üzrə 27 mart 2008-ci il tarixli qərarından

Maddə 8

8-ci maddənin 1-ci bəndi: Şəxsi həyata hörmət hüququ

Psixi pozuntusu olan pasiyentin fəaliyyət qabiliyyəti olmayan şəxs elan edilməsi barədə qərar çıxarılması üçün keçirilmiş məhkəmə araşdırmasının ədalətliliyi məsələsi və pasiyentin həmin qərardan şikayət etmək imkanına malik olmaması və sonradan psixiatriya xəstəxanasına yerləşdirilməsi: pozuntu baş verib.

Maddə 34: Şikayət vermə hüququna maneə yaradılması

Ərizəçinin vəkili ilə əlaqə saxlaması üçün ilkin tədbir görülməsi barədə Avropa Məhkəməsinin qəbul etdiyi qərara baxmayaraq, psixiatriya xəstəxanasının pasiyenti olan ərizəçinin vəkili ilə əlaqə saxlamasına dövlət orqanları tərəfindən icazə verilməməsi: 34-cü maddənin tələblərinə riayət edilməyib.

*Faktlar* – İş üzrə ərizəçi qismində səhhəti psixi pozuntu həddində olan və rəsmən əlil elan olunan yetkinlik yaşına çatmış şəxs çıxış edirdi. Anası onun fəaliyyət qabiliyyəti olmayan şəxs elan edilməsi üçün məhkəməyə ərizə ilə müraciət etmiş və belə əsas gətirmişdi ki, o, müstəqil yaşamağa qadir deyil və qəyyuma ehtiyacı var. Həmin məhkəmə araşdırması barədə ərizəçiyə rəsmən məlumat verilməmişdi.

2004-cü ilin dekabr ayında rayon məhkəməsi rayon prokurorunun və elə

həmin il bir müddət öncə ərizəçinin yerləşdirildiyi psixiatriya xəstəxanasının nümayəndəsinin iştirakı ilə keçirilmiş iclasda ərizəyə baxdı. Məhkəmə iclası barəsində ərizəçiyə məlumat verilməmişdi, buna görə də o, iclasda iştirak etmədi. 10 dəqiqə davam etmiş araşdırmadan sonra rayon məhkəməsi Mülki Məcəllənin 29-cu maddəsi əsasında ərizəçini fəaliyyət qabiliyyəti olmayan şəxs elan etdi, həmin maddəyə əsasən bu tədbir öz hərəkətlərinin mənasını anlamayan və ya hərəkətlərini idarə edə bilməyən şəxslər barəsində qəbul edilirdi. Bu qərarı qəbul edərkən rayon məhkəməsi ərizəçinin şizofreniyadan əziyyət çəkdiyi barədə psixiatr rəyini nəzərə aldı. Ərizəçinin anası onun qəyyumu təyin edildi və beləliklə, bütün məsələlərdə onun adından hərəkət etmək səlahiyyəti əldə etdi. Bundan sonra ərizəçi vəkillə əlaqə saxladı və işi müzakirə etmək və şikayət ərizəsi tərtib etmək üçün onunla görüşdü. Vəkilin rəyinə görə ərizəçi mürəkkəb hüquqi məsələləri tam anlamaq və müvafiq göstərişlər vermək iqtidarında idi. Şikayət ərizəsi baxılmadan geri qaytarıldı və belə əsas gətirildi ki, ərizəçi fəaliyyət qabiliyyətinə malik deyil və şikayəti yalnız rəsmi qəyyumu vasitəsilə verə bilər. 2005-ci ilin noyabrında anası ərizəçini psixiatriya xəstəxanasına yerləşdirdi. Ərizəçi ilə vəkilinin görüşməsinə icazə verilmədi, amma ərizəçi vəkilə onun adından Avropa Məhkəməsinə şikayət ərizəsi təqdim etmək səlahiyyəti verən ərizə forması ötürə bildi. 2005-ci ilin dekabr ayından başlayaraq ərizəçinin ətraf aləmlə təmaslarına icazə verilmədi. Ərizəçi ilə vəkili dəfələrlə müxtəlif orqanlara, o cümlədən rayon prokurorluğuna ərizəçinin xəstəxanadan buraxılması tələbi ilə müraciət etdilər, amma cəhdləri uğursuz nəticələndi. Rayon prokuroru vəkilə izah etdi ki, ərizəçi rəsmi qəyyumunun təşəbbüsü ilə xəstəxanaya yerləşdirilib və onun xəstəxanadan buraxılması ilə bağlı bütün məsələlər qəyyumu tərəfindən həll edilməlidir. 2006-cı ilin mart ayında Avropa Məhkəməsi özünün Məhkəmə Reqlamentinin 39-cu qaydasına uyğun olaraq, Rusiya Hökumətinə göstəriş verdi ki, ərizəçi ilə vəkilinin Avropa Məhkəməsinin icraatındakı işi müzakirə etmək məqsədi ilə görüşmələri üçün onları zəruri vaxt və yerlə təmin etsin. Lakin dövlət orqanları Məhkəmənin qəbul etdiyi bu tədbirin onlar üçün məcburi qüvvəyə malik olmadığını hesab edərək onu yerinə yetirməkdən imtina etdilər. Ərizəçi 2006-cı ilin may ayında xəstəxanadan buraxıldı, amma belə görünür ki, sonradan o, anasının tələbi ilə yenidən xəstəxanaya yerləşdirilib.

***Hüquqi məsələlər*** –

*a) Ərizəçinin fəaliyyət qabiliyyəti olmayan şəxs elan edilməsi barədə qərarın çıxarıldığı məhkəmə prosesində 6-cı maddənin 1-ci bəndinin tələblərinə riayət edilib-edilməməsi məsələsi:* Məhkəmə araşdırmasının nəticəsi

ərizəçi üçün önəmli idi, çünki həyatın bütün sahələrində onun sərbəstliyinə təsir göstərirdi və azadlığına potensial məhdudiyyətlər qoyulmasını nəzərdə tuturdu. Bundan başqa, ərizəçi araşdırmada ikili rola malik idi, belə ki, o, nəinki maraqlı şəxs idi, həm də məhkəmə araşdırmasının əsas subyekti idi. Müvafiq olaraq ərizəçinin məhkəmə araşdırmasında iştirakı istər öz arqumentlərini irəli sürə bilməsinin təmin olunması üçün, istərsə də onun psixi vəziyyəti barədə məhkəmənin öz rəyinin formalaşması üçün zəruri idi. Beləliklə, səhhətindəki problemlərə baxmayaraq, nisbətən müstəqil olan ərizəçini məhkəmə iclasına çağırmadan və dinləmədən işi yazılı sübutlar əsasında həll etmək barədə hakimin qərarı əsassız idi və məhkəmə araşdırmasının çəkişmə xarakteri daşıması prinsipini pozurdu. 10 dəqiqəlik məhkəmə iclasının bütün müddəti ərzində passiv qalmış xəstəxana nümayəndəsinin və rayon prokurorunun iclasda iştirakı məhkəmə araşdırmasının çəkişmə xarakterini təmin etməmişdi. Bundan başqa, ərizəçinin qərardan şikayət etməsinə imkan yaradılmamışdı, belə ki, onun apellyasiya şikayəti geri qaytarılmışdı. Beləliklə, rayon məhkəməsindəki icraat ədalətli deyildi.

Nəticə: **pozuntu baş verib** (yekdilliklə).

*8-ci maddənin tələblərinə riayət edilib-edilməməsi məsələsi:* Dövlət orqanlarının ərizəçinin şəxsi həyatına müdaxiləsi həyatın bütün sahələrində onun qeyri-müəyyən müddətə rəsmi qəyyumundan tam asılı hala düşməsi ilə nəticələndi. Bu müdaxilədən yalnız qəyyumun vasitəsilə şikayət etmək olardı, lakin qəyyum ərizəçi barəsində görülmüş tədbirə xitam verilməsinə yönələn bütün cəhdlərə etiraz edirdi. Avropa Məhkəməsi qərarların qəbulu prosesindən kənarlaşdırıldığını nəzərə alaraq ölkədaxili icraatda prosessual pozuntulara yol verildiyini artıq müəyyən edib. Rayon məhkəməsinin qərarına haqq qazandırmaq üçün gətirdiyi əsas da adekvat deyildi. Belə ki, onun qərarı yalnız tibbi rəyə əsaslanmışdı, həmin rəydə isə ərizəçinin nə dərəcədə fəaliyyət qabiliyyətli olması, xəstəliyinin onun sosial həyatına, sağlamlığına və mülkiyyət maraqlarına təsiri, habelə öz hərəkətlərinin mənasını nə dərəcədə anlaması və ya hərəkətlərini nə dərəcədə idarə etməsi kifayət qədər təhlil edilməmişdi. Qanunvericiliyin hər bir konkret psixi xəstəlik halına "xüsusi yanaşmanı" təmin etməli olduğu barədə Nazirlər Komitəsinin tövsiyəsinə baxmayaraq, Rusiya qanunvericiliyi tam fəaliyyət qabiliyyətinin olmasını və tam fəaliyyət qabiliyyətinin olmamasını fərqləndirir, aralıq halları isə nəzərdə tutmurdu. Beləliklə, ərizəçinin şəxsi həyatına müdaxilə digər şəxslərin maraqlarının müdafiəsindən və sağlamlığının qorunmasından ibarət qanuni məqsədə mütənasib deyildi.

Nəticə: **pozuntu baş verib** (yekdilliklə).

*b) Ərizəçinin psixiatriya xəstəxanasına yerləşdirilməsinin 5-ci maddənin 1-ci bəndinin "e" yarımbəndinin tələblərinə uyğunluğu məsələsi:* Bu şikayətin qəbulunun mümkünlüyü məsələsi ilə əlaqədar olaraq Hökumət bildirdi ki, ərizəçinin psixiatriya xəstəxanasına yerləşdirilməsi milli qanunvericiliyə əsasən "könüllü" tədbir idi və buna görə də "azadlıqdan məhrumetmə" təşkil etmirdi. Lakin işin hallarını, xüsusən də ərizəçinin xəstəxanadan buraxılmasına nail olmaq üçün cəhdlər etdiyini nəzərə alaraq, Məhkəmə hesab etdi ki, ərizəçi hüquqi cəhətdən öz rəyini ifadə etmək iqtidarında olmasa da, xəstəxanada uzun müddət saxlanılması ilə razılaşdığını da söyləmək olmazdı. Beləliklə, bu şikayət qəbuledilləndir. Şikayətin mahiyyətinə gəlincə, Hökumət ərizəçinin xəstəxanaya yerləşdirilərkən ruhi xəstə olduğunu inandırıcı şəkildə sübut edə bilmədi. Belə ki, o, ərizəçinin anasının nəyə görə onun xəstəxanaya yerləşdirilməsini tələb etdiyinə dair izahat vermədi və xəstəxanaya yerləşdirildiyi anda səhhətinin hansı vəziyyətdə olduğu barədə tibbi sənədlər təqdim etmədi. Müvafiq olaraq ərizəçinin səhhətinin onun azadlıqdan məhrum edilməsini tələb etdiyi "inandırıcı şəkildə sübuta yetirilmədi".

**Nəticə: pozuntu baş verib** (yekdilliklə).

*5-ci maddənin 4-cü bəndinin tələblərinə riayət edilib-edilməməsi məsələsi:* Ərizəçinin xəstəxanaya yerləşdirilməsi barədə qərarların qəbulunda məhkəmələr iştirak etməmişdilər və bu cür vəziyyətlərdə şəxsin psixiatriya xəstəxanasına yerləşdirilməsinin qanuniliyi məsələsinin məcburi qaydada məhkəmə tərəfindən yoxlanılması milli qanunvericilikdə nəzərdə tutulmamışdı. Bundan başqa, ərizəçi xəstəxanada uzun müddət saxlanılmasından şikayət edə bilməzdi, çünki hüquqi cəhətdən bu imkandan məhrum idi, yaxud anasının vasitəsilə məhkəmə araşdırmasına da başlaya bilməzdi, çünki anası onun xəstəxanadan buraxılmasının əleyhinə idi. Nəhayət, cinayət təqibi orqanlarının apardığı araşdırmanın ərizəçinin azadlıqdan məhrum edilməsinin qanuniliyi məsələsinə nə dərəcədə aidiyyəti olduğu naməlum qaldığına görə həmin araşdırma bu tədbirin "qanuniliyi"nin məhkəmə tərəfindən yoxlanılmasının bir forması sayıla bilməz.Ərizəçinin xəstəxanaya yerləşdirilməsinin könüllü tədbir olmadığını, psixi vəziyyətinin isə məhkəmə tərəfindən cəmi bir dəfə on ay əvvəl qiymətləndirildiyini nəzərə alsaq (həmin qiymətləndirmə ciddi pozuntularla müşayiət olunmuş məhkəmə araşdırması çərçivəsində aparılmışdı və həmin məhkəmə araşdırmasında ərizəçinin xəstəxanaya yerləşdirilməsinin zəruriliyi məsələsinə baxılmamışdı), ərizəçinin azadlıqdan məhrum edilməsinin qanuniliyinin məhkəmə tərəfindən yoxlanılmasına nail olmaq imkanına malik olmaması 5-ci maddənin 4-cü bəndini pozmuşdu.

**Nəticə: pozuntu baş verib** (yekdilliklə).

*Konvensiyanın 34-cü maddəsinin və Məhkəmə Reqlamentinin 39-cu qaydasının tələblərinə riayət edilib-edilməməsi məsələsi:* Ərizəçinin vəkili ilə əlaqə saxlamasına qoyulmuş qadağa onun xəstəxanada olduğu bütün müddət ərzində davam etdi, digər şəxslərlə əlaqələrinə qoyulmuş qadağa isə bu müddətin böyük bir hissəsi ərzində qüvvədə oldu. Bu məhdudiyyətlər ərizəçinin işinə Avropa Məhkəməsində baxılmasına nail olmasını, demək olar ki, mümkünsüz etmişdi, hərçənd ki, dövlət orqanları onun şikayət ərizəsi barədə məlumatlı olmalı idilər. Bundan başqa, Məhkəmə Reqlamentinin 39-cu qaydasına uyğun olaraq Avropa Məhkəməsi tərəfindən qəbul edilmiş ilkin tədbiri yerinə yetirməkdən imtina etmiş və belə əsas gətirmişdilər ki, bu tədbir hər hansı konkret orqana deyil, bütövlükdə dövlətə ünvanlanıb, Rusiya qanunvericiliyi isə belə tədbirlərin məcburiliyini nəzərdə tutmur və bundan əlavə, ərizəçi anasının icazəsi olmadan hərəkət edə bilməzdi və ərizəçinin vəkili onun qanuni nümayəndəsi sayılmırdı.

Bu cür şərh Konvensiyanın müddəalarına zidd idi. Belə ki, Konvensiya üzrə araşdırma zamanı kimlərin ərizəçinin nümayəndəsi ola biləcəyini milli məhkəmələr deyil, Avropa Məhkəməsi müəyyən edir. Bundan başqa, ilkin tədbir məcburi qüvvəyə malik idi, çünki onun yerinə yetirilməməsi, həmin tədbiri yerinə yetirməkdən imtina edənin bütövlükdə dövlət, yaxud hər hansı dövlət orqanı olmasından asılı olmayaraq, Konvensiyanın 34-cü maddəsinin pozuntusunun müəyyən edilməsi ilə nəticələnə bilərdi. Beləliklə, ərizəçinin vəkili ilə görüşlərinə və ünsiyyətinə uzun müddət maneə yaratmaqla və ilkin tədbiri yerinə yetirməkdən yayınmaqla 34-cü maddədə nəzərdə tutulmuş öhdəliklərini pozmuşdu.

**Nəticə: 34-cü maddənin tələblərinə riayət edilməyib** (yekdilliklə).

41-ci maddə: *Kompensasiya məsələsi hələ baxılmaq üçün hazır olmadığına görə təxirə salındı.*

≈≈≈

2. Avropa Məhkəməsinin [I Bölmə] ***"Corceviç Xorvatiyaya qarşı"*** *(Ərizə № 41526/10)* iş üzrə 24 iyul 2012-ci il tarixli qərarından

Maddə 3: Pozitiv öhdəliklər

*Əlilliyi olan şəxslərin qonşuluqdakı uşaqlar tərəfdən zorakı yolla və daimi incidilməsi:* **pozuntu baş verib.**

*Faktlar* – Əqli və fiziki qüsura malik olan birinci ərizəçi anası ilə (ikinci ərizəçi) binanın birinci mərtəbəsində yaşamışdır. Hər iki ərizəçi şikayət edərək bildirmişdir ki, 2008-ci ilin iyul ayından 2011-ci ilin fevral ayınadək yaxınlıqdakı ibtidai məktəbin şagirdləri tərəfindən davamlı olaraq incidilmiş və dövlət orqanları onları adekvat şəkildə müdafiə etməmişdir. Həmin dövr ərzində bir sıra insidentlər qeydə alınmış, uşaqlar gecə və səhər saatlarında onların qapılarının zəngini vurmuş, birinci ərizəçiyə tüpürmüş, onu vurmuş və itələmiş, əllərini siqaretlə yandırmış, ərizəçinin eyvanını dağıtmış və onu söymüşdülər. Hücumlar nəticəsində birinci ərizəçi dərin sarsıntı, qorxu və narahatlıq hissi keçirmişdir. Onlar bir sıra hallarda müxtəlif hakimiyyət orqanlarına, o cümlədən sosial xidmət orqanları və ombudsmana müraciət etmişdirlər. Ərizəçilər həmçinin insidentlər barədə məlumat vermək və kömək almaq məqsədilə polisə də zəng etmişlər. Hər zəngdən sonra polis bəzən çox gecikməklə hadisə yerinə gəlmiş və bəzi hallarda sadəcə olaraq uşaqlara dağılışmaq və ya səs-küy salmamaq barədə göstəriş verməklə kifayətlənmişdir. Polis həmçinin bir neçə şagirdi sorğu-sual edərək belə bir nəticəyə gəlmişdir ki, onlar birinci ərizəçiyə qarşı zorakı şəkildə davrandıqlarını etiraf etsələr də, cinayət məsuliyyətinə cəlb olunmaq üçün çox gəncdirlər.

*Hüquqi məsələlər* – maddə 3 (birinci ərizəçi): Birinci ərizəçi davamlı olaraq incidilmiş və nəticədə, uzun müddət köməksizlik və qorxu hissi ilə yaşamışdır. O, həmçinin bir dəfə fiziki xəsarətə də məruz qalmışdır. Bu rəftar 3-cü maddə ilə müəyyən edilmiş müdafiədən istifadə etmək üçün kifayət qədər ciddi olmuşdur.

3-cü maddəyə zidd olan zorakılıq aktları normal halda bu aktları törədənlərə qarşı cinayət-hüquqi tədbirlərin tətbiq edilməsini tələb edir. Lakin hazırkı işdə cinayət törətməsi iddia olunan şəxslərin əksəriyyəti on dörd yaşına çatmamış uşaqlar olmuşlar və ölkə qanunvericiliyinə əsasən onların cinayət məsuliyyətinə cəlb olunması mümkün deyildi. Həmçinin, ola bilsin ki, barəsində şikayət verilən əməllərdən heç biri ayrıca götürüldükdə cinayət tərkibinə malik deyildi. Lakin, bununla belə, bütünlükdə götürüldükdə, insidentlər 3-cü maddənin tələblərinə uyğun gəlmirdi. Buna görə də birinci ərizəçinin işi dövlətin cinayət hüququ sferasından kənarda olan və səlahiyyətli dövlət orqanlarının fiziki və əqli qüsuru olan şəxsin ciddi şəkildə incidilməsindən xəbərdar olduqları vəziyyətlərdə mövcud pozitiv öhdəlikləri ilə bağlı idi. Dövlət orqanları incidilmə barədə tam əvvəlcədən məlumata malik idi və buna görə də birinci ərizəçini müdafiə etmək üçün bütün ağlabatan tədbirləri görmək öhdəliyi daşıyırdı. Polisin hadisədə iştirakı iddia olunan bəzi

uşaqları dindirməsinə və məktəb rəhbərliyinin problemi uşaqlar və onların valideynləri ilə müzakirə etməsinə baxmayaraq, vəziyyətin əsl mahiyyətini və ya adekvat və hərtərəfli tədbirlərin görülməməsi ilə nəticələnmiş sistematik yanaşmanın olmadığını qiymətləndirmək üçün hər hansı ciddi addım atılmamışdır. Polisin gəldiyi nəticələr üzrə hər hansı konkret tədbir görülməmişdir: gələcəkdə incidilmə hallarının tanınması və qarşısının alınması məqsədilə polis tərəfindən heç bir qərar qəbul edilməmiş və monitorinq mexanizmi tətbiq edilməmişdir. Məhkəmə xüsusi narahatlıqla qeyd edir ki, sosial xidmət orqanları bu hadisələr ilə real şəkildə maraqlanmamış və müvafiq tövsiyələr verə, həmçinin müvafiq uşaqlarla işləyə biləcək aidiyyəti ekspertlərin hadisələrə maraq göstərdiyini təsdiq edən hər hansı fakt olmamışdır. Birinci ərizəçi ilə heç vaxt konsultasiya aparılmamışdır. Beləliklə, pis rəftar hallarının davam etmək təhlükəsinin mövcudluğuna baxmayaraq, dövlət orqanları birinci ərizəçini müdafiə etmək üçün bütün ağlabatan tədbirləri görməmişdir.

**Nəticə: pozuntu baş verib** (yekdilliklə).

*Maddə 8 (ikinci ərizəçi):* Birinci ərizəçinin incidilməsi təbii ki, onun anasının, yəni ikinci ərizəçinin şəxsi və ailə həyatına təsir göstərmişdir. Məhkəmə dövlət orqanlarının birinci ərizəçinin incidilməsinin davam etdirilməsinin qarşısını almaq üçün adekvat tədbirlər görmədiyi ilə bağlı gəldiyi nəticəni nəzərə alaraq, həmin orqanların ikinci ərizəçiyə münasibətdə də adekvat müdafiə tədbirlərini görmədiyi qənaətinə gəlməyə bilməz.

**Nəticə: pozuntu pozuntu baş verib** (yekdilliklə).

*Maddə 41: mənəvi ziyanla bağlı birlikdə 11500 avro*

≈≈≈

3. Avropa Məhkəməsinin [Böyük Palata] ***"De Souza Ribeyro Fransaya qarşı" (BP)*** *(Ərizə № 22689/07)* iş üzrə 13 dekabr 2012-ci il tarixli qərarından

Maddə 13: Səmərəli hüquqi vasitə

*İcranın dayandırılması haqqında məhkəməyə ərizə verildikdən sonra deportasiya haqqında qərarın əlli dəqiqə ərzində icrası:* **pozuntu baş verib.**

*Faktlar* – Braziliyanın vətəndaşı olan ərizəçi səkkiz yaşı olarkən 1988-ci ildən 2007-ci ilədək ailəsi ilə birlikdə Fransa Qvianasında yaşamışdır. 2007-ci il yanvarın 25-də ərizəçi yolda keçirilən yoxlama zamanı saxlanılmışdır. Fransanın ərazisində qanuni yaşadığını təsdiq edən sübutu təqdim edə bilməyən ərizəçi tutulmuş və onun barəsində inzibati qaydada deportasiya haqqında qərar qəbul edilmişdir, habelə o, deportasiya olunanadək həbs edilmişdir. Ərizəçi deportasiya haqqında qərarın məhkəmə nəzarəti qaydasında

yoxlanılması üçün növbəti gün saat 15:11-də inzibati məhkəməyə şikayət vermişdir. Ərizəçi deportasiya haqqında qərarın icrasının dayandırılması üçün məhkəməyə təcili müraciət edərək onun qanuniliyini mübahisələndirmişdir. Ərizəçinin inzibati məhkəməyə müraciət etməsindən əlli dəqiqə sonra saat 16:00-da Braziliyaya deportasiya edilmişdir. Həmin axşam inzibati məhkəmə ərizəçinin artıq deportasiya edildiyini nəzərə alaraq qərarın məhkəmə nəzarəti qaydasında yoxlanılması barədə ərizənin məqsədəuyğun olmadığı barədə qərar qəbul etmişdir. 2007-ci ilin fevral ayında ərizəçi öz fundamental azadlığının müdafiəsi ilə bağlı inzibati məhkəməyə təcili qaydada ərizə vermiş, lakin həmin ərizə rədd edilmişdir. 2007-ci il avqust ayında ərizəçi Fransa Qvianasından qanunsuz qayıtmışdır. 2007-ci il oktyabrın 18-də ərizəçinin deportasiya haqqında qərarının məhkəmə nəzarəti qaydasında yoxlanılması barədə 2007-ci il 25 yanvar tarixli ərizəsini araşdıraraq deportasiya haqqında qərarı qanunsuz hesab etmişdir. 2009-cu ildə ərizəçiyə ölkədə müvəqqəti qalmaq icazəsi verilmiş və həmin icazə 2012-ci ilin iyun ayınadək uzadılmışdır. Hal-hazırda onun "şəxsi və ailə həyatı" ilə əlaqədar ölkədə yaşamaq üçün yenilənmiş icazəsi var.

Məhkəmə Palatası 2011-ci il 30 iyun tarixli qərarı ilə müəyyən edib ki, ərizəçinin Braziliyaya deportasiyasının inzibati məhkəmə tərəfindən qanunsuz hesab edilməsi və sonradan onun Fransaya qayıtması və burada yaşamaq üçün yeni icazənin verilməsindən sonra o, zərərçəkmiş şəxs statusunu itirib və bununla onun Konvensiyanın 8-ci maddəsi əsasında verilmiş şikayəti qəbuledilməzdir. Ərizəçinin deportasiyası haqqında qərarının təxirə salınma təsirinə malik olmaması ilə bağlı şikayəti ilə əlaqədar Məhkəmə Palatası dörd səs lehinə və üç səs əleyhinə olmaqla Dövlətin təqdir səlahiyyətini qeyd edərək müəyyən etmişdir ki, Konvensiyanın 8-ci maddəsində təsbit edilmiş hüquqların prinsipcə ikitərəfli olduğunu, işin halları göstərdiyi kimi ərizəçinin ailə münasibətlərinin vaxtın ötməsi nəticəsində pisləşmədiyini və deportasiyasından sonra qısa müddət ərzində Fransaya qayıda bilməsini nəzərə alaraq Konvensiyanın 8-ci maddəsi ilə birlikdə götürülmüş Konvensiyanın 13-cü maddəsi pozulmamışdır.

*Hüquqi məsələlər* – 8-ci maddəsi ilə birlikdə 13-cü maddə: İlk növbədə Məhkəmə qeyd edib ki, ərizəçi deportasiyasında əvvəl Fransa Qvianasının qüvvədə olan sisteminə əsasən müvafiq hüquqi vasitələrdən istifadə edə bilmişdir. Lakin qubernator onun məsələsini ötəri araşdırmışdır. Ərizəçi həbs edildiyindən dərhal sonra çıxarılmış kifayət qədər əsaslandırılmamış deportasiya haqqında inzibati qərara əsasən həbsindən otuz altı saat sonra ərazidən çıxarılmışdır.

Bundan sonra həbs edildiyi zaman ərizəçinin qanunsuz vəziyyətinin səbəblərinə baxmayaraq, o, Fransa qanunvericiliyinə əsasən deportasiyanın istənilən formasından müdafiə olunmuşdur. Deportasiya haqqında qərarı qanunsuz elan etmiş inzibati məhkəmə məhz həmin nəticəyə gəlmişdir. Bununla 2007-ci il yanvarın 26-da Fransanın səlahiyyətli orqanlarının malik olduğu sübutlara əsasən ərizəçinin deportasiyası qanuna uyğun olmamış və onun hüquqlarına qanunsuz müdaxilə kimi hesab edilə bilər. Bununla əlaqədar ərizəçinin Braziliyaya deportasiyası zamanı deportasiyanın Konvensiyanın 8-ci maddəsinə uyğun olub-olmadığı kimi ciddi sual yaranmışdır və o, bununla bağlı Konvensiyanın 13-cü maddəsi mənasında "əsaslı" şikayət vermişdir.

Ərizəçi inzibati məhkəmə şikayət verə bilmişdir. Həmin məhkəmə hüquqi cəhətdən kifayət qədər əsaslandırılmış şikayətə baxılması üçün müstəqillik, qərəzsizlik prinsiplərinə cavab vermiş və müvafiq səlahiyyətlərə malik olmuşdur. Lakin ərizəçinin inzibati məhkəməyə şikayətin verilməsi ilə deportasiya haqqında qərarın icra edilməsi arasında vaxt müddətinin çox qısa olmasını nəzərə alaraq məhkəmə deportasiya haqqında qərarın icra olunduğu təqdirdə Konvensiyanın 8-ci maddəsinə zidd olan pozuntunun baş verib-vermədiyini müəyyən etmək məqsədilə hüquqi halları və işin mahiyyətini ətraflı araşdırmaq imkanlarına malik olmamışdır. Məhkəmə müəyyən edib ki, mahiyyət etibarı ilə və ya müvəqqəti tədbirin tətbiqinə dair təcili qaydada verilmiş ərizə ilə əlaqədar müvafiq məhkəmə araşdırılması həyata keçirilməmişdir. Nəzəri cəhətdən məhkəmə təcili qaydada ərizəçinin arqumentlərini araşdıra və deportasiya haqqında qərarın icrasını dayandıra bilərdi. Lakin ərizənin məhkəməyə verilməsi ilə qərarın icrası arasında vaxt müddətinin qısa olması ilə əlaqədar bu imkanlar olmamışdır. Faktiki olaraq təcili qaydada ərizəyə baxan hakim ərizənin məqsədəuyğun olmadığını müəyyən etməkdən başqa hər hansı digər qərarı qəbul etmək imkanına malik olmamışdır. Bununla ərizəçi yalnız qubernatorun qərarı əsasında deportasiya edilmişdir. Əlavə olaraq deportasiya haqqında qərarın icrası qaydası mövcud hüquqi vasitələrin təcrübədə səmərəli olmadığını göstərir və bununla onlar əlçatan hesab edilmir, habelə ərizəçi deportasiya haqqında qərarın əsaslılığının prosedur təminatları təklif edən dövlətdaxili səlahiyyətli orqan tərəfindən araşdırılması imkanına malik olmamışdır.

Fransa Qvianasının coğrafi yeri, buraya gələn immiqrantların sayının çoxluğu həm də ədalət mühakiməsinə mənfi təsir göstərən məhkəmələrdə işlərin sayının artması təhlükəsi ümumi qanunvericilikdən istisnalarını və onun tətbiqi qaydalarını əsaslandırmır. Konvensiyanın 13-cü maddəsi məna-

sında götürülmüş öhdəliklərlə əlaqədar Dövlətlərə verilmiş təqdir səlahiyyəti ərizəçilərin əsassız deportasiyaya qarşı minimal prosedur təminatlardan məhrum edilməsi üçün istifadə oluna bilməz.

Yuxarıda qeyd olunanlara əsasən ərizəçi deportasiya edildiyi zaman Konvensiyanın 8-ci maddəsi əsasında verdiyi şikayəti üzrə səmərəli hüquqi vasitələrə malik olmamışdır. Bu vəziyyət sonradan ona ölkə ərazisində yaşamağa icazənin verilməsi ilə bərpa edilməmişdir. Bununla Məhkəmə ərizəçinin Konvensiyanın 34-cü maddəsi mənasında "zərərçəkmiş şəxs" statusunun itirilməsi ilə bağlı Hökumətin ilkin etirazını rədd edərək Konvensiyanın 8-ci maddəsi ilə birlikdə götürülmüş 13-cü maddəsinin pozuntusunun baş verdiyini müəyyən etmişdir.

**Nəticə: pozuntu baş verib** (yekdilliklə)

*Maddə 41: Mənəvi ziyanla bağlı 3000 avro məbləğində təzminatın ödənilməsi qət edilmişdir; maddi ziyanla bağlı tələb rədd edilmişdir.*

≈≈≈

4. Avropa Məhkəməsinin [Böyük Palata] ***"Noylinger və Şuruk İsveçrəyə qarşı"*** *(Ərizə № 41615/07)* iş üzrə 06 iyul 2010-cu il tarixli qərarından

Maddə 8

8-ci maddənin 1-ci bəndi: Ailə həyatına hörmət

*Anasının yanında yaşayan uşağın hüquqa zidd olaraq çıxarıldığı atasının ölkəsinə qaytarılması barədə məhkəmə qərarı:* **Avropa Məhkəməsi qərara aldı ki, məcburi qaytarılma pozuntu təşkil edəcək.**

*Faktlar* – İsveçrə vətəndaşı olan və İsraildə məskunlaşan birinci ərizəçi orada ərə getdi və bu nikahdan oğlu oldu. Uşağın (ikinci ərizəçinin) inadkar prozelitizm (dini inancın təbliği) ilə seçilən ifrat ortodoksal icmada yaşamaq üçün atası tərəfindən xaricə aparılacağından ehtiyat edən ailə işləri üzrə məhkəmə uşağın yetkinlik yaşına çatana qədər İsraildən çıxarılmasını qadağan edən qərar qəbul etdi. Uşaq üzərində müvəqqəti qəyyumluq birinci ərizəçiyə həvalə olundu və hər iki valideyn valideynlik hüquqlarını birgə həyata keçirdilər. Sonradan atanın aqressiv davranışı səbəbindən onun uşaqla görüş hüququ məhdudlaşdırıldı. Ərlə arvad boşandılar və birinci ərizəçi oğlu ilə gizlicə İsraildən İsveçrəyə getdi. Sonuncu instansiya qismində İsveçrə Federal Məhkəməsi birinci ərizəçinin üzərinə uşağı İsrailə qaytarmaq öhdəliyini qoydu.

8 yanvar 2009-cu il tarixli qərarında Avropa Məhkəməsinin Palatası üç səsə qarşı dörd səslə bu qənaətə gəldi ki, Konvensiyanın 8-ci maddəsinin pozuntusu baş verməyib.

*Hüquqi məsələlər* – Maddə 8: Milli məhkəmələrin və ekspertlərin fikrincə, uşağın İsrailə qaytarılmasına yalnız bu şərtlə yol vermək olardı ki, o, anasının müşayiəti ilə oraya qayıtsın. Bu tədbir milli hakimiyyət orqanlarının belə məsələlərdə malik olduqları qiymətləndirmə sərbəstliyinə aid məsələ idi. Bununla belə, 8-ci maddəyə riayət edilib-edilmədiyini qiymətləndirmək üçün uşağın geri qaytarılması barədə Federal Məhkəmə tərəfindən qərar çıxarılana qədər baş vermiş hadisələri də nəzərə almaq lazımdır. Avropa Məhkəməsi bu qənaətə gəldi ki, bu məsələdə o, əcnəbilərin ölkədən çıxarılmasına aid olan öz presedent hüququnu müvafiq dəyişikliklərlə rəhbər tuta, habelə təyinat ölkəsində məskunlaşmış yetkinlik yaşına çatmayan şəxs barəsində ölkədən çıxarılma qərarının mütənasibliyini qiymətləndirmək üçün öz presedent hüququndakı meyarları müvafiq dəyişikliklərlə nəzərə ala bilər. Hazırkı işdə uşaq İsveçrə vətəndaşı idi və təxminən dörd il ərzində yaşadığı bu ölkədə onun yaşayış şəraiti yaxşı idi. Yaşı baxımından (onun yeddi yaşı vardı) bu ölkəyə uyğunlaşması üçün onun potensialı böyük olsa da, yenidən başqa ölkəyə köçməsi onun üçün ciddi nəticələr doğura bilərdi və bu nəticələri köçürülmənin ona verə biləcəyi faydalarla müqayisə etmək tələb olunur. Bu baxımdan diqqətəlayiq hal ondan ibarətdir ki, uşaq ölkədən gizli aparılana qədər atanın onunla görüş hüququna məhdudiyyət qoyulmuşdu. Bundan başqa, o vaxtdan bəri ata iki dəfə evlənmiş və yenə də uşaqları olmuşdu və qızı üçün aliment ödəmirdi. Məhkəmə buna şübhə ilə yanaşır ki, belə hallar uşağın rifahına və inkişafına şərait yarada bilər. Anaya gəlincə, İsrailə qayıdacağı təqdirdə o, cinayət sanksiyaları ilə, o cümlədən həbs cəzası ilə üzləşə bilərdi. Aydın məsələdir ki, belə vəziyyət uşağın maraqlarının ən yaxşı şəkildə təmin edilməsi tələbinə cavab vermirdi. Belə ki, uşağın anası, görünür, onun yeganə qohumu idi. Beləliklə, ananın İsrailə qayıtmaqdan imtina etməsi heç də əsassız deyildi. Hətta ananın İsrailə qayıtmağa razılıq verdiyini fərz etsək belə, ona qarşı cinayət işi başlanacağı və daha sonra o, azadlıqdan məhrum ediləcəyi təqdirdə, uşağın atasının keçmişdəki davranışını və vəsaitlərinin məhdud olduğunu nəzərə alsaq, onun uşağa baxması ehtimalı sual altında idi. Üstəlik, atası uşaqla heç vaxt təklikdə yaşamamışdı və uşaq iki yaşında ölkədən getdikdən sonra atası onu görməmişdi. Beləliklə, Məhkəmə əmin deyil ki, İsrailə qayıtması uşağın maraqlarının ən yaxşı şəkildə təmin edilməsi tələbinə cavab vermiş olacaqdı. Anaya gəlincə, o, ailə həyatının toxunulmazlığı hüququna qeyri-mütənasib müdaxiləyə mə-

ruz qalacaqdı. Müvafiq olaraq, iki ərizəçinin İsrailə qayıtması barədə məhkəmə qərarı icra olunacağı təqdirdə bu işdə 8-ci maddə pozulmuş olacaqdı.

**Nəticə: pozuntu baş verib** (bir səsə qarşı on altı səslə).

Maddə 41: Pozuntunun müəyyən edilməsi faktı hər hansı mənəvi ziyana görə yetərincə ədalətli kompensasiya təşkil edir.

**Mənbə:** *Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

**Quliyev Vüqar Kərim oğlu**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin hakimi*

## Nikahın pozulması tələbinə dair mülki işlər üzrə məhkəmə təcrübəsində yaranan çətinliklər: mövcud hüquqi tənzimlənmə və mümkün həlli yolları

Azərbaycan Respublikasının qanunvericiliyində nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi öz başlanğıcını 1995-ci ildə qəbul edilmiş ilk milli konstitusiyamızdan götürür. Konstitusiyanın 17-ci maddəsinə əsasən cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Ailə-nikah münasibətləri ilə bağlı məsələlər daha geniş şəkildə Azərbaycan Respublikasının ailə və mülki məcəllələrində, habelə bir sıra digər qanunvericilik aktlarında tənzimlənmişdir.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinə (bundan sonra – Ailə Məcəlləsi) görə ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması kimi prinsiplərə uyğun həyata keçirilir. Nikah kişi ilə qadının ailə qurmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınan könüllü ittifaqıdır.

Bu məqalədə ailə qanunvericiliyinin ən mühüm institutlarından biri olan nikah və nikahın pozulması ilə bağlı təcrübədə ən çox meydana çıxan çətinliklərdən söhbət açacaq, qeyd olunan məsələlərlə bağlı qüvvədə olan qanunvericilik, mövcud təcrübə, xarici ölkələrin qanunvericiliyini müqayisəli şəkildə təhlil etməyə çalışacağıq. Aşağıdakı suallar ətrafında öz fikir və mülahizələrimizi paylaşmaq istərdik.

***Nikahın pozulması tələbinə dair işlər üzrə qanunvericilikdə iddianın təmin edilməsinə münasibətdə məhkəmənin alternativ qərar qəbul etmək imkanı olmadığından bu işlərin məhkəmədə baxılmasının əhəmiyyəti nədən ibarətdir?***

Ailə Məcəlləsinin 17-ci maddəsinə görə ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olmadıqda, nikaha onların razılığı əsasında və ya

müvafiq icra hakimiyyəti orqanında xitam verilə bilər. Bundan başqa, tərəflərdən biri məhkəmə qaydasında itkin düşmüş hesab edildikdə, fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, cinayət törətməyə görə ən azı 3 il müddətinə azadlıqdan məhrum olunduqda yetkinlik yaşına çatmayan ümumi uşaqlarının olmasından asılı olmayaraq ər və ya arvadın ərizəsi əsasında nikaha xitam verilməsi ***müvafiq icra hakimiyyəti orqanında aparılır***.

Həmin məcəllənin 19-cu maddəsinə görə ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olduqda və ya tərəflərdən biri nikahın pozulmasına razı olmadıqda ***nikah məhkəmə qaydasında pozulur***. Həmçinin, ər-arvadın razılığı olduqda, lakin onlardan biri müvafiq icra hakimiyyəti orqanında nikahın pozulmasından yayındıqda da nikahın pozulması məhkəmə qaydasında həyata keçirilir.

Ailə qanunvericiliyinin yuxarıda qeyd olunan müddəalarından göründüyü kimi qanunverici nikahın pozulmasının məhkəmə qaydasını ***yetkinlik yaşına çatmayan uşaqların mənafeyi*** və ***tərəflərdən birinin nikahın pozulmasına razı olmaması halından*** asılı etmişdir. Bəzi hüquqşünaslar hesab edirlər ki, yuxarıda qeyd olunan əsaslara görə nikahın məhkəmə qaydasında pozulması düzgün yanaşma deyil. Belə ki, yetkinlik yaşına çatmayanlarla bağlı (kimin yanında qalması, aliment və s.) mübahisə olduqda bu mübahisəyə ayrıca icraat qaydasında baxıla bilməsi mümkün olduğundan məhz həmin əsasa görə nikahın pozulması məhkəmə qaydasında müəyyən edilməməlidir. Digər əsas isə tərəflərdən birinin nikahın pozulmasına razı olmamasıdır. Tərəflərdən birinin razılığının olmaması mübahisəli vəziyyət yaratdığından bu halda məhkəmə qaydasının müəyyən edilməsi düzgün hesab olunsa da, digər yandan qanunverici bu kateqoriyadan olan işlər üçün məhkəməyə alternativ qərar qəbul etmək seçimi verməmişdir. Belə ki, Ailə Məcəlləsinin 20.1-ci maddəsində deyilir: “Ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü ***məhkəmə tərəfindən müəyyən edildikdə***, nikah məhkəmə qaydasında pozulur.” Bu normadan belə aydın olur ki, əgər qeyd edilən hal məhkəmə tərəfindən müəyyən edilmədikdə məhkəmə iddianı rədd edə bilər. Lakin Ailə Məcəlləsinin 20.2-ci maddəsində məsələ fərqli nizama salınır. Həmin maddəyə görə tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməklə işi təxirə sala bilər. Barışıq olmadıqda və ya tərəflərdən biri nikahın pozulmasında təkid etdikdə nikah pozulur. Göründüyü kimi, tərəflərdən biri nikahın pozulmasına razı olmadıqda belə məhkəmə ***iddianı rədd edə bilmir.*** Bu isə Azərbaycan qanunvericiliyində müəyyən olunmuş nikahın könüllülüyü prinsipindən irəli gəlir. Belə olan halda,

nikahın pozulmasının məhkəmə qaydasının müəyyən edilməsinin əhəmiyyəti nədən ibarətdir? Fikrimizcə, burada qanunverici ədalət mühakiməsi yolu ilə nikahın pozulmasının səbəblərinin araşdırılması, tərəflərin barışdırılması, ailənin qorunub saxlanması üçün zəruri addımların atılması baxımından belə bir mövqe seçmişdir.

Digər tərəfdən, qanunvericiliyimizdə nikahın pozulması üçün zəruri olan səbəblər və həmin səbəblərin nikahın pozulmasına təsiri məsələsi də açıq qalmışdır. Yəni nikahın pozulması səbəbinin məhkəmə tərəfindən qəbul ediləcək yekun qərara hər hansı bir təsiri yoxdur. Bu halda isə sual yaranır. ***Nikahın pozulması üçün səbəblərin siyahısının qanunvericilikdə xüsusi olaraq nəzərdə tutulmaması düzgündürmü və bununla bağlı xarici ölkələrin təcrübəsi necədir?***

Yuxarıda da qeyd etdiyimiz kimi hazırda qüvvədə olan qanunvericiliyə görə ər və ya arvad heç bir səbəb göstərmədən və ya formal səbəblər göstərməklə nikahın pozulması tələbi ilə məhkəməyə müraciət edə bilər. Qarşı tərəfin razılığından asılı olmayaraq ən geci məhkəmənin barışıq üçün müəyyən etdiyi 3 aylıq müddətdən sonra təkid edərək nikahın pozulmasına nail ola bilər. Yəni burada nikahın pozulması səbəbləri, məhkəmə statistikası baxımından müəyyən əhəmiyyətə malik olsa da, faktiki olaraq işin həlli baxımından əhəmiyyət kəsb etmir. Məsələ ilə bağlı xarici ölkələrin təcrübəsinə nəzər salmaq maraqlı olar.

**Amerika Birləşmiş Ştatlarında** nikahın pozulması müxtəlif ştatların qanunvericiliyində fərqli cür tənzimlənsə də, ümumilikdə nikahın pozulmasının iki növü fərqləndirilir: **təqsirə əsaslanan** ("fault divorce") və **təqsirə əsaslanmayan** ("no-fault divorce")[1]. Nikahın pozulmasının təqsirə əsaslanan formasında iddiaçı tərəf qarşı tərəfin nikahın pzoulmasında təqsirini sübuta yetirməlidir. Əks təqdirdə məhkəmə nikahın pozulması tələbini təmin etməyəcək. Nikahın pozulmasının təqsirə əsaslanmayan formasında isə iddiaçı tərəf yaşadığı ştatın qanunvericiliyində nəzərdə tutulmuş nikahın pozulmasının formal əsasını göstərməklə nikahın pozulmasını tələb edə bilər. Bu əsaslar sırasında nikahın artıq faktiki xarakter daşımaması, tərəflər arasında qəbuledilməz fərqlər və bunun nikahın mövcudluğunun qeyri-mümkünlüyünə səbəb olması kimi hallar göstərilmişdir. Bu əsasların mövcudluğunu təsdiq edən sübutlara tərəflərin müəyyən müddət (ştatlar üzrə bu müddət 6 ay – 2 il arasında dəyişilir) ayrı yaşaması kimi faktları aid etmək olar. Bu hallar məhkəmədə sübut edildikdə qarşı tərəfin razılığının olub-olmamasından asılı olmayaraq məhkəmə iddianı təmin edəcəkdir. Nikahın

[1] http://family.findlaw.com/divorce/an-overview-of-no-fault-and-fault-divorce-law.html

pozulmasının haqqında bəhs etdiyimiz bu növü milli qanunvericiliyimizdə nəzərdə tutulmuş nikahın pozulması institutu ilə oxşarlıq təşkil edir. **ABŞ** qanunvericiliyində nikahın pozulmasının bu iki növünün fərqləndirilməsi ona xidmət edir ki, nikahın pozulmasında təqsirli olan, digər tərəfə mənəvi ziyan vuran, onun həyat şəraitinin pisləşməsinə səbəb olan tərəf üçün əgər bu hallar məhkəmə qaydasında sübut olunarsa, təqsirli olan tərəf üçün arzuolunmaz nəticələr yarada bilsin[2].

Bundan başqa, ABŞ qanunverciliyində nikahın pozulmasının sadələşdirilmiş proseduru da müəyyən edilmişdir. Belə ki, ABŞ qanunvericiliyində müəyyən olunmuş meyarlara cavab verən tərəflər yazılı razılaşma tərtib edə bilər və bunu məhkəmədə təsdiq etməklə nikahın pozulmasına nail ola bilərlər. Bu meyarlara 5 ildən az evlilik, uşaqların və ümumi birgə mülkiyyətin olmaması kimi hallar aiddir.

**İngiltərədə** nikahın pozulması üçün tərəflər ***bir ildən artıq nikahda olmalıdırlar***. İngiltərə qanunvericiliyində nikahın pozulmasının bir əsası müəyyən edilmişdir. Bu ***nikahın bərpaolunmaz vəziyyəti*** hesab olunur[3].

Bu əsasın mövcudluğu isə 5 fakt əsasında sübut oluna bilər:

1. Xəyanət.
2. Əsassız davranış (ən geniş yayılan).
3. Hər iki tərəfin razılığı olduqda 2 illik ayrı yaşama.
4. Tərəflərdən biri razı olmadıqda 5 illik ayrı yaşama.
5. 2 il və artıq müddətdə atıb getmə.

**Almaniya** qanunvericiliyində də nikahın pozulmasının yeganə əsası ailə münasibətlərinin bərpaolunmaz vəziyyəti hesab olunur. Bu vəziyyəti təsdiq edən hallar isə aşağıdakılardır:

1. Hər iki tərəfin razılığı olduqda 1 illik ayrı yaşama.
2. Tərəflərdən biri razı olmadıqda 3 illik ayrı yaşama.

Xüsusi hallarda (ailə zorakılığı və digər bu kimi hallar) 12 ay müddətində nikahın pozulmasına yol verilir[4] .

Xarici ölkələrin qanunvericiliyinin müqayisəli təhlilindən də aydın olur ki, nikahın pozulması hər bir halda məhkəmə tərəfindən həll olunan məsələdir və bu zaman nikahın könüllülük prinsipi əsas rol oynayır. Yəni tərəflərdən birinin razı olub-olmamasından asılı olmayaraq, əgər bir tərəf nikahın pozulmasında israrlıdırsa, bu zaman nikah pozulacaqdır. Lakin burada diqqət ediləsi məqam ondan ibarətdir ki, ***nikahın pozulması prosedurları elə***

---

[2] https://en.wikipedia.org/wiki/Divorce_in_the_United_States
[3] https://en.wikipedia.org/wiki/Divorce_in_England_and_Wales
[4]http://www.expatica.com/de/family-essentials/Getting-a-divorce-in-Germany_107818.html

***müəyyən edilib ki, bu həqiqətən tərəflərin birgəyaşayışının mümkünsüzlüyünü müəyyən etmiş olsun***. Burada da ən əsas amil müddətlərlə bağlıdır. Yəni nikaha daxil olduqdan sonra 1 il müddətində nikahın pozulmasının qeyri-mümkünlüyü, tərəflərin faktiki olaraq ölkələrin qanunvericiliyindən asılı olaraq 2 il, 3 il və ya 5 il ayrı yaşaması kimi halların nikahın pozulmasında əsas şərt kimi müəyyən edilməsi ailə nikah münasibətlərinin qorunub saxlanılmasında mühüm rol oynayır. Fikrimizcə, Azərbaycan Respbulikası qanunvericiliyində də bu kimi halların nəzərdə tutulması məsələnin müsbət həlli baxımından mühüm əhəmiyyətə malik olardı.

Yuxarıda qeyd olunanlarla yanaşı nikahın pozulması tələbinə dair mülki işlər üzrə məhkəmə təcrübəsində prosessual normaların tətbiqi ilə bağlı da müəyyən suallar ortaya çıxır.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 153-cü maddəsinə görə eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair iddiaçının iddiadan imtina etməsi ilə əlaqədar iş üzrə icraata xitam verilməsi halında məhkəmə iddianın yolverilməzliyinə görə təkrarən həmin işə baxa bilməz. Lakin təcrübədə nikahın pozulması tələbinə dair işlər üzrə bu normanın tətbiqi qeyri-mümkün olur. Bəs məsələ necə tənzimlənməlidir? Fikrimizcə, məhkəmələr bu qəbildən olan işlərə baxarkən konstitusiyada nəzərdə tutulan nikahın könüllülüyü prinsipinə əsaslanmalıdırlar. Təbii ki, AR MPM-in qeyd olunan maddəsinə istinad edərək nikahın pozulması tələbinə dair ərizəni qəbul etməkdən imtina etmək, konstitusiya və Ailə Məcəlləsinin prinsiplərinə zidd olardı.

Nikahın pozulması ilə bağlı məhkəmə təcrübəsində ortaya çıxan digər bir məsələ müddətlərlə bağlıdır. Mülki Prosessual Məcəlləyə görə mülki işlərə 3 ay müddətində baxılıb nəticə verilməlidir. Lakin nikahın pozulması tələbinə dair işlər üzrə tərəflərin barışması üçün məhkəmə müddət təyin etdikdə bu müddəanın tələbi pozulur. MPM-də müəyyən olunmuş 3 aylıq müddət ona yönəlib ki, məhkəmələr tərəfindən işlərə qısa müddət ərzində baxılsın, süründürməçilik hallarına yol verilməsin. Lakin nikahın pozulması tələbinə dair işlər üzrə qanunvericilik daha çox ailə münasibətlərinin qorunub saxlanılması, tərəflərin barışdırılması mövqeyindən çıxış edir. Buna görə də Ailə Məcəlləsində tərəflərdən birinin nikahın pozulmasına razı olmadıqda məhkəməyə 3 ay barışıq üçün vaxt verilməsi imkanı vermişdir. Bu baxımdan MPM-də müəyyən olunmuş 3 aylıq müddət qeyd olunan kateqoriyadan olan işlərə şamil olunmamalıdır. Fikrimizcə, həmin istisna MPM-in qeyd edilən normasında da öz əksini tapmalıdır.

Təcrübədə yaranan digər bir sual nikahın pozulması tələbinə dair işlər üzrə dövlət rüsumunun kimdən tutulmalı olmasıdır. Yuxarıda da qeyd etdiyimiz kimi, nikahın pozulması tələbinə dair işlər üzrə iddianın təmin edilməsinə münasibətdə məhkəmənin alternativ qərar qəbul etmək imkanı olmadığından belə qənatə gələ bilərik ki, dövlət rüsumu hər zaman cavabdehdən tutulmalıdır. Məhkəmə təcrübəsində isə, dövlət rüsumu ya iddiaçıdan tutulur, ya da ümumiyyətlə, qətnamədə dövlət rüsumu məsələsinə toxunulmur. Fikrimizcə, bu məsələyə də qanunvericilik müstəvisində aydınlıq gətirilərsə, vahid məhkəmə təcrübəsinin yaradılması baxımından mühüm əhəmiyyət kəsb etmiş olar.

Nikahın pozulması tələbinə dair mülki işlər üzrə iddia təmin edilərkən tərəflər arasında nikahı təsdiq edən nikah şəhadətnaməsinin hüquqi taleyi həll olunmur. Bununla bağlı qanunvericilikdə də heç bir norma nəzərdə tutulmamışdır. Bəzi hallarda nikah şəhadətnaməsi tərəfə qaytarılır, bəzən isə müvafiq qeydiyyat orqanına göndərilir. İddia ərizəsinə nikah şəhadətnaməsinin surəti əlavə olunduqda isə bu məsələyə ümumiyyətlə toxunulmur. Halbuki, nikah şəhadətnaməsi rəsmi sənəd olduğundan məhkəmənin mümkün sui istifadə hallarının qarşısını almaq üçün həmin sənədi tərəflərdən tələb edib aidiyyəti qeydiyyat orqanına göndərmək səlahiyyəti qanunvericilikdə nəzərdə tutulmalıdır.

Qeyd olunanları ümumiləşdirsək belə bir nəticəyə gələ bilərik ki, nikahın pozulması tələbinə dair işlərin spesifik xüsusiyyətləri maddi və prosessual qanunvericilikdə mütləq nəzərə alınmalı, müvafiq istisna normalar qanunvericilikdə öz əksini tapmalıdır. Bu isə özlüyündə həm nikahın pozulmasına dair işlər üzrə məhkəmənin fəaliyyətinə daha effektiv təsir göstərməklə pozulmuş nikahların sayının azaldılmasına, həmçinin bu sahədə vahid məhkəmə təcrübəsinin formalaşmasına müsbət təsir etmiş olar.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, Qanun, 2015.
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı, Qanun, 2015.
3. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, Qanun, 2015.
4. http://family.findlaw.com/divorce
5. https://en.wikipedia.org/wiki/Divorce_in_the_United_States
6. https://en.wikipedia.org/wiki/Divorce_in_England_and_Wales
7. http://www.expatica.com/de/family-essentials/Getting-a-divorce-in-Germany_107818.html

## Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2015-ci ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında

Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qərarları ilə hakimlərin müntəzəm olaraq tanış edilməsini Bülletenin bu sərlövhəsinin əsas məqsədlərindən biri kimi müəyyən etmişik. Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı qərarların digər hakimlərin nəzərinə çatdırılmasının zəruriliyi, xüsusilə intizam tənbehlərinə səbəb olan pozuntular barədə hakim korpusunun məlumatlandırılmasının vacibliyi hakimlərin statusuna aid beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Hesab edirik ki, bu yolla həm hakimlərin özünüidarəsi sahəsində şəffaflıq prinsipi təmin olunur, həm də eyni pozuntuların digər hakimlər tərəfindən törədilməsi hallarının qarşısı alınmış olur. Bu məqsədlərdən çıxış edərək Bülletenin hazırkı sayında 2015-ci ilin birinci yarısında Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi bir sıra qərarlar barəsində ümumiləşdirilmiş məlumatları və buna dair müvafiq təhlili muxtar respublika hakimlərinin diqqətinə çatdırmaq istərdik.

2015-ci ilin birinci yarımilliyində Məhkəmə-Hüquq Şurası tərəfindən 12 hakim barəsində intizam icraatı başlanılmış, həmin intizam icraatları üzrə 5 hakimin intizam məsuliyyətinə cəlb olunması haqqında qərar qəbul edilmişdir. Bu qərarlar Məhkəmə-Hüquq Şurasının 12 may 2015-ci il tarixli iclasında qəbul olunmuşdur[5]. Həmin qərarlar əsasında intizam icraatı başlanılan hakimlərdən 2 nəfərin (Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimlərinin) və 1 nəfərin (Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakiminin) barəsində töhmət verilmişdir. Barəsində intizam icraatı başlanılmış 2 nəfərə (Bakı şəhəri Nizami Rayon Məhkəməsinin və 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi) irad tutulmuşdur.

İntizam icraatının başlanılmasına 3 halda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, 1 halda Bakı Apellyasiya Məhkəməsinin və 1 halda isə Gəncə Apellyasiya Məhkəməsinin müraciətləri əsas olmuşdur.

---

[5] Bu sərlövhənin hazırlanması zamanı Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 12 may 2015-ci il tarixli qərarlarına istinad olunmuşdur.

3 halda intizam icraatının başlanılmasına səbəb əmək və icra intizamının pozulması, 2 halda isə işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması olmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 12 may 2015-ci il tarixli qərarlarından görünür ki, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri M.Əkbərovun, həmin məhkəmənin hakimləri R.Həsənovun, E.Nuriyevin barəsində intizam icraatına işlərə baxılarkən əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması, Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi M.Məmmədovun və 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi İ.Bayramovanın isə qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması əsas olmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 12 may 2014-cü il tarixli qərarından görünür ki, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin sədri Məhəmməd Hüseyn oğlu Əkbərov tərəfindən əmək və icra intizamı haqqında qanunvericiliyin tələbləri kobud surətdə pozulmuşdur. Belə ki, araşdırma zamanı müəyyən edilmişdir ki, məhkəmənin sədri M.Əkbərov tərəfindən məhkəmədə kargüzarlıq işi düzgün təşkil edilməmiş, o cümlədən məhkəmədə sənədlərin qeydə alınması, onların icrasına nəzarətin təşkili, işlərin nomenklaturunun tərtib edilməsi, qovluqların formalaşdırılması, arxivə təhvil verilməsi və cari arxivdən istifadə qaydaları barədə qanunvericiliyin tələbləri pozulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 125-ci, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 3-cü maddələrinin tələblərinə əsasən məhkəmələrin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldildiyi halda, məhkəmənin sədri M.Əkbərov öz səlahiyyətlərini düzgün qiymətləndirməyərək 2013-cü il və 2014-cü ilin birinci yarım ili ərzində işlərin bölüşdürülməsinin heç bir dövriyyəsində iştirak etməmiş, icraatına iş götürməyərək həmin müddətdə mülki, cinayət, inzibati xətalar haqqında və digər icraatlar üzrə işlərə baxmamış, hakim kimi ədalət mühakiməsini həyata keçirməkdən öz-özünü kənarlaşdırmışdır.

Məhkəmədə qovluq və kitabların tərtibi, arxiv işinin təşkili sahələrində "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın (bundan sonra –Təlimat) bir çox bəndlərinin tələbləri pozulmuşdur. Belə ki, işlərin nomenklaturunun tərtib edilməsi, qovluqların formalaşdırılmasına dair Təlimatın 418, 419-cu bəndlərinin məhkəmə aparatı işinin təşkilinə, məhkəmə təcrübəsinin öyrənilməsinə və ümumiləşdirilməsinə dair "Məhkəmələr və hakimlər haqqında" Qanunun 23-cü maddəsi-

nin tələblərinə riayət edilməmiş, bir çox qovluqlar məhkəmənin dəftərxanasında boş qovluqlar kimi saxlanılmışdır.

Təlimatın qeydiyyat ştamplarının və kitablarının tərtib edilməsinə dair müddəalarına əməl olunmamışdır. 2013-cü il və 2014-cü ilin birinci yarımilində cinayət, mülki və prosessual məcburiyyət tədbirləri istisna olmaqla digər növ işlər və materiallar üzrə əlifba göstəriciləri doldurulmamışdır.

Təlimatın 12 nömrəli əlavəsinə zidd olaraq məhkəmənin dəftərxanasında "Yetkinlik yaşına çatmayan", "Arxivə", "Həbsdədir", "Təcili" və "Əsli ilə düzdür" adlı qeydiyyat ştampları olmamışdır.

Məhkəmədə arxiv işinin təşkilində nöqsanlara yol verilmiş, Təlimatın 417, 430, 437 və 438-ci bəndlərinin tələbləri pozularaq işlərin (materialların) ümumi nomenklatur siyahısı tərtib olunmamış, daimi fəaliyyət göstərən arxiv işi üzrə ekspert komissiyası yaradılmamışdır.

Məhkəmənin sədri M.Əkbərovun məhkəmə fəaliyyətinin təşkili vəziyyətinə, həmçinin məhkəmə aparatının işinə rəhbərliyi düzgün həyata keçirməməsi nəticəsində bir sıra hallarda məhkəmə işçiləri vəzifə funksiyalarına aid olmayan işlərin yerinə yetirilməsinə cəlb edilmişlər. Məsələn, öyrənilmiş 100-dən çox cinayət işi və digər icraat materialları üzrə məhkəmədə böyük mütəxəssis (makinaçı-operator) işləyən şəxslər qanuni əsas olmadan məhkəmə iclas katibi vəzifələrini yerinə yetirmişdir. Nəticədə "Məhkəmələr və hakimlər haqqında" Qanunun 23-cü (rayon (şəhər) məhkəməsi sədrinin səlahiyyətləri) və CPM-in 98-ci (məhkəmə iclasının katibi) maddələrinin tələbləri pozulmuşdur.

Məhkəmə sədri M.Əkbərov 2014-cü ilin iyul-avqust aylarında yalnız əmr icraatına aid olan mülki işlərə baxmış və onların hamısı üzrə, o cümlədən 3206/14, 3208/14, 3210/14, 3212/14, 3214/14, 3216/14, 3218/14, 3220/14, 3222/14, 3226/14, 3224/14, 3228/14, 3230/14, 3234/14, 3246/14, 3252/14, 3255/14 və 3258/14 nömrəli işlər üzrə AR MPM-in 270-272-ci maddələrinin tələblərinə zidd olaraq məhkəmə iclasından kənar prosessual hərəkət barədə protokollar tərtib olunmamışdır.

2013-cü il və 2014-cü il ilin birinci yarım ili ərzində Bakı şəhəri Nizami Rayon Məhkəməsinin icraatına 13 mindən çox iş və ya material daxil olmasına, 2012-ci illə müqayisədə 2013-cü ildə iş həcminin cinayət və mülki işlər, prosessual məcburiyyət tədbirlər haqqında təqdimatlar, hökmün icrası qaydasında materiallar üzrə artmasına, habelə hüquq normalarının düzgün tətbiq edilməməsi nəticəsində çoxsaylı məhkəmə qərarlarının (yalnız 2014-cü ilin 1-ci yarımilində məhkəmə tərəfindən mülki işlər üzrə qəbul edilmiş 50 qətnamə və ya qərardad, cinayət icraatı üzrə çıxarılmış 17 qərar)

apellyasiya instansiyası məhkəməsi tərəfindən ləğv edilməsinə baxmayaraq, bunun səbəblərinin araşdırılması diqqətdən kənarda qalmış, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirməsi isə ümumiyyətlə, aparılmamışdır. Bununla məhkəmənin sədri M.Əkbərov "Məhkəmələr və hakimlər haqqında" Qanunun 23-cü maddəsinin tələblərinə riayət etməyərək məhkəmə fəaliyyətinin təşkili, məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirməsi ilə bağlı işi düzgün təşkil etməmişdir.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 12 may 2015-ci il tarixli qərarından görünür ki, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Ramil Yaqub oğlu Həsənovun sədrliyi ilə baxılmış bir sıra cinayət işləri üzrə məhkəmə qərarlarının tərtibi və onların məzmununa dair prosessual qanunvericiliyin müddəaları kobudcasına pozulmuşdur. Belə ki, N.Musayev barəsində 374/13 nömrəli iş üzrə təqsirləndirilən şəxin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında 25.09.2013-cü il tarixli qərar hakim R.Həsənov tərəfindən ötən bir ilə yaxın müddət ərzində imzalanmamışdır.

AR CPM-in 301.2 və 301.2.8-ci maddələrinə əsasən təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında qərarda digər məsələlərlə yanaşı, təqsirləndirilən şəxs tərəfindən seçilmiş şəxsin müdafiəçisi qismində işə buraxılması və ya təqsirləndirilən şəxsə müdafiəçinin təyin edilməsi göstərilməlidir.

Araşdırma zamanı müəyyən olunmuşdur ki, təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi barədə qərarların məzmununa dair cinayət prosessual qanunvericiliyin tələblərinə heç də həmişə əməl edilməmiş, seçmə üsulla öyrənilmiş 25 cinayət işi üzrə çıxarılmış 156/13, 221/13, 222/13, 243/13, 286/13, 374/13, 1471/13,14/14, 31/14, 143/14, 219/14, 226/14, 238/14, 244/14, 250/14, 256/14, 261/14, 273/14, 282/14, 283/14, 287/14, 292/14, 294/14, 296/14 və 333/14 nömrəli qərarların heç birində təqsirləndirilən şəxs tərəfindən seçilmiş şəxsin müdafiəçi qismində işə buraxılması və ya təqsirləndirilən şəxsə müdafiəçinin təyin edilməsi barədə nəticələr göstərilməmişdir.

Bundan başqa, müəyyən edilmişdir ki, hakim R.Həsənov CPM-in məhkəmə hökmünün tərtib edilməsi, məzmunu və elan edilməsinə dair 352-353, 356-cı maddələrinin tələblərini kobudcasına pozaraq K.Məmmədov barəsində 294/14 nömrəli və Z.Məmmədov barəsində 296/14 nömrəli cinayət işləri üzrə məhkəmə hökmləri hazır olmadan və onların hər səhifəsini imzalamadan və bununla faktiki mövcud olmayan ittiham hökmlərini çıxarışlar üzrə elan etmişdir.

Bundan əlavə, araşdırma ilə müəyyən edilmişdir ki, hakim R.Həsənovun icraatında olan bir çox işlər üzrə prosessual hərəkətlərin gedişi və nəticələrinin protokollaşdırılmasına dair qanunvericiliyin tələbləri pozulmuşdur. Məsələn, N.Musayev barəsində 374/13 nömrəli iş üzrə 08.10.2013-cü il, Z.Məmmədov barəsində 296/14 nömrəli iş üzrə 08.08.2014-cü il və K.Məmmədov barəsində 294/14 nömrəli iş üzrə 12.08.2014-cü il tarixli məhkəmə iclas protokolları hakim və məhkəmə iclas katibi tərəfindən imzalanmamışdır. Nəticədə maraqlı şəxslərin məhkəmə iclas protokolları ilə tanış olmaq, onlara dair yazılı qeydlər vermək hüquqları kobud şəkildə pozulmuşdur.

Eyni zamanda müəyyən edilmişdir ki, hakim R.Həsənovun sədrliyi ilə hökmün icrası qaydasında baxılmış 23 iş üzrə müdafiəçinin təyin olunması barədə 05.06.2014-cü il tarixli bir qərar çıxarılmış, həmin qərarda məhkəmə iclas katibinin adı və soyadı göstərilməmiş, həmçinin qeyd edilən prosessual hərəkətin gedişi və nəticələrinə dair protokol tərtib edilməmişdir. Nəticədə, "Məhkəmə və hakimlər haqqında" Qanunun 4-cü (məhkəmələrdə işə baxılması), CPM-in 51-ci (cinayət təqibi üzrə prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılmasının məcburiliyi) və 134.1-ci (məhkəmə iclasının protokolları) maddələrinin tələbləri kobudcasına pozulmuşdur.

Eləcə də araşdırma ilə müəyyən edilmişdir ki, hakim R.Həsənov tərəfindən heç bir qanuni əsas olmadan məhkəmədə mütəxəssis (makinaçı-operator) işləyən şəxs məhkəmə iclas katibi vəzifələrini yerinə yetirməyə cəlb edilmişdir. Məsələn, məhkəmədə böyük mütəxəssis (makinaçı-operator) işləyən M.Teymurova məhkəmə iclası protokolunun aparılmasına səlahiyyət verilmədən, qanuni əsas (müqavilə və ya əmr) olmadan makinaçı-operator işi ilə yanaşı, hökmün icrası qaydasında baxılan çoxsaylı (251/14, 367/14, 368/14, 369/14, 370/14, 397/14, 401/14, 403/14, 404/14 və 406/14 nömrəli və digər) materiallar üzrə məhkəmə iclasının katibi vəzifəsini yerinə yetirmiş və nəticədə CPM-in məhkəmə iclasının katibinə dair 98-ci maddəsinin tələbləri pozulmuşdur.

Bundan başqa, hakim R.Həsənovun sədrliyi ilə baxılmış 156/13, 243/13, 221/13, 222/13, 286/13, 374/13, 1471/13,14/14, 31/14, 143/14, 219/14, 256/14, 226/14, 261/14, 282/14, 292/14, 238/14, 244/14, 250/14, 273/14, 283/14, 287/14, 294/14, 296/14 və 333/14 nömrəli cinayət işləri üzrə çıxarılmış 21.05.2014, 20.06.2014, 12.08.2014, 13.08.2014, 19.08.2014, 13.08.2014, 08.08.2014, 26.08.2014 və 13.08.2014-cü il tarixli hökmlərin nəticəvi hissəsində CPM-in 353.1.13-cü maddəsinin tələblərinə zidd olaraq hökmün qanuni qüvvəyə minməsinin izahı göstərilməmişdir.

AR CPM-in 198.3-cü maddəsinə əsasən məhkəmə məsrəflərinin məhkumların hər birindən təqsirlilik dərəcəsi, təyin olunmuş cəzanın ciddiliyi və əmlak vəziyyəti nəzərə alınaraq məhkəmə tərəfindən müəyyən olunmuş pay üzrə tutulmalıdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, hakim R.Həsənovun sədrliyi ilə 19.02.2014-cü il tarixdə E.Babayev, Z.Əhmədov və T.Məmmədov barəsində çıxarılmış 31/14 nömrəli, Y.Xəlilov, E.Cavadova və A.Əliyev barəsində çıxarılmış 269/13 nömrəli hökmlərin nəticəvi hissələrində qeyd olunan maddənin tələbləri pozularaq ekspertiza xərclərinin müştərək qaydada tutulması qərara alınmışdır.

Eyni zamanda müəyyən edilmişdir ki, tarixləri hüquqi əhəmiyyət kəsb edən məhkəmə sənədlərinin proses tərəflərinə təqdim edilməsində də pozuntulara yol verilmişdir. Məsələn, 219/14, 238/14, 256/14, 282/14, 283/14, 296/14 və 292/14 nömrəli cinayət işləri üzrə ittiham aktlarının, həmçinin 30.08.2014, 18.06.2014 və 14.05.2014-cü il tarixli hazırlıq iclaslarının qərarlarının proses tərəflərinə verilməsinə dair qəbzlərdə tarixlərin olmaması, bu sənədlərin rəsmi qaydada təqdim olunmasını şübhə altına qoyur.

Hakim R.Həsənovun sədrliyi ilə baxılmış bir sıra işlər üzrə hökmlərin, xüsusilə nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə növündə cəzaların icraya yönəldilməsi zamanı qanunvericiliyin tələblərinə dəqiq əməl edilməmişdir. Məsələn, 184/14 nömrəli cinayət işi üzrə Cəzaların İcrası Məcəlləsinin 154.1 və 154.3-cü maddələrinin tələbləri pozularaq nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilmə növündə cəzanın icrası aidiyyəti üzrə cəzanı icra edən orqana düzgün göndərilməmişdir.

Bundan başqa, araşdırma ilə müəyyən edilmişdir ki, hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında müraciətlərə baxılması zamanı hakim R.Həsənov tərəfindən qanunvericiliyin tələbləri bir çox hallarda pozulmuşdur. Belə ki, bir sıra işlər üzrə cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə bağlı məhkəmənin gəldiyi nəticələr işin faktiki hallarına uyğun olmadığına görə hakim R.Həsənovun çıxartdığı qərarlar apellyasiya instansiyası məhkəməsi tərəfindən əsassız sayılaraq ləğv edilmişdir. Məsələn, Bakı Apellyasiya Məhkəməsinin müvafiq qərarları ilə apellyasiya protestləri təmin edilərək, hakim R.Həsənovun sədrliyi ilə 1232/12, 1235/12, 2188/12, 2195/12, 2196/12, 49/13, 52/13, 186/13, 191/13, 193/13, 194/13, 995/13, 1192/13 və 22/14 nömrəli materiallar üzrə çıxarılmış 20.07.2012, 17.12.2012, 14.01.2013, 04.02.2013, 04.06.2013 və 19.03.2014-cü il tarixli qərarlar ləğv edilmiş, məhkumların cəzasının çəkil-

məmiş qalan hissəsini məntəqə tipli cəzaçəkmə müəssisəsində çəkməsinə dair ərizələri isə təmin edilməmişdir.

Bundan əlavə, müəyyən edilmişdir ki, məhkumların cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi ilə bağlı bir çox (məsələn, 1924/12, 1925/12, 2183/12 və 44/13 nömrəli) materiallar üzrə də məhkəmənin gəldiyi nəticələr işin faktiki hallarına uyğun olmadığına görə hakim R.Həsənovun sədrliyi ilə çıxarılmış çoxsaylı (29.10.2012, 17.12.2012 və 14.01.2013-cü il tarixli, müvafiq olaraq 88/13, 155/13, 195/13 və 196/13 nömrəli) qərarlar apellyasiya instansiya məhkəməsi tərəfindən ləğv edilmişdir.

Eləcə də müəyyən edilmişdir ki, maddi normaların düzgün tətbiq edilməməsinin və buraxılmış prosessual pozuntuların nəticəsidir ki, cinayət icraatı üzrə hakim R.Həsənovun sədrliyi ilə çıxarılmış məhkəmə aktlarından verilmiş apellyasiya şikayətlərinin (protestlərinin) təxminən hər ikisindən biri təmin edilmişdir. Məsələn, Bakı Apellyasiya Məhkəməsinin müxtəlif tarixli qərarları ilə yalnız 2013-cü ildə 13 hökm dəyişdirilmiş, 17 qərar isə ləğv olunmuşdur.

Yuxarıda qeyd edilən hərəkətləri ilə hakim R.Həsənov Azərbaycan Respublikası Konstitusiyasının 60-cı (hüquq və azadlıqların məhkəmə təminatı) və 127-ci (ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri), "Məhkəmələr və hakimlər haqqında" Qanunun 99-cu (hakimlərin vəzifələri) maddələrinin, həmçinin prosessual qanunvericiliyin müvafiq müddəalarının tələblərini kobud şəkildə pozmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 12 may 2015-ci il tarixli qərarından görünür ki, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Elnur Aləm oğlu Nuriyev ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı üzərinə düşən xidməti vəzifələrinin icrasına laqeyd münasibət bəsləyərək Azərbaycan Respublikası Konstitusiyasının 60 və 127-ci, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 4 və 99-cu maddələrinin, habelə prosessual qanunvericiliyin tələblərinin çoxsaylı pozulması hallarına yol vermişdir.

Hakim E.Nuriyevin sədrliyi ilə baxılmış bir çox cinayət işləri (məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayətlər) üzrə məhkəmə qərarlarının tərtibinə dair prosessual qanunvericiliyin müddəaları kobudcasına pozulmuşdur. Məsələn, 60/14, 106/14, 162/14, 175/14, 196/14, 210/14və 277/14 nömrəli cinayət işləri üzrə məhkumlar K.Salmanova, Ə.Qənbərov, R.Əsgərov, M.Həsənov, V.Quliyev, Z.Ağamalıyev və Ə.Hüseynov barəsində müvafiq olaraq 12 mart 2014, 16 aprel 2014, 07 may 2014, 21 may 2014 və 16 iyul 2014-cü il tarixlərdə ittiham hökmləri çıxarılmasına baxmayaraq, təqsirləndirilən şəxsin məhkə-

məyə verilməsi və işin məhkəmə baxışının təyin edilməsi haqqında hazırlıq iclaslarının qərarları hakim E.Nuriyev tərəfindən 27 avqust 2014-cü il tarixə kimi ötən 1-5 ay müddət ərzində imzalanmamışdır. Nəticədə, CPM-in 300.4. və 300.4.1-ci maddələrinin tələbləri pozularaq həmin qərarların surətlərinin cinayət prosesi tərəflərinə göndərilməsi də təmin olunmamışdır.

Öyrənilmiş cinayət işləri üzrə təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi barədə qərarın məzmununa dair prosessual qanunvericiliyin tələblərinə də həmişə əməl edilməmişdir. Belə ki, CPM-in 301.2. və 301.2.8-ci maddələrinin tələblərinə zidd olaraq 60/14, 88/14, 93/14, 106/14, 113/14, 120/14, 113/14, 141/14, 155/14, 162/14, 169/14, 175/14, 182/14, 196/14, 210/14, 224/14, 259/14, 277/14 nömrəli və daha 12 cinayət işi üzrə təqsirləndirilən şəxsin məhkəməyə verilməsi və məhkəmə baxışının təyin edilməsi haqqında qərarların heç birində təqsirləndirilən şəxs tərəfindən seçilmiş şəxsin müdafiəçi qismində işə buraxılması və ya təqsirləndirilən şəxsə müdafiəçinin təyin edilməsi barədə gəlinmiş nəticələr göstərilməmişdir.

E.Nuriyevin icraatında olmuş işlər üzrə prosessual hərəkətlərin gedişi və nəticələrinin protokollaşdırılmasına dair qanunvericiliyin tələblərinin pozulması kütləvi xarakter almış, məhkəmə iclasları protokollarının hazırlanması uzun müddət ərzində təmin edilməmiş və ya onlar imzalanmamışdır. Bunun nəticəsində maraqlı şəxslərin məhkəmə iclas protokolları ilə tanış olmaq, onlara dair yazılı qeydlər vermək hüquqları kobud şəkildə pozulmuşdur. Belə ki, bir sıra (60/14, 93/14, 106/14, 120/14, 141/14, 155/14, 162/14, 169/14, 175/14, 182/14, 196/1, 210/14, 224/14 və 277/14 nömrəli) cinayət işləri üzrə yekun qərarlar (19 mart 2014, 12 mart 2014, 28 mart 2014, 02 aprel 2014, 09 aprel 2014, 11 aprel 2014, 16 aprel 2014, 25 aprel 2014, 07 may 2014, 21 may 2014, 16 iyul 2014 və 23 iyul 2014-cü il tarixli ittiham hökmləri) çıxarılmasına baxmayaraq, ötən 1-5 aya kimi müddət ərzində hazırlıq iclaslarının və məhkəmə baxışlarının çoxsaylı iclas protokolları hakim və məhkəmə iclas katibi tərəfindən imzalanmamışdır.

Hakim E.Nuriyevin sədrliyi ilə hökmün icrası qaydasında baxılmış 20 (106/14, 107/14, 108/14, 109/14, 110/14, 2607/13, 2606/13, 2620/13, 2618/13, 2617/13, 2615/13, 2614/13, 2613/13, 2611/13, 2624/13, 2623/13, 2625/13, 2626/13, 2622/13, 2517/13 nömrəli) material üzrə məhkəmə iclas protokollarının tərtib edilməsinə dair qanunvericiliyin tələblərinin pozulmasına yol verilmişdir. Nəticədə, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 4-cü (məhkəmələrdə işlərə baxılması), CPM-in 51-ci (cinayət təqibi üzrə prosessual hərəkətlərin gedişinin və nəticələrinin protokollaşdırılması-

nın məcburiliyi) və 134.1-ci (məhkəmə iclasının protokolları) maddələrinin tələbləri kobudcasına pozulmuşdur.

Məhkəmə iclas protokollarının tərtibində yol verilmiş nöqsanların səbəblərindən biri də hakim E.Nuriyev tərəfindən heç bir qanuni əsas olmadan məhkəmədə böyük mütəxəssis (makinaçı-operator) işləyən şəxsin məhkəmə iclas katibi vəzifələrini yerinə yetirməyə cəlb edilməsi olmuşdur. Məsələn, məhkəmədə böyük mütəxəssis (makinaçı-operator) işləyən G.Məmmədova məhkəmə iclası protokolunun aparılmasına səlahiyyət verilmədən (müvafiq müqavilə və ya əmr olmadan) makinaçı-operator işi ilə yanaşı, çoxsaylı (224/14, 141/14, 155/14, 169/14, 120/14, 106/14, 182/14, 277/14, 210/14, 60/14, 93/14, 162/14, 175/14, 196/14 nömrəli və digər) cinayət işləri üzrə məhkəmə iclasının katibinə aid olan vəzifələri yerinə yetirmiş, nəticədə CPM-in 98-ci (məhkəmə iclasının katibi) maddəsinin tələbləri pozulmuşdur.

Hakim E.Nuriyev hökmün icraya yönəldilməsi zamanı qanunvericiliyin tələblərini pozmuş və onların icrasına nəzarət olunmasına biganə münasibət bəsləmişdir. Məsələn, onun sədrliyi ilə baxılmış məhkum K.Salmanovanın barəsində 162/14, məhkum Ə.İsgəndərovun barəsində 155/14 nömrəli cinayət işləri üzrə CPM-in 506.0.1-ci maddəsinin tələbləri pozularaq çıxarılmış hökmlər qanuni qüvvəyə mindikdən müvafiq olaraq 13 və 17 gün sonra gecikdirilməklə icraya yönəldilmişdir.

Onun sədrliyi ilə baxılmış bir sıra işlər üzrə nəqliyyat vasitəsini idarə etmə hüququndan məhrum etmə növündə cəzanın icraya yönəldilməsi zamanı qanunvericiliyin tələblərinə heç də həmişə əməl edilməmişdir. Məsələn, Cəzaların İcrası Məcəlləsinin 154.1-ci maddəsinin tələbləri pozularaq 460/13 nömrəli cinayət işi üzrə nəqliyyat vasitəsini idarə etmək hüququndan məhrum edilmə növündə cəzanın icrası aidiyyəti üzrə cəzanı icra edən orqana düzgün göndərilməmişdir.

Maddi normaların düzgün tətbiq edilməməsinin və buraxılmış prosessual pozuntuların nəticəsidir ki, hakim E.Nuriyevin sədrliyi ilə mülki və cinayət icraatları üzrə çıxarılmış bir çox məhkəmə aktları Bakı Apellyasiya Məhkəməsi tərəfindən ləğv olunmuşdur.

Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında müraciətlərə baxılması zamanı hakim Elnur Nuriyev tərəfindən qanunvericiliyin tələblərinə dəqiq əməl edilməmişdir. Bir çox işlər üzrə cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi ilə bağlı məhkəmənin gəldiyi nəticələr işin faktiki hallarına uyğun olmadığına görə hakim E.Nuriyevin hökmün icrası qaydasında çıxardığı qərarlar apellyasiya instansiyası məhkəməsi tərəfindən əsassız sayılaraq ləğv edilmişdir. Məsələn, onun sədrliyi ilə hökmün

icrası qaydasında 2522/13, 35/14, 104/14, 140/14 və 321/14 nömrəli materiallar üzrə məhkum R.Mehdiyev, C.Əliheydərov, N.Fərzəliyev, M.Salmanzadə və R.Musayev barəsində çıxarılmış 29.11.2013, 10.02.2014, 28.02.2014, 17.03.2014 və 08.05.2014-cü il tarixli qərarlar Bakı Apellyasiya Məhkəməsinin müvafiq olaraq 23.01.2014, 31.03.2014, 24.04.2014, 26.05.2014 və19.06.2014-cü il tarixli qərarları ilə ləğv edilmişdir.

Yuxarıda qeyd edilən hərəkətləri ilə hakim E.Nuriyev Azərbaycan Respublikası Konstitusiyasının 60-cı (hüquq və azadlıqların məhkəmə təminatı) və 127-ci (ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri), "Məhkəmələr və hakimlər haqqında" Qanunun 4-cü (məhkəmələrdə işlərə baxılması) və 99-cu (hakimlərin vəzifələri) maddələrinin, həmçinin prosessual qanunvericiliyin müvafiq müddəalarının tələblərini kobud pozmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 12 may 2015-ci il tarixli qərarından görünür ki, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi İntizar Bayramova işə baxarkən kobud qanun pozuntularına yol vermiş, iki müstəqil işi əsassız olaraq birləşdirmiş, hər iki işdə qeyri-müəyyənlik yaratmış, nəticədə məhkəmədə olan işlərə bir ildən artıq müddətdə mahiyyəti üzrə baxılmayaraq, vətəndaşın ağlabatan müddətdə ədalətli məhkəmə araşdırılması hüququ pozulmuş, iş üzrə məhkəmə iclas protokolu nə hakim, nə məhkəmə iclas katibi tərəfindən imzalanmamışdır. Belə ki, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2-1(82)-2311/2014 nömrəli, 06 may 2014-cü il tarixli qərardadı ilə iddiaçı S.Jestkovun cavabdehlər Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə və qeyrilərinə qarşı 17 il ərzində verilməmiş sanatoriya-kurort putyovkaları əvəzinə pul kompensasiyasının ödənilməsi və bunun nəticəsində vurulmuş mənəvi ziyana görə pul tələbi, işə bərpa, məcburiyyət üzündən işə çıxmamağa görə əmək haqqının ödənilməsi, vurulmuş mənəvi ziyana görə kompensasiyanın verilməsi barədə inzibati işdən işə bərpa, işdən azad olunma ilə əlaqədar kompensasiya və əmək haqqının ödənilməsi, mənəvi ziyana görə pul tələbinə dair iddia ayrılaraq aidiyyəti üzrə baxılması üçün 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə göndərilmişdir.

Həmin məhkəmənin 13.05.2014-cü il tarixli, 2-1(82)-2311/2014 nömrəli qərardadı ilə 06 may 2014-cü il tarixli qərardadda aşkar yazı səhvlərinin düzəldilməsi və qərardadın nəticə hissəsinin "iddia ayrılaraq Bakı şəhəri Səbail Rayon Məhkəməsinə göndərilsin" kimi yazılması qərara alınmışdır.

İddiaçı 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2-1(82)-2311/2014 nömrəli, 06 may 2014-cü il tarixli qərardadından apellyasiya şikayəti verə-

rək həmin qərardadın ləğv edilməsini, hakim İntizar Bayramova tərəfindən 17.10.2013-cü il tarixdə səhvən birləşdirilmiş 2-1(82)2289/2013 və 2-1(82)2290/203 nömrəli işlərin ayrılmasını və səhvən həmin işlərin birləşdirilməsi nəticəsində Sabunçu Rayon Məhkəməsi tərəfindən dayandırılmış 2-1(82)2290/2013 nömrəli iş üzrə prosesin bərpa edilməsini xahiş etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının 31 iyul 2014-cü il tarixli qərardadı ilə apellyasiya şikayəti qismən təmin edilmiş, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 2-1(82)-2311/14 saylı, 06 may 2014-cü il tarixli (13.05.2014-cü il tarixli qərardadla düzəliş edilmiş) qərardadı ləğv edilərək, iddiaçı Jestkov Sergey Mixayloviçin cavabdeh Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə qarşı 17 il ərzində verilməmiş sanatoriya-kurort putyovkaları əvəzinə pul kompensasiyasının ödənilməsi tələbi üzrə 2-1(82)-2289/2013 (hazırda 2-1(82)-2311/14 saylı) saylı işdən ayrılaraq baxılması üçün Səbail Rayon Məhkəməsinə göndərilən işə bərpa, işdən azad olunma ilə əlaqədar kompensasiya və əmək haqqının ödənilməsi, mənəvi ziyana görə pul tələbləri üzrə ayrılmış icraata xitam verilmişdir.

Məhkəmə baxışı zamanı müəyyən olunmuşdur ki, həmin işə 2 saylı Bakı İnzibat-İqtisadi Məhkəməsinin hakimi İ.Bayramovanın sədrliyi ilə baxılarkən kobud qanun pozuntularına yol verilmişdir. Belə ki, iş materiallarından məlum olmuşdur ki, S.Jestkov 08 iyul 2013-cü il tarixdə 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə iki iddia ərizəsi ilə müraciət etmişdir. Həmin iddialardan 17 il ərzində verilməmiş sanatoriya-kurort putyovkaları əvəzinə pul kompensasiyasının ödənilməsi və mənəvi ziyan tələbinə dair 2-1(82)-2289/2013 nömrəli iş 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin hakimi İ.Bayramovanın icraatına, işə bərpa, işdən qanunsuz çıxarılmaya görə pul kompensasiyası və əmək haqqının ödənilməsi tələblərinə dair 2-1(82)-2290/2013 nömrəli iş həmin məhkəmənin hakimi Miminat Hacıbəyovanın icraatına verilmişdir.

Hakim İ.Bayramova 17.10.2013-cü il tarixdə qərardad qəbul edərək cavabdeh Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu rayon şöbəsini əsl cavabdeh Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə əvəz edərək işi aidiyyəti üzrə baxılması üçün Bakı şəhəri Səbail Rayon Məhkəməsinə göndərilməsi qərarına gəlmiş, bir gün sonra isə 18.10.2013-cü il tarixli qərardad qəbul edərək 2-1(82)-2289/2013 nömrəli işlə hakim Miminat Hacıbəyovanın icraatında olan 2-1(82)-2290/2013 nömrəli işi bir icraatda birləşdirmişdir.

Lakin birləşmə qərardadı icrasız qalaraq bu iki iş faktiki olaraq birləşdirilməmiş, 2-1(82)-2290/2013 nömrəli işə hakim M.Hacıbəyova tərəfindən baxılması davam etdirilmiş, 08.11.2013-cü il tarixli qərardadla həmin iş aidiyyəti üzrə baxılması üçün Sabunçu Rayon Məhkəməsinə göndərilmişdir.

2-1(82)-2289/2013 nömrəli iş isə 17 il ərzində verilməmiş sanatoriya-kurort putyovkaları əvəzinə pul kompensasiyasının ödənilməsi və mənəvi ziyan, işə bərpa, işdən qanunsuz çıxarılmaya görə pul kompensasiyası və əmək haqqının ödənilməsi tələblərindən ibarət iş kimi 11.02.2014-cü il tarixli məktubla baxılması üçün Səbail Rayon Məhkəməsinə göndərilmiş, lakin həmin məhkəmə məhkəmə aidiyyətini Bakı Apellyasiya Məhkəməsində mübahisələndirmişdir.

Bakı Apellyasiya Məhkəməsinin mülki kollegiyasının 27.03.2014-cü il tarixli qərardadı ilə müəyyən edilmişdir ki, iddiaçı həmin iddiaları ayrılıqda məhkəməyə təqdim etmiş, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində isə həmin iddialar heç bir əsas və lüzum olmadığı halda birləşdirilmiş, halbuki iddialardan biri inzibati məhkəmə icraatı qaydasında, digəri isə mülki icraat qaydasında baxılmalı olduğundan bu iddiaların birləşdirilərək bir icraatda baxılması həm qanunvericiliyin tələbləri, həm də prossesual cəhətdən məqsədəuyğun olmamışdır. Həmçinin 17 il ərzində verilməmiş sanatoriya-kurort putyovkaları əvəzinə pul kompensasiyasının ödənilməsi və mənəvi ziyan barədə iddianın cavabdeh Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerləşdiyi ərazi üzrə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə aid olduğu müəyyən edilmişdir. Buna görə də mülki iş mübahisələrin predmet və ərazi aidiyyətinin müəyyənləşdirilməsi və iddia ərizələrinin baxılmaq üçün müvafiq səlahiyyətli məhkəməyə göndərilməsi üçün 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə qaytarılmışdır.

Lakin iş materiallarından göründüyü kimi hakim İ.Bayramova apellyasiya instansiya məhkəməsinin qərardadının göstərişlərini düzgün icra etməyərək və iddiaçının çoxsaylı şikayətlərinə baxmayaraq, səhvi düzəltmək əvəzinə yalnız qərardad üzərində birləşdirilmiş olan, faktiki olaraq isə artıq Sabunçu Rayon Məhkəməsində baxılan iddiaçının işə bərpa, işdən qanunsuz çıxarılmağa görə pul kompensasiyası və əmək haqqının ödənilməsi barədə tələblərini 06.05.2014-cü il tarixli qərardadla yenidən ayrıca icraata ayırmış və yenidən baxılması üçün Səbail Rayon Məhkəməsinə (13.05.2013-cü il tarixli düzəliş qərardadına əsasən) göndərmişdir. Digər tələbi isə 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə göndərmək əvəzinə baxmaqda davam etmişdir.

Beləliklə, hakim İ.Bayramova işə baxılarkən kobud prossesual qanun pozuntularına yol verərək, mübahisə predmetinə aid olmayan, ayrıca məhkəmə icraatlarında baxılmalı olan iki müstəqil işi əsassız olaraq birləşdirmiş, sonradan isə onları təkrar ayıraraq artıq Sabunçu Rayon Məhkəməsinin icraatında olan iddia tələblərini baxılması üçün Səbail Rayon Məhkəməsinə göndərməklə, hər iki işdə qeyri-müəyyənlik yaratmış, bu qeyri-müəyyənlik iddiaçının hər iki iddiasına bir ildən artıq müddətdə mahiyyəti üzrə baxılmamasına gətirib çıxarmış, bu süründürməçilik iddiaçının haqlı narazılığına səbəb olmaqla, onun ağlabatan müddətdə ədalətli məhkəmə araşdırması hüququnu pozmuş, iddiaçının sanatoriya-kurort putyovkaları əvəzinə pul kompensasiyasının ödənilməsi tələbinə dair işin 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində baxılmalı olması barədə apellyasiya instansiya məhkəməsinin göstərişlərini yerinə yetirməyərək, həmin tələbləri icraatında saxlamaqla, hakim aidiyyət qaydalarını pozmuş, həmçinin 06.05.2013-cü il tarixli məhkəmə iclasını tərəfləri məhkəmə iclası barədə lazımi qaydada məlumatlandırmadan keçirmiş, həmin iclasın məhkəmə iclas protokolu nə hakim, nə də məhkəmə iclas katibi tərəfindən imzalanmamış, məhkəmə qərardadları vaxtında tərəflərə göndərilməmiş, ayrılmış tələblər üzrə hazırkı iş materialı Təlimatın tələbləri pozulmaqla xronoloji ardıcıllığa riayət edilmədən tikilmişdir və s.

AR İPM-in 1.2-ci maddəsinə görə, bu Məcəllə ilə başqa qayda müəyyən edilmədiyi və bu Məcəllə ilə nəzərdə tutulmuş prosessual prinsiplərə zidd olmadığı hallarda, inzibati mübahisələrə dair işlər üzrə məhkəmə icraatında (bundan sonra - inzibati məhkəmə icraatı) Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin müddəaları tətbiq oluna bilər.

AR MPM-in 387-ci maddəsinin tələblərinə əsasən işə, işdə iştirak edən şəxslərdən məhkəmə iclasının vaxtı və yeri haqqında lazımi qaydada xəbərdar edilməmiş hər hansı birinin iştirakı olmadan məhkəmə tərəfindən baxılması, işdə məhkəmə iclasının protokolunun imzalanmaması birinci instansiya məhkəməsi tərəfindən prosessual normaların kobud pozulması kimi qiymətləndirilir.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 12 may 2015-ci il tarixli qərarından görünür ki, Gəncə Apellyasiya Məhkəməsi cinayət işinə baxarkən qanunvericiliyin tələblərinin kobud pozuntularına yol verdiyinə görə Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Mübariz Məmmədov haqqında 22 aprel 2004-cü il tarixdə xüsusi qərar çıxarmışdır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 28 dekabr 2013-cü il tarixli hökmünə əsasən Asəf Araz oğlu

Ələkbərov AR CM-in 29, 120.1-ci maddəsi ilə təqsirli bilinib, cəzasını ümumi rejimli tərbiyə müəssisəsində çəkməklə, 5 (beş) il 7 (yeddi) ay 15 (on beş) gün müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Həmin hökmdən verilmiş apellyasiya şikayətinə və apellyasiya protestinə baxan Gəncə Apellyasiya Məhkəməsinin cinayət kollegiyası tərəfindən 22 aprel 2014-cü ildə apellyasiya şikayəti təmin edilməmiş, apellyasiya protesti qismən təmin olunmuş, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 28 dekabr 2013-cü il tarixli hökmü ləğv edilmiş və iş üzrə yeni hökm çıxarılmaqla Ələkbərov Asəf Araz oğlu AR CM-in 29, 120.1-ci maddəsi ilə təqsirli bilinib 7 (yeddi) il 6 (altı) ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir.

Hökmə əsasən Ələkbərov Asəf Araz oğlu Əkbərov Kamil İmran oğlunu qəsdən öldürməyə, yəni şəxsi qəsdən həyatdan məhrum etməyə cəhd etməyə görə məhkum olunmuşdur. Belə ki, A.Ələkbərov həmkəndlisi Surxayzadə Süleyman Elman oğlundan 27 mart 1998-ci ildə anadan olmuş, Ağdam rayonunun Soltanmud kənd orta məktəbinin 9-cu sinfini bitirmiş bacısı Ələkbərova Nuranə Araz qızına onunla bir sinifdə oxuyan Əkbərov Kamil İmran oğlunun onu sevməsi barədə xəbər göndərməsini eşidib, bunu özünə, ailəsinə və bacısına qarşı alçaldıcı hərəkət kimi qəbul edərək, 19 iyul 2013-cü ildə saat 16 radələrində Əkbərov Kamil İmran oğlu ilə bununla bağlı söhbət etmək üçün onu evlərindən çağırıb Ağdam rayonunun Çullu kəndindəki "Qaynama bulağı"nın yaxınlığına apararaq, orada onunla bacısına göndərdiyi xəbərlə bağlı söhbət zamanı mübahisə edib, onu qisas almaq niyyəti ilə qəsdən öldürmək qərarına gəlmiş, bu məqsədlə əvvəlcə təpiklə Əkbərov Kamil İmran oğlunun sifət nahiyyəsindən vuraraq sağ gözaltı nahiyyənin hematoması, burun nahiyyəsinin əzilməsi-qançırı ilə müşayiət olunan, sağlamlığa zərər vurmadığından dərəcələri təyin edilməyən, sonra isə üzərində gəzdirdiyi və zavod üsulu ilə hazırlanmış, bir tərəfi kəsici ucu batıcı xassəyə malik cib bıçağı ilə sonuncunun döş qəfəsinin sol yarısından bir dəfə qəsdən vuraraq sol tərəfli hemotroaksla müşayət olunan döş qəfəsi nahiyyəsinin sol yarısının ön divarının döş boşluğuna nüfuz edən kəsilmiş-deşilmiş yarası ilə müşayət olunan, dərəcəsinə görə həyat üçün təhlükəli olan sağlamlığa ağır zərər vuran xəsarətlər yetirmiş, lakin hadisədən dərhal sonra həyat üçün vacib orqan olan ürək nahiyyəsindən ağır dərəcəli bədən xəsarəti almış Əkbərov Kamil İmran oğlu Ağdam rayon mərkəzi xəstəxanasına çatdırılaraq vaxtında göstərilmiş ixtisaslı tibbi yardım nəticəsində həyatını xilas etmək mümkün olduğundan Ələkbərov Asəf Araz oğlu bilavasitə öz iradəsindən asılı olmayan qeyd olunan səbəblərdən Əkbərov

Kamil İmran oğlunu qəsdən öldürmək kimi cinayət əməlini başa çatdıra bilməmişdir.

Gəncə Apellyasiya Məhkəməsinin cinayət kollegiyası işə baxarkən müəyyən etmişdir ki, birinci instansiya məhkəməsində işə baxan məhkəmə tərkibinə sədrlik edən hakim Məmmədov Mübariz Sərxoş oğlu tərəfindən hazırkı cinayət işinə baxılarkən cinayət və cinayət-prosessual qanunvericiliyinin tələbləri kobud şəkildə pozulmuşdur. Belə ki, cinayət işinin materiallarında olan hökmə görə birinci instansiya məhkəməsi təqsirləndirilən A.Ələkbərova cəza təyini zamanı ona təyin edilə biləcək cəzanın yuxarı həddinin dörddə üçünün dörddə üçü həddində, yəni təqsirli bilindiyi maddənin aşağı həddindən də aşağı, yəni 5 (beş) il 7 (yeddi) ay 15 (on beş) gün müddətinə azadlıqdan məhrum etmə cəzası təyin etmişdir. Məhkəmə təyin etdiyi cəzanı təqsirləndirilən A.Ələkbərovun cinayət əməlini törədərkən yetkinlik yaşına çatmaması və cinayət əməlini törətdikdən sonra könüllü gəlib təqsirini boynuna alması ilə əsaslandırmışdır.

Lakin məhkəmə kollegiyası apellyasiya baxışında iş üzrə yeni hökm çıxararkən təqsirləndirilən A.Ələkbərovun könüllü gəlib təqsirini boynuna almasının sübuta yetirilməməsi nəticəsinə gəlmişdir.

Bununla yanaşı, cinayət işinin apellyasiya baxışında dövlət ittihamçısı məhkəmə kollegiyasına cinayət işinin materiallarındakı hökm ilə uyğun gəlməyən, tam fərqli olan hökm surətini təqdim etmişdir. Həmin hökmün surəti hakim Mübariz Məmmədov tərəfindən imzalanmış və məhkəmənin möhürü ilə təsdiq edilmişdir.

Məhkəmə kollegiyasına təqdim olunmuş hökmün surətində işə baxan birinci instansiya məhkəməsinin özü də təqsirləndirilən A.Ələkbərovun könüllü gəlib təqsirini boynuna alması xüsusatını iş materiallarında olan sübutlara əsaslanmaqla təkzib etmişdir.

Məhkəmənin hökmü Azərbaycan Respublikasının adından çıxarılır. Məhkəmənin hökmü qanuni və əsaslı olmalıdır. Məhkəmənin hökmü Azərbaycan Respublikası Konstitusiyasının, bu Məcəllənin, Azərbaycan Respublikasının cinayət və digər qanunlarının tələblərinə riayət edilməklə çıxarıldıqda qanuni hesab edilir. (Azərbaycan Respublikasının Konstitusiyasının (bundan sonra, Konstitusiya) 129-cu maddəsinin I hissəsi və AR CPM-in 349-cu maddəsi)

Məhkəmənin gəldiyi nəticələr yalnız məhkəmə istintaqında tədqiq edilmiş sübutlara əsaslandıqda; bu sübutlar ittihamın qiymətləndirilməsi üçün kifayət etdikdə; məhkəmənin müəyyən etdiyi hallar onun tədqiq etdiyi

sübutlara uyğun gəldikdə məhkəmənin hökmü əsaslı hesab edilir. (AR CPM-in 349.5-ci maddəsi)

Bir iş üzrə Dövlətin adından çıxarılan məhkəmə hökmündə eyni xüsusata bir-biri ilə tamamilə ziddiyyətli iki mövqe nümayiş etdirmişdir. Bununla da kobud qanun pozuntusuna yol vermişdir.

Cinayət işinin materiallarından da görünür ki, hakim Məmmədov Mübariz Sərxoş oğlu 30 dekabr 2013-cü ildə iş materiallarında olmayan hökmün surətini cinayət prosesinin tərəflərinə göndərmişdir.

Sonradan hakim Mübariz Məmmədov cinayət prosesinin tərəflərinə aşağıdakı məzmunda 09 yanvar 2014-cü il tarixli məktublar göndərmişdir:

"... hökmün... surətləri tərəflərə göndərilərkən texniki səhv olaraq həmin hökmün kompyuterdə olan layihə variantının surətləri çıxarılıb tərəflərə göndərilmişdir.

Odur ki, Sizə göndərilmiş həmin hökmün surəti etibarsız hesab edilməli, hökmün hazırda göndəriləcək surəti isə əsas kimi qəbul edilməlidir."

AR CPM-in 343.1-ci maddəsi məhkəmənin yekun qərarının layihə variantını hazırlayaraq məhkəməyə təqdim edəcək şəxslərin dairəsini müəyyənləşdirmişdir. Həmin maddənin tələbinə görə məhkəmə müşavirə otağına gedənədək yalnız cinayət prosesinin tərəfləri məhkəmə baxışının nəticələri əsasında yekun məhkəmə qərarının layihəsinin variantını məhkəməyə təqdim edə bilərlər.

Birinci instansiya məhkəməsində cinayət prosesi tərəflərindən hansısa birinin məhkəmənin yekun qərarının layihə variantını məhkəməyə təqdim etməsinə dair cinayət işinin materiallarında heç bir məlumat yoxdur.

Belə olan halda, hakim Mübariz Məmmədovun məktublarında hökmün kompüterdə olan layihə variantı dedikdə nəyi nəzərdə tutması aydın deyildir.

Bir iş üzrə bir-birindən tamamilə fərqli iki yekun qərarın olması yolverilməzdir və cəmiyyətdə ədalət mühakiməsinin nüfuzuna və hakimin yüksək adına zərər vuran, onu qınaq obyektinə çevirən hərəkətdir. Bu, məhkəmə hakimiyyətinin ədalət mühakiməsini həyata keçirən hakimin qanunlara və onun üzərinə qoyulan vəzifələrinə biganəliyindən, işinə məsuliyyətlə yanaşmamasından irəli gəlir.

"Məhkəmələr və hakimlər haqqında" Qanunun 99-cu maddəsinə əsasən hakimlərin üzərinə ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və ləyaqətinə xələl gətirən hər hansı hərəkətdən çəkinmək; ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dəqiq və dönmədən

əməl etmək, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etmək, ədalətli və qərəzsiz olmaq kimi mühüm vəzifələr qoyulmuşdur.

Bundan başqa, hakim Mübariz Məmmədov cinayət-prosessual hərəkətləri, yəni məktublarıyla hökmün əsli ilə uyğun gəlməyən surətlərinin etibarsız hesab edilməsini cinayət prosesi tərəflərinə bildirmişdir.

Nəzərə almaq lazımdır ki, hökmün surəti qanun qüvvəli, icrası məcburi olan məhkəmə aktı rəsmi sənəddir (Təlimatın 9.3-cü bəndi). Məhkəmə kollegiyası hakim tərəfindən hüquqi termin kimi etibarsız terminin yerində işlədilməməsini haqlı olaraq ciddi nöqsan hesab etmişdir. Belə ki, rəsmi sənədin, qanun qüvvəli məhkəmə aktının etibarsız hesab edilməsinin bir məktubla nizamlanması yol verilməzdir. Qanun qüvvəli məhkəmə aktının etibarsızlığı qanunvericilikdə nəzərdə tutulan qaydada həyata keçirilməlidir.

Bundan başqa, baxılan cinayət işi üzrə hökm çıxarılarkən cinayət qanunun norması da işə tikilən hökmdə düzgün şərh edilmədiyindən, bu normanın, yəni AR CM-in 59.1.10 və 60-cı maddələrinin tətbiqində səhvə yol verilmişdir. Bu da cinayət əməlində təqsirli olan şəxsə qanunda nəzərdə tutulan həddən də aşağı, işin faktiki hallarına, cinayətin xarakterinə, ictimai təhlükəlilik dərəcəsinə və təqsirkarın şəxsiyyətinə uyğun olmayan yüngül cəza verilməsi ilə nəticələnmişdir.

Beləliklə, cinayət işi üzrə yol verilən ciddi pozuntular səbəbindən apellyasiya baxışının nəticəsi olaraq iş üzrə birinci instansiya məhkəməsinin hökmü ləğv edilməklə yeni hökm çıxarılmışdır.

Bundan başqa, birinci instansiya məhkəməsi hökmündə iş üzrə maddi sübutların taleyini düzgün həll etməmişdir. Bu hal apellyasiya protesti əsasında birinci instansiya məhkəməsinə məlum olduqdan sonra 24 yanvar 2014-cü il tarixdə məsələyə hökmün icrası qaydasında baxılaraq hökmdə olan anlaşılmazlığın aradan qaldırması barədə qərar qəbul edilmiş, bununla da cinayət prosessual qanunun tələbləri pozulmuşdur. Birinci instansiya məhkəməsinin həmin qərarı da apellyasiya instansiyası məhkəməsi tərəfindən ləğv edilmişdir.

A.Ələkbərovun AR CM-in 29,120.1-ci maddəsilə məhkum olunmasına dair cinayət işi üzrə Gəncə Apellyasiya Məhkəməsi cinayət kollegiyasının 22 aprel 2014-cü il tarixli hökmündən məhkumun müdafiəçisi tərəfindən verilmiş kassasiya şikayəti Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının 7 yanvar 2015-ci il tarixli qərarı ilə qismən təmin edilmiş, məhkumun əməli AR CM-in 29, 120.1-ci maddəsindən həmin məcəllənin 126.1-ci maddəsinə tövsif edilərək işdə cəzanı ağırlaşdıran halın olmaması və cəzanı yüngülləşdirən halların olması nəzərə alınaraq

A.Ələkbərova altı il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmişdir, eyni zamanda apellyasiya instansiyası məhkəməsinin işdə könüllü gəlmənin olmaması barədə gəldiyi nəticə əsaslı hesab olunmuşdur.

Beləliklə, Məhkəmə-Hüquq Şurasının təhlil edilən qərarlarında sözügedən pozuntular maddi və prosessual hüquq normalarının pozulmasında ifadə edilmişdir.

Hesab edirik ki, Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi qərarların, həmin qərarlarda intizam məsuliyyətinə səbəb olan əsaslar kimi müəyyən edilən halların öyrənilməsi faydalı olacaq.

Ümid edirik ki, muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən işlərə baxılması zamanı belə hallara yol verilməyəcəkdir.

≈≈≈



# AZAD TRİBUNA

**Qarayev Sənan Məmməd oğlu**
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin hakimi*

## Avropa Məhkəməsinin presedentləri və milli qanunvericilik müstəvisində "cinayət törətməyə təhrik etmə" ("provakasiya") və əməliyyat-axtarış tədbiri kimi "nəzarət qaydasında mal alınması" institutlarına dair mülahizələr

Məqalədə "cinayət törətməyə təhrik etmə" ("provakasiya") institutunu Avropa Məhkəməsinin presedent təcrübəsi əsasında təhlil etməyi, milli qanunvericilik müstəvisində əməliyyat-axtarış tədbiri kimi "nəzarət qaydasında mal alınması" institutunun mahiyyətini şərh etməyi, sözügedən institutlar arasındakı fərqləri diqqətə çatdırmağı və təcrübədə bəzən bu iki anlayışın qarışdırılmasına dair fikirlərimizi oxucularla bölüşməyi qarşıya məqsəd qoymuşuq.

Hər şeydən əvvəl qeyd edək ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – AR CPM) 33-cü maddəsində təsbit olunmuşdur ki, "Hakimlər cinayət-mühakimə icraatının həyata keçirilməsində cinayət işi üzrə toplanmış sübutları bu Məcəllənin tələblərinə əsasən qiymətləndirirlər" *(birinci hissə)*. "Cinayət mühakimə icraatı həyata keçirilərkən CPM-in 125, 144, 146-cı maddələrinin müddəalarının pozulması yolverilməzdir" *(ikinci hissə)*.

AR CPM-in 125.1 və 125.2.1-ci maddəsindən belə nəticəyə gələ bilərik ki, insan və vətəndaşların konstitusiya hüquqlarının və azadlıqlarının, yaxud bu Məcəllənin digər tələblərinin pozulması ilə cinayət prosesi iştirakçılarının qanunla təminat verilən hüquqlarından məhrum etmə və onları məhdudlaşdırmaqla bu sübutların həqiqiliyinə **hər hansı yolla təsir göstərəcəyi və göstərə biləcəyi halda** əldə edilmiş məlumatların, sənədlərin və digər əşyaların cinayət işi üzrə sübut kimi qəbul edilməsinə yol verilmir.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsində nəzərdə tutulmuşdur ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir və Konstitusiyanın 151-ci maddəsinə əsasən Azərbaycan

Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyətlər yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Konstitusiyanın 12-ci maddəsinin ikinci hissəsinə əsasən Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

"İnsan hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Konvensiya Azərbaycan Respublikasının tərəfdar çıxdığı və bu səbəbdən Konstitusiyanın 12, 148, 151-ci maddələrinə əsasən Konvensiyanın müddəalarına müvafiq surətdə tətbiq edilməli olan dövlətlərarası beynəlxalq müqavilədir.

Konvensiyanın 19 və 32-ci maddələrinə əsasən İnsan Hüquqları üzrə Avropa Məhkəməsi dövlətlərin Konvensiya və ona dair Protokollarla üzərinə götürdükləri öhdəliklərə riayət olunmasını təmin edir, o cümlədən Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhi və tətbiqi üzrə məsələləri həll edir.

Sözügedən normalar konkret işlərə baxılması zamanı insan hüquq və azadlıqlarına dair məsələlərlə əlaqədar milli hüquq normalarını təfsir edərkən məhkəmələrdən Avropa Məhkəməsinin mövqeyini nəzərə almağı tələb etdiyi kimi, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu da bunu ədalət mühakiməsinin həyata keçirilməsi üzrə məhkəmə fəaliyyətinin mühüm aspekti kimi görür. Belə ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Presedentlərinin tətbiqi haqqında" 30 mart 2006-cı il tarixli 5 saylı qərarında məhkəmələrə milli qanunvericiliklə yanaşı, Avropa Konvensiyasının müddəlarını rəhbər tutmağı və bu zaman İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinə istinad etməyi tövsiyə etmişdir (qərarın 2-ci bəndi).

Bu nöqteyi-nəzərdən "cinayət törətməyə təhrik etmə" institutuna Avropa Məhkəməsinin mövqeyini nəzərə almaqla toxunmaq məqsədəmüvafiq olar.

İlk olaraq qeyd edək ki, "cinayət törətməyə təhrik etmə" ("provakasiya") termini kimi "təhrikedici agent", "təhrikçi agent" ifadələri də işlədilir. Burada təhrikçilik dedikdə, cinayətin törədilməsində birbaşa marağın olmamasına baxmayaraq, kiminsə tutulması üçün onu cinayəti etməyə sövq etmə başa düşülür. Bu üsulu istintaq orqanları müəyyən hallarda tətbiq edirlər. Xüsusilə bu üsul narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər törət-

məyi özünə peşə seçmiş şəxslərin cinayət başında yaxalanması məqsədilə tətbiq olunur ki, bu da bir sıra hallarda şəxsin cinayəti etməyə təhrik edilməsi kimi qiymətləndirilə bilir.

Provakasiya metodu yüz illərdən bəri tətbiq olunmaqdadır. Sözügedən metod bütün dövrlərdə müxtəlif aspektlərdən tənqid atəşinə tutulsa da, o, hər zaman ayrı-ayrı dövlətlərin istintaq orqanları tərəfindən tətbiq edilən ən güclü "silah" kimi "yaşamaqdadır". Hətta bəzi dövlətlərdə bu metod nəinki polisin son çarə kimi baş vurduğu vasitə, əksinə polis taktikası baxımından məqsədə uyğun şəkildə tətbiq edilən gündəlik tədbirlərdən biridir. Bütün bunlara baxmayaraq, provakasiya institutu keçmişdə olduğu kimi müasir dövrümüzdə də mübahisələndirilən problemlərdən biri olaraq qalmaqdadır.

Qeyd edək ki, provakasiyada məqsəd şəxsin cinayəti törətməsinə dair dəlillər əldə etməkdir. Fikrimizcə, bu zaman toplanılan dəlillər hüquqauyğun olmadığından təqsirsizlik prezumpsiyası da pozulmuş olur.

Hesab edirik ki, təhrikçinin vəzifə səlahiyyətini bəhanə edərək şəxsdə cinayət törətməyə meyl yaratmaq, onu cinayəti törətməyə təhrik etmək və ya cinayəti etməkdə hər hansı digər formada ona təsir etmək hüququ yoxdur. Yalnız şəxsin cinayəti özünün iradəvi fəaliyyəti ilə törədəcəyi məlumdursa, cinayət təqibi orqanının məsul əməkdaşları qanunla yol verilən səlahiyyətlər daxilində ona qarşı müəyyən taktiki tədbirlər həyata keçilər bilərlər.

Provakasiya zamanı cinayət törətməyə marağı və niyyəti olmayan şəxs tələyə salınaraq törətməsi istənilən cinayəti etməyə sövq edilir ki, bu vaxt tətbiq edilən təşviqat tədbirləri nəinki hüquqauyğunluq meyarlarını pozur, hətta sözügedən sövqetmənin özü hüquq pozuntusu hesab edilir.

Avropa Məhkəməsi təhrikçi agentin şəxsi hansı şərtlər daxilində cinayət törətməyə sövq edə biləcəyi və provakasiyanın sərhədlərinin aşılmasının doğurduğu hüquqi nəticələrin nə olacağı məsələsinə bir sıra qərarlarında münasibət bildirmişdir.

***"Teixeria Portuqaliyaya qarşı"*** iş üzrə 09 iyun 1998-ci il tarixli qərarında Avropa Məhkəməsi provakasiya məsələsinə dair mövqeyini açıqlamışdır. Belə ki, həmin işdə rəsmi orqan əməkdaşları narkotik vasitə alğı-satqısında bu maddələri təmin edən şəxsləri ələ keçirmək üçün şərti alıcı cildinə girmişlər. Alış-veriş edilən zaman aralarında ərizəçinin də olduğu bir qrup şəxs tutulmuş, buna görə ərizəçi məsuliyyətə cəlb olunmuş, sonda isə onun barəsində ittiham hökmü çıxarılmışdır.

Ərizəçi polis əməkdaşlarının hüququ olmayan iş gördüklərini, səlahiyyətli şəxslərin təhrikçiliyi ilə cinayət əməlini törətməyini, bundan əvvəl heç bir cinayətə yol verməməyini, bu məsələ ilə bağlı başlanğıcda hər hansı bir

məhkəmə araşdırması və hazırlıq iclası olmadığını, nəticədə ədalətli məhkəmə araşdırması hüququnun pozulduğunu bildirmişdir.

Avropa Məhkəməsi hər şeydən əvvəl bir dəlilin qəbuledilən olub-olmamasının yerli məhkəmələr tərəfindən qiymətləndirilən milli hüquqa aid bir məsələ olduğunu qeyd etmişdir. Məhkəmə daha sonra bildirmişdir ki, Konvensiya şahid ifadələrinin dəyərləndirilib-dəyərləndirilməyəcəyi məsələsi ilə bağlı Məhkəməyə konkret bir səlahiyyəti müəyyən etmək vəzifəsi vermir. Bununla birlikdə, Məhkəmə dəlilin əldə edilmə üsulu da daxil olmaqla bu prosesin ədalətli olub-olmadığını araşdırır.

Məhkəməyə görə narkotik vasitələrin alqı-satqısı ilə mübarizə zamanı gizli agentdən ("undercover agents") istifadə olunması məhdudlaşdırılmalı və bu məsələ ilə bağlı təminatlar nəzərdə tutulmalıdır. Şübhəsiz ki, mütəşəkkil cinayətkarlıq buna uyğun tədbirlər alınmasını tələb edir. Lakin obyektiv və ədalətli sistem fayda vermək məqsədi üçün fəda edilə bilməz. İctimai maraq polis provakasiyası nəticəsində əldə edilən bir dəlildən istifadə olunmasına haqq qazandıra bilməz. Məhkəmə hökumətin polis müdaxiləsinin (provakasiyanın) hakimin göstərişi yaxud hakim tərəfindən verilmiş səlahiyyətlə narkotik vasitə alğı-satqısına qarşı bir əməliyyatın tərkib hissəsi olaraq həyata keçirildiyini iddia etməməsini diqqətə almışdır. Səlahiyyətli şəxslərin ərizəçinin narkotik vasitə alıcısı və ya satıcısı olmasından şübhə etmələri üçün əsaslı bir səbəb də görünməməkdədir. Əksinə ərizəçinin əvvəllər cinayət etməməsi faktı mövcuddur və onun bu işlə bağlı haqqında heç bir hazırlıq araşdırması edilməmişdir. Əslində digər iki şəxsin (polis əməkdaşları) vasitəsi ilə onunla əlaqə yaradılana qədər bu şəxs polis orqanı tərəfindən heç tanınmamışdır. Ərizəçinin evində narkotik vasitə tutulmamışdır.

Səlahiyyətli şəxslər ərizəçinin cinayət əməlini araşdırarkən passiv şəkildə hərəkət etməmiş, özlərinə sərhəd qoymamışlar. Əksinə təhrikedicilik formasında təsir etmişdirlər.

Bu işdə həmçinin milli məhkəmə tərəfindən verilmiş hökmün iki polis məmurunun ifadələrinə əsaslandığı qeyd edilmişdir. Hadisənin bütün təfərrüatı diqqətə alındığında polis məmurlarının hərəkətləri "gizli agent" fəaliyyətinin sərhədlərini aşmaqdadır. Çünki ərizəçini cinayət etməyə təhrik etmişlər. Polislərin müdaxiləsi (provakasiya) olmasaydı, ərizəçi həmin cinayəti törətməyəcəkdi, çünki bunu göstərən heç bir səbəb yox idi. Məhkəmə bu qənaətə gəlmişdir ki, polis müdaxiləsi və provakasiya nəticəsində əldə olunan dəlillərdən ədalət mühakiməsi zamanı istifadə olunması başından etibarən ərizəçinin ədalətli məhkəmə araşdırması hüququnu "əlindən aldığı" üçün Konvensiyanın 6.1-ci maddəsi pozulmuşdur.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı olan cinayətə görə məhkum olunmuş ***“Qriqoriy Arkadyeviç Vanyanın Rusiya Federasiyasına qarşı”*** verdiyi şikayət üzrə 15 dekabr 2005-ci il tarixli qərarında da Avropa Məhkəməsi Vanyanın təqsirli bilinməsi haqqında məhkəmə hökmünə əsasən polisin müdaxiləsi ilə yaradılmış sübutlar vasitəsi ilə əsaslandırılmasını, xüsusilə də məhkəmələrin, o cümlədən işə nəzarət qaydasında baxan Moskva Şəhər Məhkəməsinin Prezidiumunun işdə olan milis təhrik etməsi (provakasiyası) kimi məsələyə əhəmiyyət verməmələrini və bu provakasiyanın ədalətli məhkəmə araşdırmasına təsirini, həmin təsirin nə dərəcədə olmasını araşdırmamalarını Rusiya məhkəmələrinin yol verdikləri ciddi nöqsan kimi qeyd etmişdir (qərarın 40-cı bəndi).

Sözügedən işdə Rusiyanın milis orqanında Q.A.Vanyanın narkotiklərin satışı ilə məşğul olması haqqında məlumat var idi. Bu məlumatın yoxlanılması məqsədi ilə milis Q.A.Vanyandan narkotik vasitə əldə edə biləcək şəxs kimi sonuncunun tanışı O.Z.-ni seçmişdi. O.Z. şərti alıcı kimi istintaq şöbəsi tərəfindən həyata keçirilən əməliyyat axtarış tədbirində iştirak etməyə razılıq vermişdi. Bunun üçün ona 200 rubl pul verilmişdi (məhkəmədə dindirilərkən O.Z. ərizəçinin ifşa edilməsi üçün əməliyyatda könüllü iştirak etdiyini bildirmiş və onun ifadələri polis əməkdaşlarının ifadələrinə analoji olmuşdur).

Milisin nəzarət edə bildiyi şəraitdə O.Z. ərizəçi Vanyanla görüşdükdən sonra Vanyan 400 rubla, o cümlədən O.Z.-nin verdiyi pula S.Z.-dən cəmi 0,318 qram heroin əldə etmiş, bundan 0,008 qramını aldığı 200 manatın müqabilində O.Z.-yə vermiş, qalan 0,31 qramını isə özündə saxlamışdır. O.Z.-nin işarəsi ilə narkotikin ona verilməsindən sonra milis əməkdaşları Vanyanı yaxalamaq istəsələr də o, qaçmışdır. O.Z. ərizəçi Vanyandan aldığı 0,008 qram heroini milisə təqdim etmiş, Vanyandan isə 0,31 qram heroin bir gün sonra o, yaxalanarkən götürülmüşdür.

Lyublin Rayon Məhkəməsi 2 aprel 1999-cu il tarixli hökmü ilə ərizəçini (eləcə də narkotiki ona satan S.Z-ni) RF Cinayət Məcəlləsinin 228-ci maddəsinin 4-cü hissəsi ilə, yəni satış məqsədi ilə külli miqdarda narkotik vasitə əldə etmə və saxlamağa, habelə satmağa görə təqsirli bilib 7 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum etmiş, həmin hökm müdafiə tərəfinin verilmiş kassasiya şikayəti əsasında işə baxan Moskva Şəhər Məhkəməsinin 17 may 1999-cu il tarixli qərarı ilə dəyişdirilmədən saxlanılmışdır.

Birinci instansiya məhkəməsi Vanyanı göstərilən qaydada təqsirli bilərkən hesab etmişdir ki, onun ibtidai istintaq zamanı verdiyi ifadələri şahidlərin ifadələri, ekspert rəyləri və sənədlərlə təsdiq olunur. Rayon məhkəmə-

sinin qənaətinə görə bütün sübutlar qanuni yolla əldə edilmiş və məhkumun hüquqları ibtidai istintaq mərhələsində təmin edilmişdir.

RF Ali Məhkəməsinin sədr müavininin protesti əsasında işə nəzarət qaydasında baxan Moskva Şəhər Məhkəməsinin Prezidiumu 16 noyabr 2000-ci il tarixli qərarı ilə Vanyanın narkotik vasitənin qanunsuz dövriyyəsi üzrə cinayətdə satıcı S.Z.-nin deyil, alıcı O.Z.-nin maraqları naminə, məhz sonuncu ilə əlbirliklə iştirak etdiyini, eləcə də onun özündən götürülmüş heroini də şəxsi istehlakı üçün əldə edib saxladığını nəzərə alaraq onun əməlini RF CM-in 228-ci maddəsinin 1-ci hissəsinə tövsif etmiş və həmin maddə ilə ona 2 il müddətinə azadlıqdan məhrum etmə cəzasını təyin edib, amnistiya haqqında qərara əsasən onu cəzanı çəkməkdən və həbsdən azad etmişdir.

Ərizəçi Vanyan Avropa Məhkəməsi qarşısında ittihamın O.Z. ilə əlaqədar olan hissəsi üzrə məhkum edilməsinin onun Avropa Konvensiyasının 6-cı maddəsinin nəzərdə tutduğu ədalətli məhkəmə araşdırmasına olan hüququnu pozduğunu iddia edərək onu əsas gətirmişdir ki, o, həmin cinayətə milis tərəfindən təhrik edilmişdi (cinayət milis provakasiyasının nəticəsi idi), həmçinin onun məhkum edilməsi bu provakasiyada iştirak etmiş O.Z.-nin və milis əməkdaşlarının ifadələrinə əsaslanırdı (Vanyan ifadəsində O.Z.-nin telefonla ondan narkotik vasitə almağı xahiş edib narkotik olmasa səhhətinin pis olacağını bildirdiyinə görə onu əldə edib O.Z.-yə verdiyini göstərirdi).

Avropa Məhkəməsi Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində hər kəsin ona qarşı istənilən cinayət ittihamı irəli sürülərkən işin məhkəmə tərəfindən ədalətli araşdırılması hüququnun təsbit edildiyini nəzərə alıb ərizəçinin və RF Hökumətinin dəlillərini araşdıraraq əvvəlki təcrübəsinə, xüsusilə də ***"Teixeria Portuqaliyaya qarşı"*** iş üzrə 9 iyun 1998-ci il tarixli qərarına əsaslanmaqla bir daha qeyd etdi ki, "...Konvensiyanın 6-cı maddəsində əksini tapmış ədalətli məhkəmə araşdırmasına dair tələbdən belə nəticə irəli gəlir ki, narkotiklərin satışına qarşı mübarizəyə olan ictimai maraq belə polis provakasiyası nəticəsində əldə olunmuş sübutlardan istifadə edilməsinə bəraət qazandıra bilməz. O halda ki, polisin gizli agentlərinin hərəkətləri şəxsin cinayətə təhrik edilməsinə yönəldilir və həmin şəxsin bu cinayəti onların (agentlərin) müdaxiləsi olmadan da törədə biləcəyini göstərən əsaslar mövcud deyil, bu vəziyyət "gizli agent" anlayışından kənara çıxır və artıq provakasiya adlandırıla bilər" (***"Vanyan Rusiya Federasiyasına qarşı"*** iş üzrə qərarın 46-47-ci bəndləri).

Avropa Məhkəməsi Vanyana qarşı cinayət işində Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində təsbit olunmuş ədalətli məhkəmə araşdırması hüququnun pozulduğunu müəyyən etdi və bu zaman yuxarıda "polis

provakasiyası" anlayışına verdiyi təfsirlə yanaşı aşağıdakılara əsaslandı: "... O.Z. milisin göstərişi ilə hərəkət edirdi. O, ərizəçinin narkotiklərin satışı ilə məşğul olmasını ifşa etmək üçün "nəzarət qaydasında malın alınmasında" iştirak etməyə razılıq vermiş və ərizəçidən xahiş etmişdi ki, ona narkotik vasitə tapsın. O.Z.-nin cəlb edilməsinədək polisdə ərizəçini narkotikləri yaymaqda şübhəli bilmək üçün əsasların olduğunu göstərən sübutlar mövcud deyil. Məhkəmədə milis əməkdaşlarının onlarda ərizəçinin narkotiklərin satışı ilə məşğul olduğuna dair məlumatların olmasına sadəcə istinad etmələri (hansı ki, heç məhkəmə tərəfindən yoxlanılmamışdır) nəzərə alına bilməz. Milis özünü heç də ərizəçinin cinayətkar fəaliyyətini passiv tədqiq etməklə məhdudlaşdırmamışdı. Ərizəçinin cinayəti O.Z.-nin yuxarıda göstərilən qaydada cəlb edilməsi olmadan da törədəcəyini ehtimal etmək üçün əsaslar yoxdur. Bu səbəbdən Məhkəmə belə nəticəyə gəlir ki, O.Z.-nin xahişi ilə narkotik vasitənin əldə edilməsində ifadə olunan cinayət əməli milis tərəfindən provakasiya olunmuşdu. İttihamın O.Z. üçün narkotik vasitənin qabaqcadan əlbir olmaqla əldə edilməsi və saxlanılması hissəsində ərizəçinin təqsirli bilinməsi əsasən milis provakasiyası nəticəsində əldə olunmuş sübutlar, o cümlədən O.Z.-nin və milis əməkdaşları E.F. ilə M.B.-nin ifadələri vasitəsi ilə əsaslandırılmışdı. Beləliklə, milisin müdaxiləsi və bunun nəticəsində əldə olunmuş sübutlardan ərizəçiyə qarşı cinayət işinin qaldırılması üçün istifadə edilməsi məhkəmə araşdırmasının ədalətliliyinə bərpaedilməz zərər vurmuşdur" (qərarın 49-cu bəndi).

İndi isə Avropa Məhkəməsinin haqqında bəhs olunan presedenti əsasında "Əməliyyat-axtarış fəaliyyəti haqqında" 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində təsbit olunan "nəzarət qaydasında mal alınması" adlı əməliyyat-axtarış tədbirini, eləcə də Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137-ci maddəsini təfsir edək. Belə ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsində tətbiqinə yol verilən əməliyyat-axtarış tədbirləri göstərilmiş, o cümlədən həmin maddənin 12-ci bəndində "nəzarət qaydasında mal alınması" kimi əməliyyat-axtarış tədbiri nəzərdə tutulmuşdur. Sözügedən müddəanın məntiqi davamı kimi "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Qanununun 24-cü maddəsində təsbit olunur ki, "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına qarşı mübarizəni həyata keçirən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları "Əməliy-

yat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəzarətli göndərişi həyata keçirmək, göndərilən yükləri, poçt göndərişlərini yoxlamaq, **nəzarət qaydasında narkotik vasitələri və psixotrop maddələri almaq** və qanunla nəzərdə tutulmuş digər **əməliyyat-axtarış tədbirlərindən** istifadə etmək hüququna malikdirlər".

Adı çəkilən qanunun 31-ci maddəsində[6] isə deyilir: "Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi və onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı ilə əlaqədar cinayətkar fəaliyyət haqqında **sübut əldə etmək məqsədilə** Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarının əməkdaşları "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq **nəzarət qaydasında narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarını almaq hüququna malikdirlər**".

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137-ci maddəsində isə təsbit olunmuşdur ki, "Əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və bu Məcəllənin tələblərinə uyğun gəldikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə **sübut kimi qəbul edilə bilər**".

Araşdırılan kontekstə əməliyyat axtarış tədbiri nəticəsində əldə olunmuş sübutların CPM-in 125 və 137-ci maddələrinin tələbləri nöqteyi-nəzərindən qanuniliyi və bu üzdən mümkünlüyü məsələsinə baxıldıqda həmin sübutların polis provakasiyasının nəticəsində əldə edilib-edilmədiyinə də əhəmiyyət verilməlidir, çünki belə yanaşma Avropa Məhkəməsinin ***"Vanyan Rusiya Federasiyasına qarşı"*** iş üzrə qərarından və onun presedentlərinin nəzərə alınmasını tələb edən Azərbaycan Respublikası Konstitusiyasının və Cinayət Prosessual Qanununun yuxarıda göstərilən normalarından irəli gəlir.

---

[6] "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə 22 may 2007-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanının 1.4-cü maddəsinə əsasən "həmin Qanunun 24-cü maddəsində, ... və 31-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanları"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi), Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Milli Təhlükəsizlik Nazirliyi), Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi (Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi) və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti öz səlahiyyətləri daxilində həyata keçirirlər".

Şərh edilən məsələyə Avropa Məhkəməsinin mövqeyindən yanaşdıqda etiraf olunmalıdır ki, əgər sübut müstəsna olaraq polis provakasiyasının nəticəsidirsə və şəxsin yalnız polis provakasiyasının nəticəsi kimi meydana gələn hərəkətlərini (cinayət kimi görülən əməlini) ifşa edirsə, belə materiallar şəxsin cinayətdə təqsirli olduğunu göstərən əsaslar kimi qəbul edilə bilməz.

"Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunla nəzərdə tutulmuş əməliyyat-axtarış tədbirləri də onlara ***"Vanyan Rusiya Federasiyasına qarşı"*** iş üzrə qərarın işığında baxdıqda, şəxsi əslində törətmək niyyətində olmadığı cinayətə sövq edən hərəkətlər olaraq çıxış etməməli, yəni şəxsin cinayət kimi qiymətləndirilən əməli müstəsna olaraq polisin təhriki ilə törədilmiş hərəkətlərdən ibarət olmamalıdır.

Nəzarət qaydasında malın alınması kimi əməliyyat-axtarış tədbirinin gedişində şəxsin onda olan narkotik vasitəni polis əməliyyatına cəlb edilmiş şərti alıcıya "satması" da, şəxsin bu əməliyyatadək, yəni polisin müdaxiləsi olmadan törətdiyi kriminal hərəkətlərinin ifşa edilməsi üçün həyata keçirilən tədbir kimi nəzərdən keçirilməlidir. Məsələn, qanunsuz olaraq narkotik vasitə saxlayan şəxs şərti alıcı vasitəsi ilə nəzarət qaydasında malın alınması əməliyyatının gedişində ifşa olunursa, məsuliyyət yaradan kriminal davranış kimi həmin şəxsin qanunsuz olaraq narkotik vasitəni saxlaması və bunu məhz satış məqsədi ilə etməsi çıxış edir, narkotik maddənin əməliyyatın gedişində şərti alıcıya "satılması" isə onun əməliyyatadək (polisin müdaxiləsi olmadan) törətmiş olduğu həmin cinayətini (satış məqsədi ilə narkotik vasitəni saxlamasını) ifşa etməyə kömək edən vasitə rolunu oynayır və şübhəsiz ki, şəxsin başqa (polisin müdaxiləsi olmadan törətdiyi) kriminal hərəkətləri müəyyən edilmədiyi halda özü-özlüyündə cinayət məsuliyyəti yaradan əməl olaraq qiymətləndirilə bilməz (həm də ona görə ki, əməliyyatın gedişində narkotik vasitənin şərti alıcıya "satılması" zamanı, sözün əsl mənasında, yəni ictimai təhlükəli xarakter daşıyan narkotik vasitənin satışı, yayılması kimi əməl baş tutmur, əksinə bu vəziyyətdə "narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılması"nda özünü göstərən əməliyyat axtarış orqanının fəaliyyəti mövcud olur).

Deməli, əməliyyat-axtarış tədbiri provakasiya yolu ilə şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün faktiki əsasların "yaradılmasını" deyil, polisin müdaxiləsi olmadan törədilmiş və yaxud hazırlanan cinayətin ifşa edilməsini təmin etməli və məhz belə olduqda həm əməliyyatın özü, həm də onun nəticəsində əldə olunmuş sübutlar qanunilik tələbinə cavab verən, şəxsin hüquq və azadlıqlarını pozmayan, beləliklə də, şəxsin təqsirliliyinin əsaslandırılmasında istifadə edilə bilən əsaslar kimi qəbul edilməlidir. Bunun əksinə

olaraq, əgər şəxsin polisin müdaxiləsi olmadan da ona istinad edilən cinayəti törədəcəyini (törətməyə hazırlaşdığını) göstərən əsaslar yoxdursa və törədilmiş əməl, eləcə də şəxsin təqsirliliyi barədə nəticənin əsaslandırılmasında istifadə olunmuş sübutlar polis provakasiyasının nəticəsidirsə, şəxsin məsuliyyətə cəlb edilib cinayətdə təqsirli bilinməsi sübutlara və sübutların tədqiqinə dair qaydalara, ümumiyyətlə, ədalətli məhkəmə araşdırması hüququnun ehtiva etdiyi tələblərə cavab verən araşdırmanın nəticəsi kimi qiymətləndirilə bilməz.

Beləliklə, dediklərimizi yekunlaşdırsaq, o nəticəyə gələ bilərik ki, əməliyyat-axtarış tədbiri kimi "nəzarət qaydasında mal alınması"nı cinayət törətməyə təhrik edilmə ilə eyniləşdirmək olmaz. Bu iki anlayışın təcrübədə fərqləndirilməməsi nəticədə beynəlxalq müqavilələrin və milli qanunvericilik aktlarının müddəalarının, xüsusilə də təqsirsizlik prezumpsiyasının pozulmasına gətirib çıxarar. Məhz buna görə də cinayət prosesini həyata keçirən orqanlar və məhkəmələr sözügedən məsələyə dair Avropa Məhkəməsinin mövqeyini nəzərə almalı, milli qanunvericiliyin normalarını düzgün təfsir etməlidirlər.

## İstifadə olunmuş qanunvericilik aktlarının və ədəbiyyat siyahısı:

1. "Əməliyyat-axtarış fəaliyyəti haqqında" 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu.

2. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci il tarixli Azərbaycan Respublikası Qanunu.

3. Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin Kommentariyası. B., Digesta, 2007.

4. http://www.echr.coe.int/echr/en/hudoc



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

## 2015-ci ilin may-oktyabr aylarında keçirilən tədbirlərin xülasəsi

Ölkəmizdə Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cü il tarixli sərəncamına əsasən “Elektron məhkəmə” informasiya sisteminin yaradılması və tətbiqi ilə bağlı işlər aparılmaqdadır. Bu məqsədlə Azərbaycan Respublikası Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi və Ədliyyə Nazirliyinin həyata keçirdiyi “Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu” layihəsi çərçivəsində həmin informasiya sistemini bütün məhkəmələrdə olduğu kimi Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrdə də tətbiqini təmin etmək üçün bu il mövcud məhkəmələrin inzibati binalarında müvafiq infrastrukturun qurulması işinə başlanılmış, hazırda sözügedən sahədə işlər davam etdirilməkdədir.

≈≈≈

May ayının 20-də Məhkəmə-Hüquq Şurası tərəfindən yuxarı instansiya məhkəmələrinin hakimlərindən, habelə Şuranın aparatı, ədliyyə, prokurorluq, Vəkillər Kollegiyasının nümayəndələrindən və hüquqşünas-alimdən ibarət tərkibdə yenidən formalaşdırılmış Hakimlərin Seçki Komitəsinin ilk iclası keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev iclasda iştirak etmək üçün Bakı şəhərində olmuşdur.

Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov tədbirdə çıxış edərək ölkəmizdə müstəqil məhkəmə sisteminin yaradılması üzrə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi islahatların ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirildiyini, məhkəmə fəaliyyətinin müasirləşdirilməsi barədə dövlət başçısının tapşırıqlarının icrası ilə bağlı əldə edilmiş mühüm nailiyyətləri vurğulamışdır.

Hakimlərin Seçki Komitəsinin fəaliyyət göstərdiyi 10 il ərzində hakimliyə namizədlərin Avropada mövcud olan ən şəffaf və obyektiv Qaydalarla seçimi və tədrisinin təşkili sahəsində yaradılmış müsbət təcrübə qeyd edilmiş, nüfuzlu hüquq təsisatları, o cümlədən Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) tərəfindən Azərbaycanda hakimlərin seçimi prosesinin örnək kimi göstərilməsi, habelə Avropa Şurası

və Avropa İttifaqı bu prosesi müsbət nümunə kimi digər üzv-dövlətlərə tövsiyə etməsi bildirilmişdir.

İclasın ikinci hissəsində Hakimlərin Seçki Komitəsi təşkilati məsələlərə baxmış, Komitə üzvləri tərəfindən Bakı Apellyasiya məhkəməsinin sədri İman Nağıyev Hakimlərin Seçki Komitəsinin sədri seçilmiş, hakimliyə namizədlərin seçimi ilə bağlı məsələlər müzakirə edilmişdir.

≈≈≈

May ayının 22-də Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin 10 illiyinə həsr olunmuş "Demokratik cəmiyyətdə məhkəmə hakimiyyətinin rolu" mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iclasda iştirak etmək üçün Bakı şəhərində olmuşdur.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimləri, Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) rəhbərliyi, Türkiyə Hakimlər və Prokurorlar Ali Şurasının, Ali Məhkəməsinin, Ali Baş Prokurorluğunun və Ədliyyə Akademiyasının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi tədbirdə Məhkəmə-Hüquq Şurasının fəaliyyəti ilə bağlı qısametrajlı sənədli film nümayiş etdirilmişdir.

Konfransı açan Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə islahatının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini bildirmiş, ölkə başçısının məhkəmə sisteminin müasirləşdirilməsinə dair tapşırıqlarının icrası üzrə əldə edilmiş nailiyyətləri, məhkəmə sisteminin təkmilləşdirilməsi, hakimlərin şəffaf seçiminin və tədrisinin təşkili, onların fəaliyyətinin prinsipial qiymətləndirilməsi, qanun pozuntusu, süründürməçilik və digər neqativ halların aradan qaldırılması üzrə ardıcıl tədbirlərə toxunmuşdur.

Prezident Admnistrasiyası hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Konstitusiya məhkəməsinin sədri Fərhad Abdullayev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Baş Prokuror Zakir Qaralov, Milli Məclisin sədr müavini Bahar Muradova çıxış edərək ölkəmizdə məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi üzrə həyata keçirilən islahatlar və qarşıda duran vəzifələri qeyd etmişlər.

Tədbirdə Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) vitse-prezidenti İrakli Adeişvili, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimləri Ganna Yudkivska, Dmitri Dedov, Xanlar Hacıyev, Türkiyə Ədliyyə Akademiyasının prorektoru Mustafa Artuç çıxış etmişdir.

Konfransdan sonra qonaqların iştirakı ilə Məhkəmə-Hüquq Şurasında ədalət mühakiməsinin tarixinə və ümummilli lider Heydər Əliyevin müasir məhkəmə sistemimizin yaradılmasında roluna həsr olunmuş Muzeyin açılışı olmuşdur.

≈≈≈

İyul ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin muxtar respublika məhkəmələrinin 2015-ci ilin birinci yarısındakı fəaliyyətinin yekunlarına həsr olunmuş iclası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov muxtar respublika məhkəmələrinin 2015-ci ilin birinci yarısındakı fəaliyyətinin yekunları ilə bağlı məruzə edərək məhkəmələr tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Ali Məhkəmənin sədri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsinin yenidən qurulmasının vətəndaşların hüquqlarının müdafiəsi və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasındakı rolundan, Ali Məhkəmənin nəşri olan bülletenin növbəti sayının işıq üzü görməsi və bületenin bu sayının məhkəmənin rəsmi internet səhifəsində yayımlanmasından bəhs etmişdir.

Qeyd olunmuşdur ki, ötən illərdə olduğu kimi cari ilin müvafiq dövründə də hakimlərin peşə bacarıqlarının artırılması, hakimlər tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı olaraq Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, onların hüquqi biliklərinin daha da möhkəmləndirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin cari ilin birinci yarısında gördükləri işlərə dair məlumatları dinlənilmişdir.

≈≈≈

## Naxçıvan Muxtar Respublikasının hakimləri üçün "Azərbaycan inzibati prosesinin aktual problemləri (Naxçıvan Muxtar Respublikasında hüquqtətbiqetmə təcrübəsi nəzərə alınmaqla)" mövzusunda seminar keçirilmişdir



30 iyun 2015-ci il tarixdə Naxçıvan şəhərində Azərbaycan Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) birgə təşkilatçılığı ilə "Cənubi Qafqazda hüquq və məhkəmə islahatlarının dəstəklənməsi" proqramı çərçivəsində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin hakimləri üçün "Azərbaycan inzibati prosesinin aktual problemləri (Naxçıvan Muxtar Respublikasında hüquqtətbiqetmə təcrübəsi nəzərə alınmaqla)" mövzusunda bir günlük seminar keçirilmişdir.

Seminarı giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov açaraq insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması istiqamətində ölkəmizdə həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatlarından söhbət açmış və qeyd etmişdir ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi altında muxtar respublikada hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, məhkəmələrdə yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi, eləcə də onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində ciddi addımlar atılmışdır.

Daha sonra çıxış edən Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) Azərbaycan üzrə layihə rəhbəri Tomas Hermann seminarın aktual bir məsələyə həsr olunduğunu bildirmişdir.

Seminarda Almaniyanın Baden-Vürttemberq Yuxarı İnzibati Məhkəməsinin Sədri Folker Ellenberqer və həmin məhkəmənin hakimi (tərkib sədri) Dr. Robert Kellerin "Azərbaycan inzibati prosesin aktual problemləri: Alman baxışı" mövzularında, Azərbaycan Respublikası Ali Məhkəməsinin

hakimi İlqar Dadaşovun "Azərbaycanda İnzibati Prosesual Məcəllənin tətbiqi ilə bağlı aşağı məhkəmələrin praktikasındakı problemlər", habelə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Yusifəli Qurbanovun "Naxçıvan Muxtar Respublikasının məhkəmələri tərəfindən Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin tətbiqi ilə bağlı aktual məsələlərin icmalı" mövzularında çıxışları dinlənilmişdir.

Seminara Ali Məhkəmənin sədri Ramiz Süleymanov yekun vurmuşdur.

Seminar muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən milli qanunvericiliyin tətbiqi təcrübəsinin daha dərindən öyrənilməsi ilə yanaşı, mövzu ilə bağlı qarşılıqlı təcrübə mübadiləsinin aparılması baxımından da mühüm əhəmiyyətə malik olmuşdur.

Keçirilmiş seminarın nəticəsi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə ünvanlanmış minnətdarlıq məktubunda sözügedən seminarın təşkili, ədliyyə sistemində inkişafın əldə olunması, muxtar respublikada fəaliyyət göstərən hakimlərin peşəkarlıq səviyyəsi qonaqlar tərəfindən yüksək qiymətləndirilmiş, bütün bu nailiyyətlərin gərgin əməyin sayəsində əldə olunması xüsusi olaraq vurğulanmışdır.

Məktubda Naxçıvan Muxtar Respublikası ilə yaxından tanış olmaq, onun gözəl mənzərələrindən və mehriban insanlardan xoş təəssüratlar almaq imkanı üçün yaradılmış şəraitə və göstərilmiş köməyə görə dərin minnətdarlıq bildirilmişdir.

Naxçıvandakı görüşün hər zaman xoş xatirələrlə xatırlanacağı qeyd edilən məktubda belə tədbirlərin gələcəkdə də davam etdirilməsinin əhəmiyyəti vurğulanmış, Naxçıvan Muxtar Respublikasında ədalət mühakiməsinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi işində uğurlar arzulamışlar.

≈≈≈

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 90 illiyinə həsr olunmuş tədbir keçirilmişdir



Oktyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 90 illik yubileyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət etmişlər.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında davam etdirilən tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov açmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüququ-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi işçilərinin təltif edilməsi haqqında" 2015-ci il 2 oktyabr tarixli Sərəncamını oxumuş, 90 illik yubiley münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunduğunu bildirmişdir.

Cəlil Rüstəmov Fəxri Fərmanı oxuyub təqdim etdikdən sonra çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında məhkəmə-hüquq sistemi böyük bir yol, təşkilatlanma mərhələsi keçmişdir. Bu inkişafın ötən əsrin 70-80-ci illərini əhatə edən mərhələsi xüsusilə əlamətdardır. Ulu öndər Heydər Əliyevin həmin dövrdə elan etdiyi "Qoy ədalət zəfər çalsın!" prinsipi cəmiyyətin digər sahələri kimi məhkəmə-hüquq sisteminin də yeni tələblər səviyyəsində qurulmasını nəzərdə tuturdu.



Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin ikinci dövründə də ədalət mühakiməsinin təmin olunması, ali prinsip olan insan və vətəndaş hüquqlarının qorunması diqqət mərkəzində saxlanmışdır. Bu diqqətin nəticəsidir ki, məhkəmə-hüquq sistemində islahatlar keçirilmiş, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında məhkəmələrin səlahiyyətləri artırılmış və fəaliyyətlərinin müasirləşdirilməsi üçün tədbirlər görülmüşdür.



Bildirilmişdir ki, muxtar respublikada bütün sahələr kimi, məhkəmələr də qayğı ilə əhatə olunmuşdur. Bu qayğının nəticəsidir ki, Ali Məhkəmə başda olmaqla, muxtar respublikanın bütün məhkəmələri üçün yeni inzibati bina tikilmiş və müasir iş şəraiti yaradılmışdır. Eyni zamanda hakimlərin və məhkəmə işçilərinin əməyinin qiymətləndirilməsi də diqqət mərkəzində saxlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 2 oktyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi işçilərinin bir qrupunun təltif olunması, eləcə də Ali Məhkəmənin bütün kollektivinin mükafatlandırılması hörmətli Sədrimiz tərəfindən bu orqanın fəaliyyətinə göstərilən diqqətin daha bir ifadəsidir. Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 90 illik yubileyi münasibətilə kollektivi bir daha təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov məhkəmənin yaranma tarixinə nəzər salaraq bildirmişdir ki, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1925-ci il 3 oktyabr tarixli qanunu ilə Azərbaycan SSR Ali Məhkəməsinin Naxçıvan MSSR bölməsi yaradılmışdır. Bölmə 1934-cü ildə Naxçıvan MSSR Baş Məhkəməsi, 1937-ci ildə isə Naxçıvan MSSR Ali Məhkəməsi adlandırılmışdır.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi məhkəmə quruluşunun, ədalət mühakiməsi qaydalarının köklü şəkildə dəyişdirilməsini zərurətə çevirmişdir. Lakin həmin dövrdə digər sahələr kimi, məhkəmə orqanlarının fəaliyyəti də diqqətdən kənarda saxlanılmış, bu sahədə əsaslı islahatlar həyata keçirilməmişdir. Yalnız 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra məhkəmə hakimiyyəti sistemində də köklü dəyişikliklər baş vermişdir. “Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir

hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır”, – deyən ulu öndərin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında məhkəmə hakimiyyətinin ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi müəyyən olunmuşdur.

Vurğulanmışdır ki, ulu öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə sisteminin inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Dövlət başçısının məhkəmə hakimiyyətinin müasirləşdirilməsinə həsr olunan 2006-cı il 19 yanvar tarixli Fərmanı məhkəmə islahatlarının növbəti mərhələyə qədəm qoymasına böyük təkan vermiş, vətəndaşların hüquq institutlarına olan tələbatının daha keyfiyyətlə təmin olunması üçün ölkəmizdə yeni apellyasiya məhkəmələri yaradılmışdır. Məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanları ilə regionlarda Ağır Cinayətlər və İnzibati-İqtisadi məhkəmələr yaradılmış, ölkədə fəaliyyət göstərən apellyasiya, ağır cinayətlər, inzibati-iqtisadi və hərbi məhkəmələrin ərazi yurisdiksiyası müəyyənləşdirilmişdir.

Bildirilmişdir ki, həyata keçirilən məhkəmə hüquq islahatları ölkəmizin digər regionları ilə yanaşı muxtar respublikada da fəaliyyət göstərən məhkəmə orqanlarını əhatə etmişdir. Ölkə prezidentinin müvafiq fərmanlarından sonra Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin Ağır Cinayətlərə dair işlər üzrə birinci instansiya kollegiyası ləğv olunaraq ağır və xüsusilə ağır cinayətlərə baxmaq səlahiyyəti yeni yaradılmış Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinə verilmişdir. Eyni zamanda Ali Məhkəmədə daha iki kollegiya-iqtisadi mübahisələrə dair işlər üzrə və hərbi məhkəmələrin işləri üzrə kollegiyalar fəaliyyətə başlamış, muxtar respublikada fəaliyyət göstərən bütün rayon (şəhər) və ixtisaslaşdırılmış məhkəmələrin hökm və qərarlarından apelyasiya şikayəti və protestlərinə baxılması səlahiyyəti Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 noyabr tarixli Fərmanının mühüm əhəmiyyətə malik olduğunu bildirən Ramiz Süleymanov demişdir ki, fərmana əsasən, muxtar respublikanın hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülmüş, məhkəmələr üçün yeni inzibati

binalar tikilmişdir. Hazırda muxtar respublikada fəaliyyət göstərən bütün məhkəmə orqanları müasir binalarda fəaliyyət göstərir.

Ali Məhkəmənin sədri bildirmişdir ki, muxtar respublikada məhkəmə hakimiyyəti orqanlarının hakim korpuslarının formalaşdırılması zamanı ən mütərəqqi və şəffaf qaydaların tətbiq olunması, yüksək bilik və mənəvi keyfiyyətlərə malik olanların hakim seçilməsi diqqət mərkəzində saxlanılır. Ötən müddətdə Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin məzunu olan 16 hüquqşünas muxtar respublikada fəaliyyət göstərən məhkəmələrə hakim vəzifələrinə təyin edilmişdir. Bundan başqa, peşəkarlıq və hüquqi hazırlıq nümayiş etdirən 4 hakim Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə, 5 hakim məhkəmə sədri vəzifəsinə irəli çəkilmiş, habelə 1 hakim Məhkəmə Hüquq Şurasının, 1 hakim isə Hakimlərin Seçki Komitəsinin üzvü seçilmişdir. Əvvəllər muxtar respublikanın məhkəmə orqanlarında fəaliyyət göstərmiş 3 hakim hazırda Azərbaycan Respublikası Ali Məhkəməsində, 6 hakim isə ölkəmizin digər regionlarının müxtəlif məhkəmə orqanlarında hakimlik fəaliyyətlərini davam etdirirlər.

Qeyd olunmuşdur ki, Ali Məhkəmənin kollektivi bundan sonra muxtar respublikada ədalət mühakiməsinin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəli fəaliyyət göstərəcək, bu sahədə üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri İlham Cəfərov və İslam Əliyev çıxış edərək Azərbaycan Respublikası Məhkəmə Hüquq Şurasının sədri Fikrət Məmmədovun və Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin təbriklərini çatdırmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təqaüddə olan hakimi Şamxal Hüseynov, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Qabil Məmmədov, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri Qasım Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının şöbə müdiri Mehdi Əliyev çıxış edərək məhkəmə orqanlarına göstərilən dövlət qayğısından danışmış, kollektivi 90 illik yubiley münasibətilə təbrik etmişlər.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin Sərəncamı ilə təltif olunmuş Seyidova Xasa Seyidəli qızına “Rəşadətli əməyə görə” nişanı təqdim olunmuş, Ali Məhkəmənin bir qrup işçisinə qiymətli hədiyyələr verilmişdir.

≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**


4700000000
053-2014

Yığılmağa verilmiş: 16.10.2015.
Çapa imzalanmış: 23.10.2015.
Formatı 60x90 1/8 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 5,5 ç.v.
Sifariş № 762. Tiraj 100 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.